Bu bir xalq qəzetidi
ƏDALƏT

## XİN sözçüsü: "Türkiyə Azərbaycana ən böyük siyasi dəstəyi göstərən dövlətdir"




**"Azərbaycan-Türkiyə münasibətləri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Bu münasibətlərin dünyada bənzəri yoxdur".**

Adalet.az-ın xəbərinə görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib.

**O bildirib ki, Azərbaycan strateji münasibətlərin gələcəkdə inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcək: "Türkiyə Azərbaycana bu günə qədər ən böyük siyasi dəstəyi göstərən dövlətdir".**

## DYP-dən sürücülərə bayram günləri ilə bağlı müraciət




**Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi sürücülərə müraciət edib.**

İdarənin baş inspektoru, polis mayoru Araz Əsgərli bildirib ki, Qurban bayramı günlərində yol polisi gücləndirilmiş qaydada xidmət göstərəcək: "Dəyərli xalqımız islam dünyasının böyük rəğbətlə qeyd etdiyi, hər bir müsəlman üçün əziz olan Qurban bayramınızı təbrik edir və bu bayram günlərini təhlükəsiz şəraitdə keçirilməsini arzu edirik. Bayram günlərində bir sıra yol hərəkəti qaydalarını unutmamağı, əsasən yolların hərəkət istiqamətlərinin zəbt edilərək dayanma-durma tələblərini pozmamağı və digər vətəndaşlarımızın rahat və fasiləsiz hərəkətlərinə maneə yaratmamağı, uzaq məsafələrə səfərlər zamanı yuxu və istirahət rejimlərinə əməl etməyi, səfər öncəsi avtomobillərinizin sazlığına diqqət yetirməyi xahiş edirik. Hər birinizin rahatlığının təmin olunması üçün bütün bayram günləri xidmətimizi gücləndirilmiş qaydada təmin etməyimizin bir məqsədi var ki, o da sizin təhlükəsizliyinizin yüksək səviyyədə təmin olunmasıdır. Bir daha hər birinizə xoş istirahətlər və neqativ hallarla yadda qalmayan bayram arzu edirik!"

*Mehman CAVADOĞLU*

## Tokayev həqiqi liderə çevrilir

Bax:səh-3

## Ceyhun Bayramov: "Sərhədin delimitasiyası prosesi vaxt aparır"



**"Sərhədin delimitasiyası prosesi vaxt aparır. Münasibətlərin tarixini nəzərə alsaq, buna nail olmaq heç də asan olmayacaq. Bununla belə, prosesin başlaması artıq özü-özlüyündə yaxşı addımdır".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Ermənistan sərhəddinin delimitasiyası prosesi haqqında sualı cavablandırarkən deyib. XİN rəhbəri bildirib ki, delimitasiya komissiyasının növbəti iclasının tarixi hələ məlum deyil.(report)

## AQTA Qurban bayramı ilə əlaqədar əhaliyə çağırış edib

*"Bir daha vətəndaşları, heyvan kəsimi və satışı ilə məşğul olan şəxsləri qanunvericiliyin tələblərinə əməl etməyə, kəsim və satışı yalnız müəyyənləşdirilmiş yerlərdə həyata keçirməyə çağırırıq". Bunu AQTA-nın mətbuat katibi Aysel Fərziyeva brifinqdə deyib.*

*"Bayram günlərində satış üçün nəzərdə tutulan heyvanların sağlamlığı şübhə doğurduqda, eyni zamanda qanunvericiliyin tələblərinə məhəl qoyulmadan küçə və yol kənarlarında antisanitar şəraitdə heyvan kəsimi və satışı hallarına rast gəldikdə vətəndaşlardan hüquq-mühafizə və yerli icra orqanlarına, o cümlədən Agentliyin "1003 - Çağrı Mərkəzi"nə müraciət etmələri xahiş olunur", - o əlavə edib. AQTA sözçüsü bildirib ki, AQTA-nın 400-dən çox əməkdaşı Qurban bayramı günlərində kəsim və satış məntəqələrinə cəlb ediləcək: "Səhiyyə Nazirliyinin aidiyyəti qurumları tərəfindən dezinfeksiya işlərinin vaxtında həyata keçirilməsi, tullantıların daşınmasına nəzarət həyata keçiriləcək".*

## RUSİYA QARAQALPAQISTAN BOMBASINI PARTLADA BİLMƏDİ



**SSRİ yarananda imperiyanın əsl sahibi Rusiya hər bir müttəfiq respublikaya bir "bomba" yerləşdirmişdi. Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya, Acariya, Cənubi Osetiya, Moldovada Dnestryanı, Ukraynada Donbass və Luqansk, Özbəkistanda Qaraqalpaqıstan, Qazaxıstanı sürgünlərlə ruslaşdırmış və çoxmillətli etmişdi, Tacikistan və Qırğızıstanı da elə bölmüşdü ki, hələ də bölünüb qurtara bilmirlər.**

Ən tez partlayan bomba Dağlıq Qarabağ oldu. Amma bu bomba eyni zamanda SSRİ-ni dağıtdı.

İndi də uzun illərdən sonra Özbəkistan üzünü Türkiyə və Azərbaycana çevirdi. Qardaş ölkənin prezidenti Şavkat Mirziyayev çox müdrik addım atdı. Təbii ki, bu, Rusiyanın xoşuna gələ bilməzdi, ona görə də dərhal Qaraqalpaqıstan bombasının fitilini yandırdı.

Şavkat Mirziyayev yenə də bir müdrik addım atdı, dərhal Qaraqalpaqıstana gəldi və fitili söndürdü. Amma təbii ki, fitil hələ tüstülənir.

**Tanrı qardaşlarımıza kömək olsun.**

## YANDIRIN, DAĞIDIN, TALAN EDİN...

**Deyəsən, nöyütü də sülhməramlılar verir. Ermənilərin Laçını boşaltmaları vaxtı yaxınlaşdıqca şəhərdə talançılıq və evlərin yandırılması başlanılıb. Necə ki Kəlbəcərdən çıxacaqlarına vaxt verdik və onlar da vaxtdan istifadə edib şəhəri darmadağın etdilər, gedəndə də unitazlarını da apardılar. İndi də bunu Laçında həyata keçirirlər. Sülhməramlılar, daha dəqiq desək, sülənənməramlılar durub tamaşa edir. Onlar üzərlərinə düşən missiyanı, o missiyanın ki, altına Putin imza atıb, veclərinə almırlar.**

Və yaxud da, əslində və yaxudsuz, gizli tapşırıq alıblar ki, nəinki göz yumun, nöyüt, ya benzin tapmasalar kömək edin.

Dağıdın, yandırın, talan edin, torpağı ki yandıra bilməyəcəksiz? Torpağı ki belinizə şələyib apara bilməyəcəksiz? Ondan da gözəl Laçın tikəcəyik. Onsuz da heç bir azərbaycanlı içindən erməni iyi gələn evdə yaşamaz. O iyi təmizləmək də mümkün deyil.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 31 (5968) 9 iyul 2022-ci il
Qiyməti 30 qəpik

# Prezident Azərbaycan xalqını təbrik etdi



**Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb. Adalet.az xəbər verir ki, təbrikdə deyilir:**

**"Hörmətli həmvətənlər!**

**Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.**

**Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.**

**Azərbaycan xalqı əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.**

**Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm.**

**Əziz bacı və qardaşlarım!**

**Ümidvaram ki, etdiyiniz dua və niyyətlər Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevrilərək, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcəkdir. Qoy müqəddəs Qurban bayramı ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin.**

**Bayramınız mübarək olsun!".**

## MEDİA-da "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirildi



**İyulun 8-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Yüksəliş" müsabiqəsinin qalibləri Ruslan Mirzəliyev, Orxan Qazı Zadə, Elçin Mirzəzadə ilə görüşüb.**

Adalet.az xəbər verir ki, görüşdə yüksək idarəetmə və liderlik keyfiyyətlərinə malik kadrların fərdi inkişafının dəstəklənməsi və perspektiv rəhbər şəxslərin peşəkar səriştə və idarəçilik təcrübələrinin artırılmasında "Yüksəliş" müsabiqəsinin əhəmiyyəti vurğulanıb. Əhməd İsmayılov qaliblərə rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri, media islahatları çərçivəsində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Media sahəsində qaliblərin fikirlərini dinləyən Əhməd İsmayılov onların mediaya dair məsələlərlə bağlı suallarını cavablandırıb, yeni təkliflər haqqında fikir mübadiləsi aparıb.

## DOSTUNU GÖSTƏR, SƏNİN KİM OLDUĞUNU DEYİM



***Bu məşhur Azərbaycan məsəlidi, amma bütün dünya üçün keçərlidi.***

***İndi Rusiyanın ən yaxın dostu Ermənistandı, ermənilərdi. Belə olan halda, Rusiya kim olur?!***

***Cavab yazmaya da bilərsiz.***

## MİLLƏTİN XAHİŞİ İLƏ...



**"AZAL"ın prezidentinin maaşını hələ ki Cahangir Əsgərov alır.**

*TƏRLAN ƏBİLOV*

## ŞUŞA SÖHBƏTİ...



***İndi Allahsızam, dinim də yoxdu,***
***Şeytan havasına oynayıram, bax!***
***Ta mənimki keçib, mənimki ötüb,***
***Yerli Allah kimi, hökumət kimi***
***Özümü***
***Adam yerinə qoymayıram, bax!***

***Kim biçib ömrümə bu yoxsulluğu?***
***Kimin əlləridir üzümə duran?***
***Tapa biləcəkmi çiliklərini***
***Qəfil dönsə geri qəlbimi qıran?***
***Görən biləcəkmi məndə yerini,***
***Oyulub tökülən sümüklərimin?***
***Ayrılıq üşüdür iliklərimi,***
***Ancaq səsim çıxmır cana doysam da,***
***Qəsdimə durmaqdan doymayıram, bax!***

***Bir yanda çirklənmiş paltaram köhnə,***
***Bir yanda içi boş dərman şüşəsi.***
***Bircə ona şükür, çəkdiyim dərddi,***
***Şükür, kötüksüzdü***
***bu evdə-eşikdə edam guşəsi...***
***Mən indi ömrümün son günlərini***
***Əzilmiş manattək üst-üstə qoyub***
***sayıram, bax!***

Bax:səh-3

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## NAXÇIVAN SƏRHƏDİ DƏ BAĞLANDI, ZATO TÜRKİYƏ–ERMƏNİSTAN SƏRHƏDİ AÇILDI



*Hava gələn bütün deşikləri bağlayın, barmağınızı soxun, ordan hava gəlməsin.*

*Naxçıvanda bir qapı vardı, ordan bir az nəfəs alırdıq, indi onu da bağladılar. Azərbaycan həqiqətən də analoqu olmayan ölkədir. Bütün dünya sərhədlərini açır, biz daha da möhkəmləndiririk. Qonşu Gürcüstan kefdədi.*

*Türkiyədə təhsil alan 20 min tələbə lələöy döyür. Kimin nə vecinə? Onların arasında sərhədi bağladanların birinin də övladı yoxdur. Hələ mən Kiprdəki 2-3 min tələbəni demirəm. Eləcə də Rusiyada oxuyan tələbələri. Quru sərhədi bağladanlar elə bil durublar bu millətin qəsdinə. Bu mafiyanın qarşısında Yakudza da, Koza nostra da kiçik mafiyalardı.*

*Saytlar da xalqla məzələnir. Hər gün neçə sayt yazır ki: "Rəsmi açıqlama: sərhədlər açılır". Yazıq camaat da tökülüb oxuyur, görür fındıq, özü də çürümüş fındıq. Hansısa bir deputat, ya ekspert deyib ki, sərhədlər açılmalıdır.*

Bax:səh-2

## Zelenskidən Putinə mesaj

**Ukrayna lideri Volodimir Zelenski Rusiya Prezidenti Vladimir Putinin Ukraynaya qarşı müharibəyə görə məsuliyyət daşıdığını və onu bitirə biləcəyini başa düşməsini istəyir.**



Bu barədə Zelenski CNN telekanalına müsahibəsində danışıb.

Aparıcının "Əgər Putin hazırda müsahibəyə baxsaydı, Zelenski ona nə deyərdi?" sualına Ukrayna prezidenti aşağıdakı cavabı verib: "Mən onu konkret olaraq məlumatlandırılmağa ehtiyacı olan şəxs hesab etmirəm. Bizim ərazimizdə Rusiyanın başladığı qanlı müharibə gedir. Sadəcə, onun bunu xüsusilə etdiyini başa düşməsini istərdim. Dərk etsin ki, konkret olaraq buna son qoya bilər. Bütün mesaj bundan ibarətdir. Seçim artıq onundur: davam etmək və ya son qoymaq".

Zelenski həmçinin vurğulayıb ki, ukraynalılar sülh sazişi və müharibənin başa çatması naminə torpaqlarından imtina etməyə hazır deyillər.

## ÜST-dən həyəcan təbili: Uşaqlar arasında meymunçiçəyinə yoluxma var



**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) uşaqlar arasında meymunçiçəyi xəstəliyinə yoluxma hallarını qeydə alıb.**

Bu barədə ÜST-ün nümayəndəsi Rozamund Lyuis brifinq zamanı bildirib.

Onun sözlərinə görə, bu gün meymunçiçəyinə yoluxma aşkarlanan uşaqların təxminən üçdəbiri 10 yaşınadək, yarısı isə beş yaşınadək uşaqlardır.

Lyuis qeyd edib ki, çox güman ki, kiçik uşaqlar xəstəliyə evdə yoluxurlar. 18-19 yaşlı xəstələr arasında meymunçiçəyi xəstəliyinin yayılması məsələsi hələ də aktuallığını itirməyib.

## Rusiya vətəndaşlarını gizli müharibəyə hazırlayır

**Rusiya öz vətəndaşlarını uzun sürən müharibəyə və gizli müharibə rejiminə hazırlayır.**

Adalet.az xəbər verir ki, bunu İsrail Müdafiə Qüvvələrinin zabiti, hərbi analitik Yiqal Levin deyib.

O, ukraynalıları bunun illərlə, uzun müddət davam edəcək müharibə olduğuna psixoloji baxımdan hazırlaşmağa çağırıb:

"Biz bilirik ki, belə müharibələr illərlə davam edə bilər. Əfqanıstanda müharibənin 20 yaşı var idi. Ona görə də Ukraynada bunun 10 il də davam etməsi tamamilə mümkündür".

Analitik onu da bildirib ki, Ukraynanın qələbəsi təkcə Qərbin silahları ilə deyil, onların tətbiqi ilə də yaxınlaşacaq. Bunun üçün kəşfiyyat mükəmməl işləməlidir ki, bu da düşmənin anbarlarını və qərargahını uğurla vurmağa imkan verəcək.

## Mehman Muradlıdan günün statusu



***Nəinki dövlət sərhədini, hətta rayonlararsı sərhədi də bağlamaq lazımdı. Allaha şükür ki, poçti hər rayonda aeroportumuz var.***

## Sirli şəkildə yox olan sivilizasiyalar...

Bax:səh-5

## GÜNÜN LƏTİFƏSİ

Vasif Quliyev foyedə Vəli Xramçaylıyla rastlaşır:

**- Necəsən ay Vəli, nətər yaşayırsan?**

Vəli Xramçaylı?

**- Əla yaşayıram qağa? -**

Villan var?

**- Yox.**

- Maşının var?

**- Yox.**

- Bankda pulun var?

**- Yox.**

- Heç olmasa evdə televizorun var?





**- Bə nədi qağa, televizorum olmasaydı mən hardan biərdim ki, əla yaşayıram.**

# Prezident Ramanada görülən abadlıq işləri ilə tanış oldu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olub.**

Adalet.az xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov qəsəbədə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bünyad Qasımov: Cənab Prezident, bu, yeni işıqlandırma sistemidir.

Prezident İlham Əliyev: Qənaətlə işləyir?

Bünyad Qasımov: Cənab Prezident, bunlar yerli, Azərbaycanda istehsal olunan divarüstü işıqlardır. Bütün kənd 100 faiz tam işıqlıdır.

Prezident İlham Əliyev: İşıqlandırılıb. İş yerləri də yaradılıb.

Bünyad Qasımov: 300 iş yeri artıq mövcuddur. Planlaşdırmışıq, ilin sonuna qədər 450-yə qədər iş yeri açdıraq.

Bildirildi ki, Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşıb, qəsəbədaxili yollar asfaltlanıb, divar və dam örtükləri yenilənib, küçələrin işıqlandırılması həyata keçirilib. Qəsəbənin Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhman bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələri tamamilə yenilənib. Həmçinin ərazi tullantılardan təmizlənib.

Diqqətə çatdırıldı ki, Ramana qəsəbəsi Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngindir. Onlardan biri qəsəbənin girişində əzəməti ilə diqqəti cəlb edən, XII-XIV əsrlərə aid olduğu bildirilən Ramana qalası yüksək nöqtədə yerləşir. Ehtimal edilir ki, divarlarının hündürlüyü 15 metr olan qala müdafiə məqsədilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri Ramana qalasında çəkilib.

Dövlətimizin başçısı qalada aparılan bərpa işləri ilə tanış oldu.

Ramananın qədim abidələrindən biri də Novruzqulu hamamıdır. Prezident İlham Əliyevə bu qədim hamam barədə də məlumat verildi.

Bildirildi ki, keçmişdə hamamda dörd quyu fəaliyyət göstərsə də, indi onlardan üçü mövcuddur. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanıb və təsdiqlənib. Hamamın binasında keyfiyyətli bərpa işləri görülüb.

Qeyd edilib ki, Ramanada yenidənqurma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub.

Dövlətimizin başçısına Ramanada əhalinin məşğulluğunun artırılması sahəsində görülən işlər barədə də məlumat verildi. Qeyd edildi ki, qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb.

Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışı həyata keçirilir.

Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunub.

Məlumat verildi ki, Pirşağıda hazırlanan quru meyvələrin satışı da Ramanada həyata keçiriləcək. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, həmçinin yerli əhali və turistlərin ehtiyaclarını qarşılamaq mümkündür.

Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir.

Layihənin məqsədi özünəməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, həmçinin yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.

Dövlətimizin başçısı Ramanadakı evlərdən birinin həyətində qəsəbə sakini ilə söhbət etdi.

**Prezident İlham Əliyev:** Salam, necəsən?

**Sakin:** Sağ olun, yaxşıyam.

**Prezident İlham Əliyev:** Sənin evindir?

**Sakin:** Bəli. Yeni abadlaşdırılmış Ramana kəndimizə xoş gəlmisiniz. Hər zaman Siz gələsiniz.

**Prezident İlham Əliyev:** Çox sağ ol.

**Sakin:** Gördüyünüz bu evdə şəhid əmim Allahverdi Allahverdiyev qalıb.

**Prezident İlham Əliyev:** Birinci Qarabağ müharibəsi şəhidi?

**Sakin:** Bəli, Birinci Qarabağ müharibəsinin veteranı Fərzəli Fərzəliyev babamdır, əmim də var Namiq Allahverdiyev, o da müharibə veteranıdır.

**Prezident İlham Əliyev:** Sən bu işlə də məşğul olursan?

**Sakin:** Bəli, cənab Prezident.

**Bünyad Qasımov:** Damcı üsulu ilə suvarmadır.

**Prezident İlham Əliyev:** Çiyələkdir?

**Bünyad Qasımov:** Bəli, çiyələkdir. Yenidir, 10-15 gün olar. Bir-iki aydan sonra buralar hamısı yaşıl olacaq, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**Bünyad Qasımov:** Qışda göyərti, yayda da çiyələk əkilir.

**Prezident İlham Əliyev:** Görürəm bu ev də, həyəti də təmir olunub.

**Bünyad Qasımov:** Ümumiyyətlə, Sizin tapşırığınıza və göstərişinizə əsasən, evlərin damları, qapıları, divarları, darvazaları əsaslı təmir edilib. Şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirilib.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Sağ olun.

Ramana həm də ovdanları ilə məşhurdur. Qəsəbədə bərpaolunan tarixi abidələrdən biri də el arasında 40 pillə adlanan su ovdanıdır.

Azərbaycan ərazisində, Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir. Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI-XVIII əsrlərdə içmək üçün yararlı olan lay sularından istifadə edilməsi məsələsi aktuallaşıb və ovdanlar yaradılıb. Bu qurğuların tikintisi XX əsrə qədər davam edib.

Prezident İlham Əliyevə su ovdanında görülən təmir-bərpa işləri barədə məlumat verildi.

Ramana sakinlərinin həm sağlam həyat tərzi, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün qəsəbədə İdman Mərkəzi inşa olunub. Mərkəzdə qapalı idman zalı, minifutbol meydançası yaradılıb.

**Dövlətimizin başçısı Ramana İdman Mərkəzində yaradılan şəraitlə də tanış oldu.**

# Vilayət Eyvazov türkiyəli generalı qəbul etdi

**Azərbaycan və Türkiyə respublikalarının Daxili İşlər nazirlikləri arasında Bakıda keçiriləcək polis əməkdaşlığı üzrə 7-ci işçi görüşdə iştirak etmək üçün Türkiyənin Daxili İşlər Nazirliyinin Emniyyet Genel Müdirinin müavini, general-mayor Resul Holoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**

DİN-dən Adalet.az-a verilən məlumata görə, Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov iyulun 6-da nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir Türkiyə ilə Azərbaycan arasında əlaqələrin, strateji əməkdaşlığın və qarşılıqlı münasibətlərin getdikcə daha da dərinləşdiyini məmnunluqla vurğulayıb. Azərbaycan Respublikasının son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan sabitliyin yaradıldığını, onun dönməzliyinin təmin olunduğunu qeyd edən nazir bildirib ki, kriminogen durumun tam nəzarətə götürülməsi, sabitliyin bərpası ilk növbədə vətəndaşlarımızın,



həmçinin əcnəbilərin, o cümlədən türkiyəli iş adamlarının respublikamızda təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradıb.

Qeyd olunub ki, Azərbaycanın Daxili İşlər Nazirliyi qardaş Türkiyənin hüquq mühafizə orqanları ilə münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli formatda inkişaf etdirilməsinə böyük önəm verir. Bu əlaqələrin normativ-hüquqi bazası ilk növbədə qarşılıqlı hüquqi yardım göstərilməsi, təcrübə mübadiləsi, dostluq və strateji əməkdaşlığın hərtərəfli inkişaf etdirilməsi barədə dövlətlərarası müqavilələrə əsaslanır.

Nazir Vilayət Eyvazov polis əməkdaşlığı üzrə keçirilən işçi görüşlərinin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrin daha da genişlənməsinə təkan verəcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyətinin rəhbəri general-mayor Resul Holoğlu qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın hər hansı iki dövlət arasındakı əlaqələrə bənzəmədiyini vurğulayaraq, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib. Dostluq və mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə edilib.

**Qəbulda Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı da iştirak edib.**

# Ortaya atılan ev məsələsinin bizə unutdurduqları



*Səxavət Məmməd*

**Müğənni Roza Zərgərlinin övladlığa götürdüyü Corc Qafarova ev verilməsi ölkədə ən çox müzakirə olunan mövzuya çevrilib.**

Ev verilən şəxsin Roza Zərgərlinin oğlu olması məsələni bir qədər başqa istiqamətlərə çəkir.

Roza Zərgərlini nə səsindən, nə üzündən, nə də əndamından tanıyıram. Yazacaqlarımın da nə Zərgərliyə, nə də Qafarova aidiyyəti var.

Ölkədə xeyli adam ev məsələsinə görə Roza Zərgərlinin oğlunu dəstəkləyir: Uşaq evində qalıb, əziyyət çəkib, fəhlə kimi işləyib, küçələrdə yaşayıb. Əslində, bunu deyən adamlar hədəfi düzgün nişan alırlar, ancaq mərmini başqa yerə atırlar.

Qafqazın lider dövlətində kimsəsizlər evində qalan uşaq niyə görə küçələrə düşməli idi? O, bir qarın çörək tapmaq üçün niyə fəhləlik etməli idi?

Bildiyim qədər, Corc Qafarovun özü bu barədə müsahibəsində danışıb. Niyə dövlət qurumları, uşaq evlərinə nəzarət edən qurumlar hərəkətə keçməyib?

Ötən il kimsəsizlər evindən çıxıb yataqxanalarda yaşayan uşaqlara qurban payı aparmışdıq. Uşaqlar payı götürən kimi hamısı bir ağızdan: "Əmi, nə olur-olsun, bizə iş tapmağa kömək edin də", - dedi. Aparılan ətləri də dərhal bişirəcəklərini deyirdilər. Bilirsiniz niyə? Çünki soyuducuları yox idi ki, onu bir neçə dəfəyə bişirib yeyə bilsinlər. Budur sosial siyasət?

Dəfələrlə uşaq evlərində yaşayanlarla söhbət etmişəm. Döyülmə, işgəncə, bir qarnı ac, bir qarnı tox yatmaları, işsizlik, fahişəlik. Uşaq evlərindən çıxan qızların böyük hissəsi fahişəliyə cəlb olunur. Yaxud özləri bu yolu seçir. Niyə? Bunu hansı qurum araşdırıb?

18 yaşları tamam olandan sonra uşaqlar öz başlarına buraxılırlar. Başlı başını saxlasın! Bu ölkədə nə qədər elə uşaq var axı? Yəni dövlətin onları himayəsinə almağa heç gücü yoxdur? Bir neçəsinə ev verməklə iş bitmiş sayılır?

SOS Uşaq Kəndlərinin Gəncə filialı ilə bağlı bir neçə yazı yazmışdım. Həmin uşaqlar elə şeylər danışırdı ki, adam həyata nifrət edirdi. Bir elə iddia qarşısında, şahidlər olduğu halda, dövlətin heç bir qurumu hərəkətə keçmədi. Uşaqlara gələn ərzağın yeyilməsi, onların işlədilməsi, ianələrin onlara çatmaması, döyülmə halları. Hətta o yazıları yazandan sonra obyektiv araşdırma üçün SOS Uşaq Kəndlərinin mərkəzindən - Avstriyadan iki psixoloqla da məni görüşdürdülər ki, görsünlər, hansısa marağım var, yoxsa yox. İkinci dəfə görüşəcəklərini bildirdilər, o gedən getdilər. 2019-cu il dekabr ayının 16-da SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası bəyanat yaydı. Təşkilatın Milli Direktoru Rəşad Hüseynov SOS Uşaq Kəndləri Gəncə filialında baş verənlərlə bağlı ictimaiyyəti məlumatlandıracaqdı.Ancaq nə açıqlama oldu, nə də hansısa dəyişiklik. Əvəzində Rəşad Hüseynov mərkəzi ofisə vəzifəyə getdi. Uşaqlar hələ də şikayət edirlər. Baxan olacaq? Mən də elə sizin kimi düşünmüşdüm. YOX!

Nəyi qoyub, nəyi axtarırıq. Uşaq evlərini bitirmiş qızlardan birinin dediyi heç yadımdan çıxmaz. Dedi, bir neçə qız bir yerdə kirayədə yaşayırdıq, səhərdən axşama qədər eşşək kimi işlədirdilər, ancaq qazandığımız pul yeməyimizi görmürdü və beləcə qızlar bir-bir başqa yola düşdü. O yolun adı məlumdur - Fahişəlik!

Dövlət kimsəsiz uşaqlara ev verəndə sevinməməliyik! Bu o qədər sıradan, adi bir hal olmalıdır ki, heç bunun xəbər əhəmiyyəti də olmamalıdır. Dövlət o uşaqların hamısını işlə, evlə təmin etməlidir. Deyəcəklər, edir. Ümumi uşaqların sayı ilə verilən evlərin nisbəti nə qədərdir?

Deyənlər olacaq ki, onsuz da işsizlik baş alıb gedir. Tamamilə razıyam! Nəinki kimsəsiz uşaqlar, kimi-kimsəsi olanlar belə iş tapmaqda əziyyət çəkir. Bu ölkədə mütləq arxan, dayağın olmalıdır! Maaşlar da bəlli, qiymətlər də! Yaşa görüm necə yaşayırsan!

Roza Zərgərlinin oğluna ev verilməsinə etiraz edənlərə şəhid ailələri və qaziləri misal çəkəndə dərhal qarşı arqumentləri o olur ki, onları buna qarışdırmaq doğru yanaşma deyil.

Qardaşım, o evi verən də, bu evi verməli olan da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi deyil?

Kirayədə qalan şəhid anasına verməyə ev tapılmır? Bir neçə gündür ki, kirayədə yaşayan şəhid anası barədə sosial şəbəkədə yazırlar. Sahil Babayevi yuxuda belə görəndə ilan-qurbağalar (OXU: trollar) adamı basıb yeyir. Ancaq ƏƏSMN-dən heç kim bunu görmür.

Şəxsən mənə kimə, kimin oğluna və ya oğulluğuna ev verilməsi zərrə qədər maraqlı deyil, qətiyyən də narahat etmir. Məni narahat edən nazirliyin bu günə qədər yarıtmaz fəaliyyətidir.

Nazirlik rəsmi olaraq bildirib ki, ev verilən şəxs bunu haqq edir. Buna deyəcək heç bir iradım yoxdur. Kim deyir ki, haqq etmir?! Ancaq eynilə Corcun yaşadıqlarını və ondan daha artığını yaşayan onlarla şəxs var ki, bu müraciəti edib. Ancaq müsbət cavab almayıb. Bax buna görə tərəvəzlər əyri bitib!

**Hə, bu arada, Corca ev verilməsi məsələsi elan olunan kimi əsas sosial problemlər yenə də yaddan çıxdı. Məsələn, sərhədlərin hələ də bağlı qalması, bunun sayəsində AZAL rəhbərliyinin cibinin dolması, bu azmış kimi, Türkiyə ilə Naxçıvan arasındakı quru yolun qapadılması Ən çox müzakirə olunanlar sırasında yer alan bu məsələlər "Corcun evi" ortaya atılana qədər cəmiyyətin hər bir fərdinin dilində idi. Ancaq nə oldu? Toplum önünə atılan yemə cumdu, əsas üstündə durulmalı zadlar da arada it-bat oldu. İndi də meymunçiçəyindən çörək çıxmayacağını görənlər yenidən koronavirusdan mədət umaraq yoluxma sayını artırırlar. Odur ki, unutqan olmamalıyıq.**

# Litva və Rusiyanın "Kaliningrad" gərginliyi: Kremlin oyunu?

**Yadınızdadırsa, əvvəlki yazılarımızda sizə Kalininqrad haqqında bilgilər vermişdik. Həmin yazımızda xəbər vermişdik ki, Polşanın Quru Qoşunlarının sabiq komandanı general Valdemar Skşipçakın dediyinə görə, Rusiyanın Kalininqrad şəhəri əslində polyakların qədim yaşayış məntəqəsidir:"Bu şəhərin Rusiyadan alınmasının vaxtı çatıb. Fikrimcə, əzəli Polşa ərazisi olan Kalininqradla bağlı məsələnin həlli yollarının aranmasının vaxtı çatıb. Şəhər 1945-ci ildən bəri Rusiyanın işğalı altındadır. Halbuki həmin ərazilər tarixən Prussiya və Polşa torpaqları olub. Bu səbəbdən də Polşanın Kaliniqrada iddia etməsinin qanuni əsasları var".**

Generalın dediyinə görə, Kalininqrad şəhəri Baltika dənizinə və Polşa ovalığına aparan qapıdır: "Bu yerlərdən Mərkəzi və Qərbi Avropaya yol keçdiyindən Rusiyanın hərbi və siyasi strategiyasında Kalininqradın xüsusi yeri var".



Əzəli pruss kəndi Tvanqste olmuş bu məkanda 1255-ci ildə Tevton Ordeninin cəngavərləri çex kralı 2-ci Prjemısl Otakarın şərəfinə Köniqsberq (almanca "Kral Dağı") qalası inşa etmişdilər.

Qala sonradan böyüyərək şəhərə çevrilmişdi.Yeri gəlmişkən polyaklar bu şəhəri Korolevets adlandırırdılar.

Adalet.az Haberler.com-a istinadən xəbər verir ki, Litva xarici işlər naziri Qabrielius Landsberqis Kalininqradla bağlı açıqlama verib. O bildirib ki, Litva öz ərazisindən Kalininqrada tranzit keçidini aprel ayından, AB-nin müvafiq sanksiyasından sonra bağlayıb:" Putin bu məhdudiyyətə iyunda reaksiya göstərib, bu isə Kremlin hansısa oyunlarından xəbər verir:Bəzilərinin fikrincə, bu, Ukraynada müharibənin "yaxşı getmədiyinə" görədir və diqqəti yayındırmaq məqsədi daşıyır.

Halbuki dördüncü sanksiya paketi apreldə qəbul olunub. Bütün izahat orada idi.

Və biz tranzitin həcminin azaldığını gördük. Ona görə də indi müşahidə etdiklərimiz oyundur".

Qeyd edək ki, Litvada martın 3-də Rusiya Səfirliyi binasının yerləşdiyi küçəyə "Ukrayna qəhrəmanları küçəsi" adı veriləcəyi barədə məlumat yayılmışdı. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Litvanın Rusiyanın Vilnüsdəki səfirinin ölkəni tərk etməsini istəməsi qərarına cavab verəcəklərini bildirdi.

**Zaxarova yazılı açıqlamasında Litvanın bu gün "Rusiya ilə diplomatik əlaqələrin səviyyəsini aşağı salmaq" qərarına gəldiyini bildirdi:"Litva administrasiyasının bu son dərəcə düşməncəsinə hərəkətləri ikitərəfli münasibətləri məhv etmək məqsədi daşıyır. Litva tərəfi buna görə tam məsuliyyət daşıyır. Buna qarşı tədbirlər ən qısa zamanda elan ediləcək".**

**Əntiqə Rəşid**

# Bayden Türkiyəyə F-16 qırıcılarının satışı ilə bağlı Konqreslə işləməyə hazırdır

**ABŞ prezidenti Co Bayden Türkiyənin F-16 qırıcıları parkının modernləşdirmə planlarını dəstəkləyir və bu məsələdə Konqreslə işləməyə hazırdır.**

Bu barədə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Daq Cons



bildirib. D.Cons qeyd edib ki, F-16 qırıcılarının Türkiyəyə satılması və onların modernləşdirilməsi məsələsi uzun müddətdir ABŞ-ın gündəmindən düşmür:

"C.Bayden bu satışı dəstəkləyir. Bununla belə, C.Bayden açıq şəkildə bildirib ki, satışın davam etməsi üçün Konqresin razılığı lazımdır. Liderlər (Türkiyə və ABŞ prezidentləri) bu məsələni müzakirə ediblər. (Madrid) sammitdən sonra administrasiyamızın mövqeyi dəyişməyib. Biz bu satışı dəstəkləyirik. C.Bayden bu məsələdə Konqreslə işləməyə hazırdır". - deyə ABŞ Dövlət Departamentinin nümayəndəsi qeyd edib.

**MEHRİBAN**

*Aqil ABBAS*

# NAXÇIVAN SƏRHƏDİ DƏ BAĞLANDI, ZATO TÜRKİYƏ–ERMƏNİSTAN SƏRHƏDİ AÇILDI

***Hava gələn bütün deşikləri bağlayın, barmağınızı soxun, ordan hava gəlməsin.***

***Naxçıvanda bir qapı vardı, ordan bir az nəfəs alırdıq, indi onu da bağladılar. Azərbaycan həqiqətən də analoqu olmayan ölkədir. Bütün dünya sərhədlərini açır, biz daha da möhkəmləndiririk. Qonşu Gürcüstan kefdədi.***

***Türkiyədə təhsil alan 20 min tələbə lələöy döyür. Kimin nə vecinə? Onların arasında sərhədi bağladanların birinin də övladı yoxdur. Hələ mən Kiprdəki 2-3 min tələbəni demirəm. Eləcə də Rusiyada oxuyan tələbələri. Quru sərhədi bağladanlar elə bil durublar bu millətin qəsdinə. Bu mafiyanın qarşısında Yakudza da, Koza nostra da kiçik mafiyalardı.***

***Saytlar da xalqla məzələnir. Hər gün neçə sayt yazır ki: "Rəsmi açıqlama: sərhədlər açılır". Yazıq camaat da tökülüb oxuyur, görür fındıq, özü də çürümüş fındıq. Hansısa bir deputat, ya ekspert deyib ki, sərhədlər açılmalıdır.***

***Bəli, Naxçıvan qapısı da bağlandı, amma zato, Türkiyə-Ermənistan sərhədi açıldı. Deməli, bu şərtlə açılıb ki, 3-cü ölkə vətəndaşları sərbəst quru sərhədindən keçib gedə bilərlər - Ermənistana, ya Türkiyəyə. İndi Avropada yaşayan, Rusiyada və digər ölkələrdə yaşayan ermənilər üçüncü ölkə vətəndaşı olduqlarından istədikləri vaxt Ermənistandan Türkiyəyə, Türkiyədən də Ermənistana keçə bilərlər. Ermənilərə də bu lazımdı. Bütün dünyadakı ermənilər axışacaq Ermənistana, ordan da Qarabağa. Rusiyada, Ukraynada, İranda yaşayan ermənilər də Türkiyəni suyoluna döndərəcək.***

***İndi bir məsələ açıq qalıb. Azərbaycanlılar da 3-cü ölkə vətəndaşlarıdı, biz də bu müqavilədən istifadə edə bilərikmi? Türkiyədəki tələbələrimiz quru sərhədindən İrəvana gələ bilər, ordan da ya Laçın dəhlizindən maşınla keçib Şuşaya gələrlər və yaxud da ermənilərin "AZAL"ı (Ermənistanın hava şirkətinin adını bilmirəm) İrəvan-Bakı reysi açar. Əgər İstanbula, Berlinə, Parisə sərnişinləri 50 dollara daşıyırsa, Bakıya axın olduğundan bizim uşaqları daha ucuz qiymətə gətirə bilərlər.***

***Əziz Türkiyədə lələöy döyən balalarımız, bəlkə bir "popıtka" edəsiniz?***

***Bir məsələ də açıq qaldı. İranın quru sərhədini bağlaması ilə Naxçıvan-Iqdır sərhədinin bağlanması eyni vaxta təsadüf edir. Bu təsadüfdür, yoxsa camaatın dediyi kimi, Putindən gəlmə "prikazdı"?***

## Milli Məclis daha bir ölkə ilə işçi qrupu yaratdı

**Milli Məclis Azərbaycan-Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradıb. Bununla bağlı Milli Məclisin dünən keçirilən növbədənkənar plenar iclasında "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" qanuna dəyişiklik edilib. Deputat Mahir Abbaszadənin Azərbaycan-Əlcəzair parlamentlərarası əlaqələr üzrə işçi qrupa rəhbər seçilməsi təklif edilib. Sənəd müzakirələrdən sonra səsverməyə qoyularaq qəbul edilib.**

Bununla da Milli Məclisin 84 parlamentlərarası əlaqələr üzrə işçi qrupu olub.

## Toponomiya komissiyasının tərkibinə dəyişiklik edildi



**Milli Məclis "Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında" Milli Məclisinin Qərarında dəyişiklik edilib. Dəyişikliyə əsasən, "Məmmədzadə Aqşin Təvəkkül oğlu" sözləri "İskəndərov Cavid Nizami oğlu" sözləri ilə əvəz edilib.**

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq qəbul edilib.

## Parlament hakimin səlahiyyətlərinə xitam verdi

**Milli Məclis Bakı Apellyasiya Məhkəməsinin hakiminin səlahiyyətlərinə vaxtından əvvəl xitam verib. Belə ki, deputatlar Bakı Apellyasiya Məhkəməsinin hakimi Elmira Eyvaz qızı Nağıyevanın səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi müzakirə ediliblər.**

Məsələ haqqında məlumat verən deputat Nizami Səfərov bildirib ki, hakim E.Nağıyevanın fəaliyyətində ciddi nöqsanlar olduğuna görə onun səlahiyyətlərinə xitam verilməsi təklif edilir.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq qəbul edilib

## Əmək pensiyasının təyinatında nəzərə alınacaq müddət artırılır

**Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanuna dəyişiklik üçüncü oxunuşda qəbul edilib.**

Dəyişikliklə əmək fəaliyyəti müddətindən əlavə olaraq əmək fəaliyyətinə aid olmayan, lakin sığortaolunanın "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sosial sığorta stajına daxil edilən dövrlərin nəzərə alınması, o cümlədən avtomatlaşdırılmış pensiya təyinatında, habelə sığortaolunanın ölümü ilə əlaqədar olaraq onun ailə üzvlərinə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ailə başçısını itirməyə görə əmək pensiyasının təyinatında bütün dövrlərin nəzərə alınması nəzərdə tutulur.

**Nicat Novruzoğlu**
**Parlament müxbiri**

## Rusiya ordusu öz mövqelərini vurdu



**Donetsk və Zaporojye vilayətləri sərhədində Rusiya ordusunun RYAS bölmələri öz mövqelərini vurub. Bu barədə Zaporojye Regional Hərbi İdarəsi məlumat yayıb.**

"Bir müddət əvvəl rusların RYAS bölməsi Neskuçnoye qəsəbəsi yaxınlığındakı mövqelərini vurub. Nəticədə bir əsgər həlak olub, daha ikisi yaralanıb", - məlumatda deyilir.

**MEHRİBAN**



Mehman CAVADOĞLU

# Tokayev həqiqi liderə çevrilir

*Rusiyanın Ukraynaya qarşı hərbi təcavüzü postsovet ölkələrinin əksəriyyəti üçün də ciddi sınaq oldu. Qərbin həm siyasi, həm hərbi strukturlarına tam inteqrasiya olunmuş üç keçmiş sovet respublikası qatı antirusiya mövqeyi tutsalar da, daha üç keçmiş respublika - Belarus, Ermənistan və Tacikistan birmənalı şəkildə onun yanında yer aldılar. Zorən manevr eləmək məcburiyyəti qarşısında qalmış digər yeddi respublikanın isə özləri qismən, ürəkləri tam şəkildə Ukraynanın yanındadı.*

*Sonuncuların arasında Qazaxıstanın mövqeyi xüsusi maraq doğurur. Əslində, 2022-ci ilin ilk günlərindən bu ölkədə baş verən və ən kəskin süjetli filmləri belə kölgədə qoyan hadisələrin fonunda elə təəssürat yaranmışdı ki, yeni ildə postsovet məkanındakı hərbi-siyasi proseslərin ağırlıq mərkəzi Xəzərin qərbindən şərqinə adlayacaq.*

*Həmin vaxt maye qazın qiymətinin artırılmasıyla bağlı Janaozen şəhərində başlamış lokal etiraz aksiyası bir neçə gün ərzində ölkənin bəzi regionlarına da yayıldı və xüsusilə keçmiş paytaxt Almatıda öz məcrasından çıxaraq talanlar və qarətlərlə müşahidə olunmağa başladı. Nəticədə prezident Qasım- Jomart Tokayev KTMD qoşunlarını ölkəyə dəvət etdi.*

*Prezidentin bu addımı təkcə təəccüb yox, həm də məyusluq yaratdı. 30 ildir müstəqillik qazanmış, üstəlik, keçmiş sovet respublikalarının arasında bəlkə də ən varlısı olan bir ölkənin bu səviyyədə iğtişaşları təkbaşına yatırtmaq gücünə malik olmaması heç də inandırıcı görünmürdü.*

*Ən tragikomik hadisə isə KTMD mandatlı rus qoşunları ölkəyə girəndən sonra baş verdi. Onlar, demək olar ki, əllərini ağdan-qaraya vurmadılar, Qazaxıstanın öz güc strukturları iğtişaşları yatırdandan sonra gəldikləri tələskənliklə də ölkəni tərk etdilər.*

*Nə qədər baş sındırsan da bu hoqqabazlığın əsl səbəbləri haqqında düz-əməlli bir qənaətə gəlmək mümkün olmayacaq, sadəcə, hər biri hədsiz suallar doğuran çoxsaylı versiyaların arasında itib-batacaqsan.*

*Hərçənd, səbəb bilinməsə də nəticə məlumdur: Tokayev üç ildən sonra, nəhayət ki, öz real səlahiyyətlərinə sahib oldu. O, 2019-cu ilin martında Nazarbayevin özü tərəfindən formal olaraq prezident kürsüsündə oturdulmuşdu. Bu cür formal missiyaların icrası isə, adətən, yumşaq və üzüyola adamlara həvalə edilir.*

*Yanvar hadisələrinə kimi Qazaxıstanda da real hakimiyyətin "Elbaşı" və onun ailəsinin əlində olması heç kimə sirr deyildi.*

*Nazarbayev Rusiyaya qarşı nə qədər ehtiyatlı və balanslı davransa da onun öz hakimiyyətinin son dövrlərində "türkçülük" idealına doğru meyllənməsi Qazaxıstanı heç də Ukraynadan az özününkü saymayan Putini çox qıcıqlandırırdı. Odur ki, Tokayevin Yanvar olayları vaxtı atdığı çaşqın addımlar, eləcə də yuxarıda dediyimiz "üzüyola" imici "postnazarbayev dövrü"ndə öləkənin büsbütün Rusiyanın tapdağına çevriləcəyi qorxusu yaradırdı.*

*Ancaq bütün bu qeyri-ardıcıl və məntiqsiz siyasi perfomanslarına rəğmən indi o heç kimin gözləmədiyi səviyyədə tam müstəqil və cəsarətli siyasət yürüdür. Hər halda Tokayevin "Yanvar minnəti"nin altından belə tezliklə çıxacağını və Kremlin siyasətinə, özü də ən həssas məsələlərlə bağlı siyasətinə qarşı açıq mətnlə sərt təpki göstərəcəyini heç kim gözləmirdi. Bu amil məlum iğtişaşlar vaxtı baş verən hərbi-siyasi gəlişmələrin ətrafındakı sirr qatını bir az da qalınlaşdırır.*

*Ukrayna müharibəsinin ilk günlərindən Qazaxıstanın rəsmi şəxsləri müharibə əleyhinə bəyanatlar verdilər və Ukraynanın haqq işinin yanında olduqlarını bəyan etdilər. Bu azmış kimi rəsmi Nursultanın Qərbin Rusiyaya qarşı tətbiq elədiyi sanksiyaların əleyhinə heç bir addım atmayacağı bildirildi.*

*Bu da azmış kimi eyni fikirləri şəxsən Qasım- Jomart Tokayev keçən ay Sankt-Peterburqda keçirilmiş iqtisadi forumdakı çıxışında birbaşa Putinin üzünə dedi. O, Qazaxıstanın heç vaxt Krımın və Donbasın işğalını tanımayacağını bəyan elədi və bununla da Putinin məhrəm hisslərinə toxunmaqla yanaşı Kremlin sıx müttəfiqlik münasibətləri üçün təkbaşına çızdığı qırmızı xətti keçdi. Qərb mətbuatı Tokayevin bu demarşını Putinin üzünə vurulan şillə kimi qiymətləndirdi.*

*Rusiya prezidenti həmin forumda təmkinini zahirən qorusa da Kremlin qarayaxa təbliğat maşını özünün ən murdar təmsilçiləri olan Solovyovların, Popov və Skabayaevlər, Simonyan və Kesoyanların timsalında bu günə kimi nə Qazaxıstanın özündən, nə də onun prezidentindən əl çəkir.*

*Putin həmin tədbirdə özünü təmkinli və "ağayana" aparsa da, hətta Tokayevin çıxışının başqa məqamlarla bağlı bəzi hissələrindən sitatlar gətirsə də Qazaxıstanı ənənəvi rus üslubunda cəzalandırmağı da unutmadı. Rusiya nəqiyyata nəzarət idarəsi guya Xəzər Boru Kəmərində ekoloji pozuntular ucbatından Novorossiya terminalını bir aylıq bağladı. Bu təxminən Azərbaycan və Türkiyədən idxal olunan meyvə-tərəvəzə vaxtaşırı qoyulan qadağa kimi bir şeydir və səbəbdən çox bəhanədir.*

*Xatırladaq ki, Qazaxıstan neft hasilatı üzrə dünyada 11-ci yeri tutur və istehsal etdiyi neftin 89 faizi eksporta gedir. Eksporta gedən neftin böyük əksəriyyəti isə məhz Novorossiya terminalı vasitəsilə dünya bazarına çıxardılır.*

*Bu günlərdə Tokayevlə Avropa Birliyinin prezidenti Şarl Mişel arasında keçirilən telefon danışığının əsas mövzusu da məhz qazax neftinin qərb bazarlarına çıxarılmasıyla bağlı olub. Tokayev AB-ni alternativ marşrutların, o cümlədən Transxəzər Beynəlxalq nəqliyyat Marşrutunun inkişafı üçün əməkdaşlığa çağırıb.*

*Təbii ki, burda söhbət həm də Şərq- Qərb nəqliyyat dəhlizinin inkişafından gedir ki, burda da ən əsas, oyunçulardan biri, heç şübhəsiz ki, Azərbaycandır.*

*Azərbaycan təkcə coğrafi mövqeyinə görə yox, həm də infrastrukturlarına görə bu layihənin əsas oyunçusudur. Çindən Avropaya doğru uzanan bu böyük yolun Azərbaycandan üzü qərbə tərəf olan hissəsində neft və qaz kəmərlərindən tutmuş, şosse və dəmir yoluna kimi bütün sahələr üzrə hazır marşrutlar mövcuddur. Üstəlik, Rusiya və İranla avtomobil, dəmir və dəniz yoluyla birbaşa əlaqələr də bu ölkəni bölgənin bir nömrəli nəqliyyat dəhlizinə çevirib. BTC və TAP TANAP Qazax neftinin, Türkmən qazının Avropa bazarına çıxarılması üçün ən əlverişli, ucuz, ən əsasısa hazır layihələrdir.*

*Üstəlik, gündəmdə Xəzərin Azərbaycan və Türkmənistan sahillərini birləşdirəcək 7,9 milyard dollar dəyərində qaz kəməri layihəsi də var ki, həmin layihə gerçəkləşəndən sonra bu cür infrastrukturlardan əməkdaşlıq əvəzinə təzyiq vasitəsi kimi istifadə eləyən Rusiyanın bölgədəki hegemonluğuna ağır zərbə olacaq.*

*Bir sözlə, Qazaxıstanın həm də güclü intellektual potensiala malik hazırkı prezidenti hakimiyyəti tam öz əlinə yığmaq üçün atdığı ziddiyyətli addımların ardından yeritdiyi müstəqil siyasətlə öz haqqındakı bəzi mənfi stereotipləri dağıtdı ki, bu da türk dünyasının ərazicə bu ən böyük ölkəsinin bundan sonra da həqiqi türk birliyinin yaranmasına mühüm töhvə verəcəinə olan ümidləri də artırır.*

# Analitik hesabat təqdim olundu

## Narkotik vasitələrdən istifadə edənlər 22 faiz artıb



**Bakıda "Yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsi üzrə analitik hesabat"ın təqdimatı keçirilib.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Teymur Məmmədov hesabat haqqında məlumat verərək onun dövlət komitəsinin sifarişi əsasında Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən hazırlandığını diqqətə çatdırıb.

### *Narkotik istifadəçisi sayı 34602 nəfər təşkil edib*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bəşəriyyət üçün təhlükəli problem olan narkomaniyanın ciddi narahatlıq doğurduğunu və onun genişlənməsinin qarşısının alınmasının ciddi məsələlərdən olduğunu qeyd edib. Narkomaniya ilə mübarizə məsələsinin Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıran komitə sədri deyib: "Ölkəmizdə narkomaniya ilə mübarizə istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilir. Narkotik maddələrinin istifadəsinin artması həm də, paralel olaraq cinayətkarlığın artması deməkdir. Bu bəlaya düçar olan yeniyetmələrin ən azı üçdə ikisi narkotik vasitələrdən asılı vəziyyətə düşdükdən sonra bu və ya digər cinayət əməlləri törədərək cinayətkara çevrilirlər.



BMT-nin Narkotiklər və Cinayətlər İdarəsi tərəfindən 2021-ci il üzrə dərc edilmiş "Dünya Narkotik Hesabatı"nda qeyd edilir ki, hazırda dünyada 275 milyona yaxın insan müntəzəm olaraq narkotik vasitələrdən istifadə edir və bu, 2010-cu illə müqayisədə 22 faiz artım deməkdir.

2021-ci ildə qeydiyyatda olan narkotik istifadəçisi sayı 34602 nəfər təşkil edib. bunlardan 566 nəfəri qadın, 14 nəfəri isə yetkinlik yaşına çatmayan şəxsdir".

Bahar Muradova bildirib ki, narkomaniya ilə mübarizə istiqamətində ölkəmizdə dövlət proqramları və müxtəlif layihələr həyata keçirilir. 2007-2012-ci illər üzrə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə Proqramı" və "2013-2018-ci illər üçün narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi istiqamətində mühüm işlər görülüb. Ölkəmizdə narkomaniya ilə mübarizə istiqamətində 2019-cu il ildə 2019-2024-cü illər üçün dövlət proqramı qəbul edilib. "Dövlət komitəsi bu istiqamətdə üzərinə düşən işi layiqincə və məsuliyyətlə görməyə çalışır.

Təkcə ötən il respublikanın 47 rayon və şəhərində ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, valideyn komitəsinin sədrləri üçün bu istiqamətdə 84 təlim keçirilib və bu təlimlərdən də 2100 nəfərə yaxın iştirakçı faydalanıb. Ötən ildən komitənin təşkilatçılığı ilə Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi ilə birgə başlayan və bu gün də davam edən "Narkotiksiz həyat", "Sağlam həyat tərzi", "Ziyanlı vərdişlərin insan sağlamlığına təsiri", "Ziyanlı vərdişlərin ailələrə təsiri", "Həyatının memarı - Sən özünsən" mövzularında təlim və layihələrimiz bütün regionları da əhatə edib.

Azərbaycanda da yeniyetmələr və gənclər arasında narkotik və psixotrop maddələrdən istifadə hallarının yüksələn xətt üzrə artdığını və aktuallıq kəsb etdiyini nəzərə alaraq, komitə ilə "Vətəndaşların əmək hüquqlarının müdafiəsi liqası"nın birgə əməkdaşlığı çərçivəsində yetkinlik yaşına çatmayanlar arasında narkotik və psixotrop maddələrdən istifadə dərəcəsinin qiymətləndirilməsi məqsədilə hesabat hazırlanıb. Bu prosesə Səhiyyə və Daxili İşlər nazirlikləri və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının nümayəndələri də cəlb olunublar".

Komitə sədri vurğulayıb ki, narkomaniya ilə mübarizədə təkcə dövlətin deyil, qurumların, cəmiyyətin bir yerdə, yəni kompleks şəkildə işləməsi daha məqsədəuyğundur. Komitə sədri gəncləri bu zərərli vərdişlərdən uzaq olmağa çağırıb.

### *Sağlam həyat tərzi vərdişləri aşılanmalıdır*

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Azərbaycan narkomaniya ilə mübarizə istiqamətində bütün beynəlxalq konvensiyalara qoşulub. Dövlətin siyasətinə uyğun olaraq hüquq-mühafizə orqanları, polis bu bəla ilə mübarizədə adekvat fəaliyyət göstərirlər.

Onun sözlərinə görə, elə məsələlər var ki, narkomaniya ilə mübarizədə qanunla tam tənzimlənməyib. "Uşaqlarımızı və gənclərimizi sosial şəbəkələr vasitəsilə zərərli vərdişlərdən çəkindirmək bizi narahat edən məsələdir. Narkomaniya ilə birlikdə mübarizə daha çox səmərə verir. İdmanın kütləviliyi artırılmalı, sağlam həyat tərzi vərdişləri aşılanmalıdır", - deyə Əli Hüseynli vurğulayıb.

7 tondan çox narkotik vasitə və psixotrop maddə dövriyyədən çıxarılıb

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov Daxili İşlər Nazirliyi narkotiklərin qanunsuz dövriyyəsinin qarşının alınması və əhalinin maarifləndirilməsi istiqamətində səmərəli iş aparır.

O bildirib ki, bu gün ölkədə narkotik istifadəçilərinin sayı rəsmi qeydiyyatda olanlardan çoxdur, narkotikə meylli şəxslərin vaxtında aşkarlanması, əhalinin maarifləndirilməsi prioritet məsələdir.

Qeyd olunub ki, görülən tədbirlər nəticəsində bu il indiyə kimi narkotiklərin satışı üzrə 19 min cinayət hadisəsinin qarşısı alınıb, 7 tondan çox narkotik vasitə və psixotrop maddə dövriyyədən çıxarılıb: "Narkotik vasitələri satanlar əsasən xarici ölkələrdən istifadə olunan profillər vasitəsilə işlərini həyata keçirir və gəncləri, qadınları cəlb edirlər. Narkomaniya ailədaxili münaqişələrin sayının artmasına da təsir edir. Buna görə narkomaniya ilə mübarizədə valideynlərin rolu böyükdür".

### *Ailələr bəzən övladlarının narkotiklərə aludə olduğunu gizlədirlər*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında İctimai Şuranın sədri, Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədovun sözlərinə görə, narkomaniya ilə mübarizədə yetkinlik yaşına çatmayanlarla işləmək xüsusi və həssas yanaşma tələb edir.

Bildirilib ki, ailələr bəzən övladlarının narkotiklərə aludə olduğunu gizlədirlər və təəssüf ki, bu da qarşısı alınmayan fəsadlara gətirib çıxarır.

Sahib Məmmədov vurğulayıb ki, narkomaniyanın qarşısının alınmasında birgə fəaliyyət mühüm şərtdir. Onun sözlərinə görə, uşaq və gənclərin idmana, sağlam həyat tərzinə cəlb edilməsi narkomaniya ilə mübarizədə ən yaxşı vasitədir.

### *17-18 yaşarası çox həssas dönəmdir*

**Narkomaniya ilə mübarizədə yetkinlik yaşına çatmayanlarla iş prosesində üçbucaq səmərəliliyindən danışan Səhiyyə Nazirliyinin "Respublika Narkoloji Mərkəz"in psixoloqu Ramin Allahverdiyev narkomaniyaya, ümumiyyətlə zərərli vərdişlərə aludəçilik baxımından kimyəvi və qeyri-kimyəvi asılılıq faktorlarının olduğunu qeyd edib. "Statistika göstərir ki, zərərli vərdişlərə aludəçilik nöqteyi-nəzərindən 17-18 yaşarası çox həssas dönəmdir. Bu işdə ailə və sosial mühitin rolu son dərəcə mühümdür. Bir psixoloq kimi orta məktəblərdə narkotiklərlə bağlı maarifləndirmə işinin həssas müstəvidə aparılmasının vacibliyini qeyd etmək istəyirəm", - deyə o qeyd edib. Onun sözlərinə görə, uşaq və gənclərin sağlam həyat tərzinə cəlb edilməsi zərərli vərdişlərdən çəkindirmə məsələsində əsasa vasitədir.**

**Nicat Novruzoğlu**

# Putinin "dxr" və "lxr"ni tanımayan Tokayevə sürpriz: "Tengiz"də partlayış

**Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayev "dxr" və "lxr"nin müstəqilliyini tanıması ilə bağlı bəyanatı Rusiyanın bu ölkəni bağışlamayacağı anlamına gəlirdi. Bəli Tokayevin Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda, Putinin yanındaca Luqansk və Donetskdəki qondarma qurumları "kvazidövlət" adlandırması və onların müstəqilliklərini heç vaxt tanımayacaqlarını bəyan etməsi, ölkələrin ərazi bütövlüyünə dəstəyi Putinin yaxın günlərdə növbəti bir probləmə imza atacağını ortaya qoyurdu. Putinin ilk işi Qazaxıstan neftinin Avropaya ixracına mane olmaq olduğu baş verən proseslərdən görünməyə başladı.**



Qazaxıstanın Qərb alıcılarının onu sanksiyaya məruz qoyan Rusiya markalı "Urals" ilə qarışdırmamaq üçün adını dəyişməyi qərara aldığı neftin ixracı Novorossiysk limanında dayandırıldı. Adalet.az xarici mətbuata istinadən xəbər verir ki, İyulun 6-da səhər tezdən Qazaxıstanın ən böyük neft yataqlarından biri olan "Tengiz"də güclü partlayış baş verdi. Yataq Qazaxıstan üçün böyük əhəmiyyət daşıyır və orda neft ehtiyatları 3,2 milyard tondur.

Hazırda dünya ictimaiyyətinin diqqətini özünə çəkən bu hadisənin heç də təsadüf olmadığı qənaətinə gəlinib.

Siyasətçilərin fikrincə, bu hadisə Tokayevin dxr" və "lxr"nin müstəqilliyini tanımaması ilə bağlı ola bilər.

**Qeyd edək ki, Rusiyanın RT kanalının baş redaktoru qatı millətçi, separatçı fikirlərin daşıyıcısı Marqarita Simonyan, kinorejissor Tiqran Keosayan (M. Simonyanın əri -red-Ə.R.) kəskin şəkildə, utanmadan, Qazaxıstanda Qələbə Günündə hərbi paradın ləğvini tənqid etdi, "Qazax qardaşlarına" iki böyük ideyanın savaşında "qərar verib tərəf tutmağı" tövsiyə etdi Qazaxıstanı nankorluqda ittiham edən və ölkəni hədələyən məşhur erməni " Ukraynaya diqqətlə baxın" dedi.**

**Əntiqə Rəşid**

# Paşinyanın "Zabux" açıqlaması etiraz doğurdu: Aksiyalar başladı...

**Xəbər verdiyimiz kimi, Ermənistanın Baş naziri Nikol Paşinyan ötən həftə İrəvanda onlayn keçirilən mətbuat konfransında açıqlama edərək bildirmişdi ki, "Laçın dəhlizi" Rusiya sülhməramlı kontingenti tərəfindən boşaldılandan sonra Laçın şəhəri və Zabux kəndinə nəzarət Azərbaycan Silahlı Qüvvələrinə keçəcək. "Laçın dəhlizinə alternativ yolun inşası başa çatdıqdan sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən kənarda yerləşən ərazilər Azərbaycana qaytarılacaq"**

Paşinyan hətta bildirdi ki, Azərbaycana təhvil veriləcək Laçın şəhəri və Zabux kəndinin sakinləri mənzillə təmin olunacaq.



Adalet.az Sputnik Armenia-ya istinadən xəbər verir ki, Baş nazirin bu açıqlamasından sonra Ermənistan Müqavimət Hərəkatının fəalları növbəti dəfə uzunmüddətli etiraz aksiyalarına başlamağa qərar verib.Beləki, İrəvanın Baqramyan prospekti ilə Dəmirçiyan küçəsinin kəsişməsində, Ermənistan parlamentinin binasına yaxın ərazidə etiraz aksiyasına artıq başladıqları qeyd olunur.

Qeyd edək ki, Ermənistan parlamentinin sədr müavini, "Müqavimət hərəkatı" nın liderlərindən olan İşxan Sağatelyan Paşinyanın bu tip açıqlamalarına etiraz etmişdi:"Nikol Paşinyan Ermənistan parlamentində bəyan edib ki, Qarabağ ermənilərinin təhlükəsizliyini təmin edəcək istənilən status Ermənistan üçün məqbuldur. Adam açıq şəkildə bildirir ki, Qarabağın Azərbaycanın tərkibində olmasına qarşı deyil. Azərbaycan Prezidenti İlham Əliyev bu gün Paşinyanın bəyanatına cavab verib və bildirib ki, onun Qarabağın "statusu" barədə danışılmaması üçün Paşinyanla razılaşması var

**Hətta bir müddət öncə parlamentin "Ermənistan" blokunun deputatı Aram Vardevanyan iyulun 4-də yığışaraq spontan aksiya keçirməyi təklif etmişdi.**

**Əntiqə Rəşid**

Ramiz Məmmədzadə
Şair-publisist



# İstəklim Aqil Abbas

**Salam olsun sizlərə. 85 yaşlı bir kəsin xəstəxanada olması təəccüblü deyil. Ağdamlıların sözü olmasın "qırağın bir az qatlamışam".**

**Mərdəkandakı Xəzər Tibb Mərkəzindəyəm.Ölməyə hələ həvəsim yoxdu. Hələ Ağdama qayıdıb bir ana-bala kimi onunla qucaqlaşıb orada qalmaq niyyətindəyəm.**

**Mən Ağdamsız heçnəyəm.Bütün bunları Sən dəqiq bilirsən,qiymətli DOST!**

**Burada göstərilən hər cür diqqətə, qayğıya görə hər kəsə minnətdaram. Hərtərəfli xoş münasibət göstərirlər.**

**Bu diqqətə, qayğıya görə həmin xəstəxananın həkim və tibb işçilərinə minnətdarlığımı bildirirəm. Xahiş etdim ki, tibb işçilərindən bir neçəsinin adını versinlər. Dedilər ki, bizim borcumuzdur.**

**Ona görə də Sizdən xahiş edirəm, mənim minnətdarlığımı onlara qəzetiniz vasitəsilə bildirəsiniz.**

TƏRLAN ƏBİLOV

# ŞUŞA SÖHBƏTİ...

*İndi Allahsızam, dinim də yoxdu,*
*Şeytan havasına oynayıram, bax!*
*Ta mənimki keçib, mənimki ötüb,*
*Yerli Allah kimi, hökumət kimi*
*Özümü*
*Adam yerinə qoymayıram, bax!*

*Kim biçib ömrümə bu yoxsulluğu?*
*Kimin əlləridir üzümə duran?*
*Tapa biləcəkmi çiliklərini*
*Qəfil dönsə geri qəlbimi qıran?*
*Görən biləcəkmi məndə yerini,*
*Oyulub tökülən sümüklərimin?*
*Ayrılıq üşüdür iliklərimi,*
*Ancaq səsim çıxmır cana doysam da,*
*Qəsdimə durmaqdan doymayıram, bax!*

*Bir yanda çirklənmiş paltaram köhnə,*
*Bir yanda içi boş dərman şüşəsi.*
*Bircə ona şükür, çəkdiyim dərddi,*
*Şükür, kötüksüzdü*
*bu evdə-eşikdə edam guşəsi...*
*Mən indi ömrümün son günlərini*
*Əzilmiş manattək üst-üstə qoyub*
*sayıram, bax!*

*Gələ bilməyirəm sənlə görüşə,*
*Ayaqqabım yoxdu, köynəyim yoxdu.*
*Laxlayır ağzımda sonuncu dış də,*
*Ömürdən savayı göynəyim yoxdu,*
*Bağışla məni, Şuşa,*
*Bu boyda dərdlərimlə düşüb ölməyim yoxdu...*

*Kimə, nəyə həsrət deyiləm ki, mən?*
*Özü öz qanadın qıran bir quşam...*
*Sən mənim çəkdiyim dərdlə yanaşı*
*Qızımın çəkdiyi şəkilsən, Şuşam.*
*Nə başım, nə əynim durur üstümdə,*
*Sayılıb seçilən vaxtımda mənim...*
*Sən məni bağışla, bağışla, Şuşa,*
*Görüşə gəlməsəm səninlə, demək,*
*Yox imiş bu görüş baxtımda mənim.*
*Bu varlı ölkədə, yoxsul ölkədə*
*Bir mən deyiləm,*

*Sənin görüşünə gələ bilməyən,*
*Evinin içində hələ də minaya düşən,*
*Evinin içində ölə bilməyən.*
*Şükür, əsirlikdən qurtarıb canın,*
*Mənsə bu ölkədə əsirəm hələ.*
*Ölkənin ən kasıb adamlarıyçün*
*Onsuz da özümə çatmayan nəfəsimi*
*Şeir yazmaq ilə kəsirəm hələ.*

*Başqa heç nə gəlmir əlimdən, neynim?*
*Bir nazik vərəqə bələnirəm, bax!*
*Əlimi Allaha belə açmıram,*
*Kimsə düşünməsin dilənirəm, bax..!*

Eminquey:



# "Əl çəkin də!"

*Sizin qadanızı alaram, dərdiniz mənə gəlsin, hər mövzunun rəy bölümünə "şəhid və qazi ailələri" ilə giriş etməyin. Biz də bilirik ki, hələ də bu istiqamətdə görüləcək işləri var dövlətin. Vallah, billah, tillah bilirik.*

*Yazırsan ki, filankəsə ev verilib, təbrik edirəm, biri gəlib azır ki, şəhid və qazi ailələri qaldı. Yazırsan ki, ölkədə filan sahədə vəziyyət pisdir, biri gəlib yazır ki, şəhid və qazi ailələri qaldı. Yazırsan ki, maaşlar artsaydı, gün görərdik, biri gəlib yazır ki, şəhid və qazi ailələri qaldı. A kişi, yazırsan ki, doğum günümdü, 28 yaşımı qeyd edirəm, biri gəlib yazır ki, şəhid və qazi ailələri...*

*Başınıza dönüm, nə edək sizin əlinizdən? Guya bircə sizsiniz onları düşünən? Vallah, hələ mən qəzetdə işləyirəm, redaksiyamıza n qədər qazilər, şəhid ailələri gəlir, şəxsən Aqil Abbasın yanına. Mən görmürəmmi? Yaxud heçmi yazmamışam bu mövzuda?*

*Əlimdən başqa nə gəlir? Hər ay aldığım maaşı aparım verim ki, dincələsiniz? Nə edim?*

*Qurtarın da bu yalançı patriotluğu. Hara gəldi, dəxli oldu-olmadı eyni şeyi yazırsız. Yaxşı insanlarsınız, okey, yığışın, o şəhid ailələri, qazilər hansısa nazirliyin önündə aksiya edəndə gedin dəstək olun da. Oturub canlı yayımdan izləyib "Allah kömək olsun" yazırsınız.*

*Yazırıq da, qadanızı alım, yazırıq. Bu ölkənin problemlərindən yazan üzdə olan nə qədər adamınız var ki? İllah tutulmalıyıqmı? İllah anamız ağlarmı qalmalıdı?*

*Əl çəkin də!*

Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az



# Bura Cənnətdi...

*...Dünyanın bir-birindən gözəl və əsrarəngiz yerləri, məkanları, ormanları, dağları, gölləri, çayları var. Təbiətin bu gözəllikləri həmişə insanları təəccübləndirib və maraqlandırıb. Hətta möhtəşəm şəlalələrə, başı qarlı uca dağlara, buz bulaqlara baxanda belə insan özünü qeyri-adi bir yerdə hiss edir. Qeyri-adi yer də odur ki, belə bənzərsiz və füsunkar məkanlar heç də hər yerdə olmur. Heç də təbiətin hər yeri gözəl və yaddaqalan deyil. Yaddaqalan odur ki, insan o yerə, o məkana ayaq basanda, üz tutanda gördüklərinə təəccüblənir və bunu Allahın möcüzəsi kimi görür...*

*Allahın yaratdığı belə möcüzələrdən biri də Kəlbəcərdi. O Kəlbəcər ki, buz bulaqları, başı qarlı dağları, ormanları, yaylaqları və güllü-çiçəkli məkanları ilə insanları həmişə mat qoyub. Bir də görürsən ki, gün çıxır, hət tərəfə bir istilik səpələnir. Amma bir neçə dəqiqədən sonra göy üzünə qara buludlar gəlir, şimşək çaxır, bir yağış yağır ki, tut ucundan göyə çıx! Təzədən yağış yağır, gün çıxır və insanlar gün işığında bir rahatlıq tapırlar. Və yenidən göy üzünə bulud gəlir, yenidən yağış yağır və yenidən təbiət öz qeyri-adi üzünü göstərir...*



*Bu günlərdə əslən Qubadlıdan, daha doğrusu, Zəngəzurdan olan yaxın dostumuz və qardaşımız İlham Əliyev mənə Kəlbəcərin gözəl təbiətinin, güllərinin, çiçəklərinin, dağlarının, ormanlarının video görüntüsünü və şəkillərini göndərib. İlham müəllim iş adamıdır və Kəlbəcərdə də möhtəşəm layihələrin həyata keçməsində yaxından iştirak edir. Dostumuz və qardaşımız, bayaq dediyimiz kimi, Kəlbəcərin o əsrarəngiz gözəlliklərini telefonun yaddaşına çəkib və bizə ərməğan edib. Bütün görüntülər Kəlbəcərin Keşdək kəndində lentə alınıb.*

*İlham müəllim güllərdən, çiçəklərdən bir dəstə dərib qucağına alıb və o güllərin, çiçəklərin ətrini ciyərlərinə çəkir. Deyir ki, mən çox gözəlliklər görmüşəm, çox məkanlarda olmuşam, amma, vallah, Kəlbəcərdə olduğu kimi, qeyri-adi gözəlliklər görməmişəm. Bəlkə də dünyada Kəlbəcər qədər gözəl olan ikinci bir yer yoxdur. Güllərə, çiçəklərə baxın! Sanki cənnətdi! Bu güllərin, çiçəklərin hər birinin öz ətri, öz qoxusu, öz gözəlliyi var. Bu gözəlliyə baxanda mən özümü cənnətdə hiss edirəm. Daha doğrusu, Kəlbəcər elə cənnətdi. Sadəcə olaraq bu cənnəti ermənilər 30 il bundan əvvəl işğal eləmişdilər. Ali Baş Komandan, prezident İlham Əliyev və Azərbaycan ordusunun gücü hesabına bu cənnətməkan erməni işğalından azad olundu.*

*Dostumuz İlham müəllim videoda danışarkən onu da deyir ki, bax burda çadır da qurublar, müəyyən şərait də yaradıblar, arıçılar arı saxlayırlar. Mən də bu arıçılara sifariş verdim ki, balları hazır olanda xəbər eləsinlər və gəlim o balı alım. Bal satanlar dedilər ki, 10-15 günə Allah qoysa, balımız hazır olacaq! Onda görün bu balın dadı və tamı nə deməkdir. Hər güldən, çiçəkdən şirə çəkən arılar doğurdan da bu cənnətməkanda insanlara elə bir qeyri-adi şirinlik bəxş edirlər ki, onu sözlə ifadə etmək mümkün deyil. Ümumiyyətlə, Kəlbəcərin balı həmişə dadı ilə, tamı ilə fərqlənib. Yəni ondan səhərlər bir qaşıq yesən, bütün dərdlərin dərmanıdır.*

*Videodakı başqa bir görüntü isə "İstisu" ilə bağlıdır. Dünyada analoqu olmayan bu "İstisu" indi şükürlər olsun ki, bizim ixtiyarımızdadır. Cənab Prezidentin sərəncamı ilə dünya standartlarına cavab verən "İstisu" Sanatoriyası yenidən inşa edilir. Bir vaxtlar Çexoslovakiyadakı "Korlovıvarı" suyunu çox tərifləyirdilər. Amma bizimkilər gedib o suyu içəndən sonra dedilər ki, həmin su "İstisu"yun yanında boş şeydir. Və "İstisu"yun yerini dünyada heç bir mineral su mənbəyi verə bilməz...*

*...Görüntülərə və şəkilə baxandan sonra İlham müəllimə telefon açdım və dedim qardaş, sən cənnəti gözünlə görürsən və cənnətdəsən. O da dedi ki, həqiqətən də bu meşələr, bu dağlar, bu düzlər, bu çiçəklər, bu güllər cənnətə bənzəyir. Elə mən də cənnətin içindəyəm. Bir tərəfdə uca dağlar, bir tərəfdə meşələr, bir tərəfdə də güllər, çiçəklər... Adam buraları gəzməkdən doymur. Hətta gecələr Kəlbəcərin havası o qədər gözəl olur ki, özümü çox rahat hiss edirəm.*

*Bu gülləri, bu çiçəkləri mən ancaq İlham müəllimin göndərdiyi videoda və şəkillərdə görürəm. İstəyirəm ki, İlham müəllim kimi o gülləri, çiçəkləri dərib bağrıma basım və ətrini, qoxusunu hiss edim. Amma bunu eləmək mümkün deyil. Eləmək mümkündü ey, gərək onda gedəsən Kəlbəcərə. Yadıma xalq şairi Vahid Əzizin iki misrası düşür:*

*Çiçəkləri öpdüyümü küləklər,*
*Qaçıb yara bildirməsə yaxşıdı...*

*İlham müəllim, o çiçəkləri nə qədər istəyirsən bağrına bas, öp, əzizlə, küləklər qaçıb yara desə də, o səni qısqanmayacaq, sevinəcək ki, sən Kəlbəcərin güllərini, çiçəklərini bağrına basmısan, ətrini, qoxusunu ciyərinə çəkmisən. Doğurdan da sən cənnəti gözünlə gördün! Allah həmişə belə anları, belə saatları, belə günləri sənə tez-tez bəxş eləsin və belə anları, belə saatları bütün kəlbəcərlilərə və bizə də qismət eləsin!...*

## *Lavrov baykot məsələsinə cavab verdi*



**İndoneziyanın Bali adasında "Böyük iyirmilik" üçün təşkil etdiyi şam yeməyində Rusiya nümayəndəliyinin baykot ediləcəyi məsələsinə cavab verən RF-nın XİN rəhbəri Sergey Lavrov bildirib ki, "bu onların protokolu başa düşməməsindən, elementar münasibətləri qəbuı etməməklərindən irəli gəlir".**

Lavrov qeyd edib ki, o, heç kimi baykot etməyib və çıxışların hamısını dinləyib. "Dialoqa Rusiya tərəfi can atmır, ABŞ can atır. Moskva heç kimin dalınca qaçmağa çalışmır"- deyə rusiyalı nazir bildirib.

Sammit ərəfəsində Yaponiyanın xarici işlər naziri Yesimasa Xayasi təşkil olunan şam yeməyinə həlməyib və ümumiyyətlə Rusiya nümayəndələri ilə görüməklərdən qaçıb.

Rusiyanın xarici işlər nazirliyi bildirib ki, Rusiya Fedarasiyasının prezidenti Vladimir Putin 15-16 noyabr tarixlərində İndonezitanın Bali adasında təşkil olunacaq "Böyük iyirmilik"yin dövlət başçılarının sammitində iştirak etmək fikirindədir.

**Rüstəm Hacıyev**

# "Space"-in ölü doğulan "Xatirələr"i

**Hərdən bir kimsə "vətənsevərlik" edərək hay-küy salır ki, bəs, böyük zəfərimizə sanballı ədəbiyyat əsərləri həsr edilməyib. Bəs, biz əlimizdən gələni edirik ki, bu xatirələr saədcə hansısa vərəqdə arxivlənməsin, üzə çıxsın, ədəbi əsərə çevrilsin və.s.i.**

HƏ, Space tv rəhbərliyinin də "ürəyi yanıb" "Vətən Müharibəsi xatirələri" adlı müsabiqə keçirmək istədi...

Keçirdi də...

Az qala bütün dövlət idarələri bu "oyun"una alət elədi. Hər gün reklam çarxları, Qarabağa hansısa adla səfərlər və.s..i

Adam özü də utanırdı ki, bəs, SPACE-dən az vətənpərvərik.

Utancdan ta yerə girirdik ki, Space qədər olmadıq. Gör e, bütün dövlət qurumlarını bu gözəl təşəbbüsə çəkirlər, pul ayırırlar, zəhmət çəkirlər.

Çox şükür, space hind filmlərinin hoqqabazlığından yan keçmədi.

Bütün meyarlar Vətən Müharibəsi iştirakçılarının üzərinə çəkilir, onlar üzərindən reklam qurulur, onların gerçək, orijinal qeydlərinə ehtiyac olduğu bildirilirdi.

Amma "Vətən müharibəsi xatirələri" ölü doğuldu.

Əvvəl dedilər, 15 iyunda Qurtuluş günündə qaliblər açıqlanacaq.

Nədənsə 15 iyunda müharibə xatirələr qurtulmağa yox, gizlədilməyə üstünlük verildi.

Bilmirəm, Space-nin özünü gözünü soxaraq 15 iyun Qurtuluş meyarı niyə iflası uğradı. Bəlkə, Qurtuluş adını, 15 iyunu özlərinə kölgə bildilər.

Məhz ayrıca biz varıq, bizik mesajını vermək istədilər.

Ya da ayrı səbəbdisə, səbəbi biz bilmirik. Ən azından xatirələri kimi qaranlıq qaldı.

Sonra dedilər beş qalib olacaq, amma üç qalib açıqlandı.

Yəni, iki min kiminsə cibində qaldı.

Deyə bilərlər ki, pul çatmadı.

Bəs, Vətən, zəfər adıyla bu qədər müharibə iştirakçıları ilə oynamağa nə gərək vardı?!

Özünü böyük görərək, üstün salaraq bu hoqqabazlığa nə ad verək?




Bacarmırsan, eləmə.

Hə, axırda da bütün orijinal, gerçək xatirə açıqlamalırına baxmayaraq axırda hansısa bələdiyyə sədri qalib oldu.

Məsələ mükafatı ona ver, bizə ver deyil. Məsələ o bələdiyyə sədri, ya digəri də də deyil. Məsələ nə mən, digəri də deyil.

Məsələ özünü yaxşı oğlan kimi göstərərək dövlət işçiləriylə qaziləri üz-üzə qoyub özü kənara çəkilmək, amma dövlət qanadında özünə yer etməkdir.

Amma müharibə adını, Qarabağ adını bu qədər mənimsəməyin adına nə deyək? Ağız dolusu efir reklamları, onlarla müharibə iştirakçılarını bu işə qataraq onlarla məzələnməyin adı nədir?

Deyərdiniz pafos və sırf ədəbi kontekstdə olacaq. O zaman müharibə ədəbiyyatı ilə sizə master klas keçərdilər. Siz isə orijinal, gerçək həyat istəmişdiniz. Onlar da bunu etmişdilər.

Eyni zamanda bəzilərinin göndərdikləri bu müharibə üçün əsl tarixi mənbədir. Pafossuz və gerçək tarix. Amma sizə qazilərlə məzələnmək lazım idi. Qaliblərlə kimsənin işi yoxdur. Çünki birinin digər mətnlərinə bələdəm. İstedadlı gəncdir. Amma bunun sizin gördüyünüz kirli işə aidiyyatı yoxdur.

Amma yox, sizə şəhid adını, qazi adını mənimsəməklə həzz alaraq müharibənin səfasını sürmək lazımdır, axı.

**Deməyim odur ki, pul qazanın, yeyin-dağıdın, heç olmasa müharibəni, insanların heysiyyatını bu qədər mənimsəməyin. Gül kimi hind filmləriylə başınızı qatın. Ya da müsabiqələrinizi qurumlar və icra hakimiyyətləri arasında keçirin. Pulu da belə bölüşün və bizləri bu işə qatmayın.**

**Emin Piri**

Emin Piri



# Məkr və Məhəbbət və ya centelmenlik öldürür

**Əziz xanımlar, əgər bir oğlandan ayrılacaqsınızsa, ya əsgərlikdən bir müddət öncə, ya da əsgərlikdən sonra ayrılın. Çünki bu xidmət vaxtı baş verəndə o əsgərlə bərabər ayrılıq acısını onun komandirləri də yaşayır. Hər an özünə nəsə edə bilər deyə düşünür. İntihar, xidmətdən qaçmaq və.s**

**Təsəvvür edin, 22 yaşın var, özünün öz sevgi dərdlərin bir yandan, bir yandan da əsgərin ya zənglə eşidir ki, qız ayrısına gedib, ya da məzuniyyətdə qızdan ayrılıb. Özün qalırsan bir kənarda buna ürək-dirək verirsən ki, nəsə etməsin.**

**Belə olaylar dəfələrlə başıma gəlib. Adətən min bir gecədən qadın əhvalatlarını danışardım.**

**Ən çox qorxduğum məqamlar Ağdamda olanda olub. Özümün 22 yaşı. Əsgər məzuniyyətdən gəldi ki, qızı ayrısına verirlər.(əsgərin 19 yaşı tamam olmamışdı) Özümü öldürəcəm. Bax, onda bir əhvalat yadıma düşürdü. Məkr və Məhəbbət əfsanəsi var. Onu daha geniş danışardım. Uşaqlıqda eşitmişdim. Qısa və ümumi yadımda qalan formada demək istərdim. İndi daha dolğun yadımda qalmayıb. İki gənc bir-birini sevir. Qızı axırda başqasına vermək istəyirlər. Gənclər başqasına qismət olmaqdansa intihara qərar verir və bir qalaya çıxırlar. Oğlan centelmenlik edərək deyir ki, öncə mən özümü atım, sonra sən atarsan. Beləliklə, oğlan özünü qaladan atır. Oğlan öldükdən sonra qız düşünür:**

**Oğlan onsuz da öldü. Mən özümü onun arxasınca atmaqla nə əldə edəcəm? İntihardan vaz keçir və geri qayıdaraq həmin adamla evlənir.**

**Düzdü, vaxtıyla centelmenliyimin bəlasını özüm də görmüşəm. Məsələn, ilk görüşdə birdən yadıma düşdü, dövlət imtahanım var. Sadəcə vaxtı söz vermişdim, imtahansa həmin saata düşürdü.**

**İlk görüşdən təxirə salmaq, həm də sözümdə yalançı çıxmamaqçün imtahandan imtina etdim, getdim. İki saat Sumqayıtda dəniz qırağında həmin bank işçisi xanımı gözləməli oldum. Gəldikdən sonra məlum oldu ki, qızın da imtahanı varmış, amma o təxirə salmaq əvəzinə məni gözlətməyi daha üstün tutub. Beləliklə, o imtahanı keçdi, mənsə centelmenlik axmaqlığıma görə yox.**

**Centelmenlik bəzən axmaqlıqdı. Sözündə durmaq bəzən fəlakətdi.**

**Bəlkə də günahlar özümüzdədir, yani kişilərdə.**

**Bizi müharibədə bütün ruhu, qəlbiylə gözləyən qızların qəlbinə, ruhuna deyil, gəldikdən sonra daha öncələr bizi heç tanımayan qızların gözlərinə, saçlarına şeirlər yazdıq...**

# Bunlar nə yeyib-içdilər ki, diktator oldular?

**Dünyanı qana bulayan amansız diktatorlar.**

Onların adlarını eşidəndə içimizdə nifrət hissi qabarır, ağlımıza kütləvi qırğınlar, ölümlər, işgəncələr, başdanxarablıqlar gəlir.

Bu diktatorların görmədiyimi tərəfləri mütləq ki var. Qan içən duruşlarının, canavarlıqlarının arxasında mütləq ki insana xas olan qəribə vərdişlər var. Məsələn, yemək vərdişləri, nədən xoşlarının gəlməsi, onları bizdən fərqləndirən cəhətlər və s.

Bu yazıda Viktoriya Klark və Melissa Skotun bu mövzuda apardığı araşdırmalar və başqa mənbələrdən götürülmüş məlumatlar yer alıb.

## *Hitler - Saxta vegeterian*

***Dünyanın ən amansız dictator, özünü xalqa vegetarian kimi tanıtmışdı. Əslində bu məsələdə bir az da olsa həqiqət payı var. Çünki həzm problemləri olduğu üçün ət və ağır xəmir yeməklərindən uzaq dururdu. Bunun səbəbi ödündə daş olması da göstərilir. Amma Hitler zəif tərəflərinin üzə çıxmaması üçün vegeterian olmuşdu.***



Hitler gündə 28 dənə dərman içirdi. Bunların bir qismi vitaminlər idi. Həkimi Teodor Morrel Hitlerə hər gün Bolqar göyərçininin nəcisi ilə siçovul zəhəri vurdu. Digər həkimi Koester isə ona həm karminativ həblər, həm də zəhərli gecə çiləsi ekstraktından hazırladığı bir dərmanı içizdirirdi.

Hitler bütün diktatorlar kimi zəhərlənməkdən qorxurdu. Ona görə də yanında 15 nəfər yemək dequstatoru hər an əmrə tabe dururdu. Yeməklərin dadına əvvəlcə onlar baxır, bir saat içində ölməsələr yemək Hitlerə servis edilirdi.

Ən etibar etdiyi aşpaz Margit Volf idi. Xanım Margit yazdığı xatirələrdə Hitlerin ən çox Hollandes souzu ilə təzə qulançar, üyüdülmüş buğdadan hazırlanmış xəmirli tərəvəz şorbasını, qızardılmış qırmızı bibəri, plovu sevdiyi yazır. Amma ən çox sevdiyi yemək "Petits Poussins a la Hambourg" idi. Hitler bu yeməyin qarşısında vegetarian olduğunu yaddan çıxarırdı. İlk dəfə 1930-cu ildə Hamburqda yemişdi və bu yeməyin xəstəsi olmuşdu. İngilis aşpaz Dione Lukas göyərçin balalarını toyuq ciyəri, xoruz dili, fıstıq, fındıq ilə doldurub sobada xüsusi souzlarla bişirirdi. Hər bir göyərçin balası iki dişləklik bir şey idi. Hitler bunu yeməkdən doymurdu.

Ömrünün son aylarında isə kartof püresi və ət suyu ilə qidalanırdı.

## *Mussolini - Sarımsaq qoxulu diktator*

Qara köynəkli faşist, gənc yaşlarında italtan mətbəxinin fanatı olmuşdu. Tapdığı ilk fürsətdə fransız mətbəxini pisləyər, dünyanın ən ləzzətli mətbəxinin İtaliyada olduğunu dilə gətirərdi. Emiliya-Romagnan və Toskana bölgələrinin yeməklərinin heyranı idi.

***Yeməyini evdə arvadı və beş uşağı ilə yeməyi üstün tutardı. Yemək saatları mövzusunda çox vas-vası idi. Həmişə eyni saatda yemək yeyərdi və evdə yaşayan hamının həmin saatda masanın ətrafında olmağını istəyərdi. Çox sürətlə yemək yeyirdi. Onun üçün arada bir sarayda İtali Kralı III Viktor Emanuel ilə yediyi yeməklərdən bezdiyini, onunla yeməyin darıxdırıcı olduğunu etiraf edərdi.***



Bir müddət sonra İtaliya mətbəxindən üz çevirdi. Heyranı olduğu Mahatma Qandi və Bernard Şoun iziylə gedərək vegeterian oldu.

Bu ərəfələrdə ən sevdiyi yemək limon suyu və zeytun yağı ilə hazırlanmış sarımsaq salatı idi. Bu salatdan hər axşam yekə bir kasa yeyərdi. Arvadı Raşel Mussolinidən gələn sarımsaq qoxusundan zəhləsi getdiyi üçün onunla eyni otaqda yatmazdı.

***1925-ci ildə yoğun bağırsaq xorasına tutulandan sonra gündə bir litr süd içməyə başladı. Əsla kartof püresi yeməzdi. Bu yeməyin başında şiddətli ağrılara səbəb olduğuna inanardı. Ən sevdiyi şirniyyat isə limonlu keks idi. Bir oturuma böyük bir keksin yarısını yeyərdi.***

## *Səddam Hüseyn - Dənizdən atası da çıxsa, yeyərdi*

Vücuduna çox diqqət etdiyi üçün çox yemək yeməzdi. Yemək porslarının kiçik olmasını istəyərdi. Vas-vası olduğu üçün mətbəxə baş çəkib təmizlik yoxlanışı aparardı. Mətbəxə girən bütün ərzaqları radiasiya və zəhər yoxlanışından keçirilirdi.



Səhər yeməyi çox bəsit idi. Dəvə südü, çörək və bal. Yemək seçimi isə dəniz məhsulları və balıqdan ibarət idi. Xərçəng isə hər gün yediyi bir şey idi. Ən çox sevdiyi yemək şirin su balığından və ya alabalıqdan hazırlanan Masgouf idi. İraqa səfəri zamanı bu yeməyi çox sevən o vaxtkı Fransa prezidenti Jak Şirakın təyyarəsinə ton yarım kefal yüklətmiş və yeməyi bişirsinlər deyə iki aşpazını Fransaya göndərmişdi.

***Balıq yeməyi sevdiyi qədər tutmağı da çox sevərdi. Səhərə yaxın balıq ovuna çıxardı. Aşpazlardan biri səhər saat 5-6 arası Səddamın tutduğu balıqları qızartdığını öz xatirələrində yazmışdı.***

Həftədə iki gün cangüdənləri Bağdadda Abu Nacas küçəsindəki məşhur balıq restoranından onun üçün növbənöv çərəzlər alardılar. Səddam balıqla yanaşı mərci şorbasını və toyuqlu düyünü də çox sevərdi.

Tərəvəzlər çox az insanın yerini bildiyi bir baxçada yetişdirilirdi. Zeytunu da çox sevərdi. Qolan təpələrindəki ağaclarda yetişən zeytunlara üstünlük verərdi. Bir gün zeytun yeyərkən məxfi xidmətin rəisinə " gün gələcək, israillilərdən bu zeytun yetişən təpələri geri alacağam" demişdi.

***Səddamın 22 dənə sarayı var idi və nə vaxt harada olacağını hətta doğmaları da bilməzdilər. Ona görə hər sarayda hər gün üç dəfə yemək bişərdi. Yemək süfrələrində bahalı çəhrayı şəraba üstünlük verərdi. Yeməkdən sonra isə bir bardaq viski içərdi.***

## *Qəddafi - Spaqetti diktator*

Dəvə südü onun imtina edə bilməyəcəyi bir şey idi. Hər gün bir litr süd içərdi. 1961-ci ildə Belqrad ziyarətində ona ayrılan otel əvəzinə baxçaya qurdurduğu çadırda qalmışdı. Onun üçün xüsusilə Liviyadan gətirilmiş dəvədən süd sağırdılar.

İtalyan mətbəxini, xüsusilə də makaronu çox sevərdi.

Səhər yeməyində qızarmış xurma ilə soyuq dəvə südü içərdi. Çöl gəzintilərində isə qızmar qumda bişmiş çörək və yumurta ilə səhəri açardı. Zeytun yağının heyranı idi. Mətbəxə bu yağdan başqa heç bir yağın daxil olmasına izn verməzdi.



İçkini və Kolanı sevməzdi. Yeməkdən sonra mütləq həzm üçün yaşıl çay içərdi.

**Adam diktator olandan sonra istəyər vegeterian olar, istəyər ət yeyər. Biri var, kasıblıqdan ət yemirsən, biri var, kefdən. Bizim diktatorlarınsa kef içində necə bir ömür sürdüyü bütün dünyaya məlumdur.**

**Eminquey**

# *Sabiq icra başçısına 12 il həbs cəzası verildi*



**Cəlilabad Rayon İcra Hakimiyyətinin hazırda həbsdə olan sabiq başçısına hökm oxunub və o, 12 il müddətinə azadlıqdan məhrum edilib.**

Adalet.az report-a istinadən xəbər verir ki, bu barədə hökm Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi Xammədd Nuriyevin sədrliyi ilə keçirilən prosesdə elan olunub.

Xatırladaq ki, prokuror Cəlilabad Rayon İcra Hakimiyyətinin hazırda həbsdə olan sabiq başçısının 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, N.Zeynalov 2020-ci ilin dekabr ayında Dövlət Təhlükəsizliyi Xidmətinin Cəlilabad Rayon İcra Hakimiyyətində keçirdiyi xüsusi əməliyyat zamanı saxlanılıb.

Ona Cinayət Məcəlləsinin 179.2.2-ci (Mənimsəmə və ya israf etmə təkrar törədildikdə) 179.2.3-cü (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 179.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3-cü (külli miqdarda rüşvət alma), 311.3.2-ci (təkrar rüşvət alma), 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə ittiham verilib.

N.Zeynalov 5 milyon manatdan artıq vəsaiti mənimsəmədə və rüşvət alma yolu ilə ələ keçirməkdə ittiham olunur.

## *Qarpızdan zəhərlənənlər*



**Hər bir meyvənin və giləmeyvənin mövsümü var. Amma buna baxmayaraq, mövsümdən çox-çox qabaq bütün meyvələrin və giləmeyvələrin marketlərdə, bazarlarda satışı təşkil olunur. Ən çox da zəhərlənmələr hər hansı meyvəni və giləmeyvəni mövsümündə yeməyəndə baş verir. Xüsusən də qarpız və yemişdən zəhərlənmələr daha tez-tez olur.**

Artıq may ayından ölkəmizdə və eləcə də Bakı şəhərində qarpız və yemişin satışı təşkil edilib. Əksər insanlar da mövsümə fikir verməyərək görürlər ki, qarpız satırlar, onu alır və aparıb yeyir. Çünki bu vaxtı satılan qarpızlar istixanalarda kimyəvi yolla yetişdirilir və onun da tərkibində normadan artıq kübrə və digər kimyəvi maddələr olanda zəhərlənmələr qaçılmazdır.

Bu yaxınlarda bir tanışım qarpız alıb yeyib və zəhərlənib. Ona görə də Qida Təhlükəsizliyi Agentliyi Bakıda və eləcə də digər yerlərdə satılan qarpız və yemişin normalara uyğun olub-olmamasını araşdırmalı, əgər həmin bostan məhsullarında normadan artıq kübrə varsa, bu məhsullar satışdan çıxarılmalıdır.

## *Ehtiyatlı olun, boğula bilərsiniz!*



**Havaların get-gedə istiləşməsi ilə əlaqədar olaraq çimərliklərə üz tutanların sayı günbəgün daha da çoxalır. Təbii ki, əksər çimərliklərdə insanların istirahət etməsi və çimməsi üçün hər cür şərait yaradılıb. Amma elə çimərliklər var ki, orda çimmək Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən qadağan edilib və eyni zamanda xilasedicilər həmin yerlərdə fəaliyyət göstərmir.**

Ona görə də qeyri-qanuni fəaliyyət göstərən və xilasedicilərin olmadığı yerlərdə çimsəniz, bəzi hallarda boğula bilərsiniz. Bir daha əlaqədar qurumlar çimərliyə gedənlərə xəbərdarlıq edərək bildirir ki, onlar xüsusi icazəsi olan və fəaliyyət göstərən çimərliklərdə istirahət etsinlər. Əks təqdirdə, kimsə bu qanunsuz çimərlikdə çimsə və boğulsa onu xilas edə bilməyəcəklər.

**Emil FAİQOĞLU**

# Azərbaycanda bu xidmət ƏDV-dən azad edilib

**Azərbaycanda özəl baytarlıq xidmətlərinin göstərilməsi ilə məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ 20 manat müəyyən edilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Vergi Məcəlləsinə dəyişiklik layihəsi parlamentin bu gün keçirilən iclasında müzakirəyə çıxarılıb.

Layihəyə əsasən, bu fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq verginin məbləği aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən ediləcək:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;
- Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində - 1,5;
- Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1,0;
- digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) - 0,5.

Qanun layihəsi özəl baytarlıq xidməti fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin və fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslərin vergitutma məsələlərinin tənzimlənməsi məqsədilə hazırlanıb.

Belə ki, qanun layihəsinə əsasən, özəl baytarlıq xidmətlərinin ƏDV-dən azad edilməsi, fərdi baytarlıq xidməti praktikası ilə məşğul olan fiziki şəxslərin isə sadələşdirilmiş vergi ödəyicisi kimi sabit pul məbləğində vergiyə cəlb edilməsi təklif olunur.

Bununla da fərdi baytarlıq xidmətinin vergiyə cəlbi sahəsində inzibatçılıq azaldılacaq və bu şəxslərə yalnız "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" tətbiq ediləcək.

**Dəyişiklik layihəsi səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.**



*Allahverdi Eminov*

# Eşqə, sözə vurğun qəlb...

**Unudulmaz şairimiz Əliağa Vahiddən sonra mənə elə gəlir qəzələ meyl xeyli azalmışdır, amma ötən əsrin S.Rüstəm, S.Vurğun, M.Mehdi Seyidzadə, M.Rahim kimi sənətkarları qəzəl yazırdılar, tanınmış müğənnilərdən Şövkət Ələkbərova, Fatma Mehrəliyeva, Sara Qədimova həvəslə həmin qəzəllərdən muğam üstə oxuyurdular. Eləcə də Xan Şuşinski, Mütəllim Mütəllimov, İldırım Həsənov, Əbülfət Əliyev, Əlibaba Məmmədov və başqaları.**

Ə.Vahiddən sonra yeni nəsil, başda Bakir və Mail olmaqla qəzələ qayıtdılar, qəzələ aid kitablar nəşr olundu, yeni əsrimizdə bu janr unudulmadı. Lakin tənqidçilərimiz öz məqalələrində qəzələ üz tutmadılar, bir kəlmə də yazmadılar. Buna baxmayaraq bəzi şairlərimiz ruhdan düşmədilər. Deməli, Nizamidən, Nəsimidən, Füzulidən, Vaqifdən, Zakirdən, Nətavandan sonra da qəzəllər qələmə alındı, oxundu.

Bu günlərdə Tahir Rzanın qəzəlini oxudum. Tahir bəyin bu janra bir şair kimi üz tutması onun kövrək hisslərinə, duyğulu qəlbinə malikliyinə dəlalət edir (Mən onun şeirlərini məmnunluqla oxuyuram). Axı, şairi həmişə sosial mövzular maraqlandırmır, hisslərinin "uşaqlaşan" anları da olur, Eşqə vurğun saatları da istisna deyil. Qəzəllərinin ilkini "Şeirin günəşi, sultanı, həm xanı qəzəldir" misrası ilə başlaması təsadüfi deyil və "Könül evinin sevimli mehmanı qəzəldir" - təsadüfi deməmişdir. Bu qəzəldə Tahir Rza qəzəlin insanın mənəvi - ruhi ovqatında rolunu, əql ilə sözün vəhdətini, ürəyin çarəsi, dərmanı qəzəl olduğunu poetik dillə səsləndirir:

*Çox vaxt gecələr nazlı gözəl tək məni tovlar*

Ruhla qovuşan ömrümün hər anı qəzəldir, - beyti ilə şair ovqatının intim hisslərini gizlətmir. Tahir Rzanın qəzəllərindən Eşq məfhumu qırmızı xətlə keçir və Ruha qovuşur, şairin bəs xahişi nədir ki, üzünü təbibə tutur.

*Ey təbib, bağrımı yar, ruhu götür*
*canımdan,*
*Bəlkə eşqin bəlası xaric ola*
*qanımdan.*
*Həsrəti darə çəkib, qəlbimi bəlkə*
*görəsən,*
*Xəbərin yoxmu sənin ah ilə*
*əfqanımdan?*
*Cismimin od - alovu bihal edərkən*
*çoxunu*
*Bəs nədən nazlı yarım asta keçir*
*yanımdan? -*

Eşqin şair qəlbinə cəfası, asudəliyini əlindən alması, dərdə - kədərə düçar etməsi! Həyatının eşqə düşən andan tamam dönməsi. Eşq şair üçün bir bəladır ki, əqlə daxil olduqda ruhla birləşir. Eşq "Eşqə" sözündən törəmişdir: "Eşqə" üzüm tənəyinin xüsusi növü olub, ağaca sarılır, şirəsini sorur, ağacı qurudur. Bu hisslər qəzəlxan üçün bəllidir, eşqin törədəcəyi "bəla" da həmçinin. Amma ruhunu yaşatmaq gərəkdir. Şair:

*Ruh gedib canan ilə, illərdir ki,*
*can xəstədir,*
*Dərdimə etmir əlac, sanki həb, dərman*
*xəstədir.*
*Nə qədər səy etdilər duymadı hər kəs*
*halımı*
*Ya mənəm naəlac qalan, ya da ki loğman*
*xəstədir.*



Şair Tahir Rza eşqin bəlasını yaxşı anlayır və qəzəlləri də pıçıldayan həmin eşqdir, Eşqə düşənə ülfət, məhəbbət əhlinə əl yetirməyi tövsiyə edir, əks halda o insan - Ruh sahibi "anlamır sevgini, həyatı", demək "o insan xəstədir". Bələkə o insanın özü eşqə tutulubdur? Eşq onun canına - ruhuna sarmaşıbdır? Bu suallar qarşısında şair - müəllif daha bəşəri nəticəyə gəlir:

*Sevgisiz, eşqsiz qalıb, böhran tutubdur*
*dünyanı.*
*Qan - qada tüğyan edir, can gedir, dövran*
*xəstədir.*
*Vaxt keçir, siz yarıma ərz eləyin*
*əhvalımı*
*Tahirə salsın nəzər, bilsin qəzəlxan*
*xəstədir.*

Şair tədricən eşqin fəlsəfəsini başa düşür, anlayır ki:

*Nə imiş eşqi - bəla, gəldi havasın*
*gördüm,*
*Eşq ilə dərdi - sərin qəlbdə davasın*
*gördüm.*
*Aşiqi Məcnun edən çöllərə tutdum*
*üzümü,*
*Leylinin yaşlı gözün, ahı - nəvasın*
*gördüm.*

"Sevilib - sevilməyinə peşiman olmayan" şair sevdiyinin qövrü - cəfasını görə bildi və:

*Axırı yar canımı canına qurban etdi,*
*Qoymadı darda məni əhdi - vəfasın gördüm,*

- nikbinliyini gizlətmir.

Başqa bir qəzəlində şair Tahir bəy üzünü bivəfalara tutur və bu zümrənin "nə bilir eşq ilə dərdin dəyərini" - gileylənirsə:

*Sədaqət, əhdi - vəfa zinətidir insanın*
*Yaradan özü verib arifin, mərdin dəyərin.*
*Ey təbib, rəhmə gəlib, qəlbimi bir an oxudun*
*Yaralı can - ciyərin axırı gördün dəyərin.*

- toxdayır.

Eşq şairi bütün cəfalardan, peşimançılıqdan, inciklikdən sonra bir təsəlli arayır, könlünə üz tutur:

*Ey könül, eşqin bəlasın aləmə car etmə gəl,*
*Döz yarın hicranına, hər sirri aşkar etmə gəl...*
*Ah edib, dərd çəkməyindən əl götürmə anla ki,*
*Dərd səni aşiq edib, bu dərdi inkar etmə gəl,*

- yenə üz tutur təbiətə. Şair təbib obrazını eşqə mübtəla olanların xilaskarı sanır:

*Min dəfə cəhd eyləsən də anlamazsan dərdimi,*
*Ey təbib, dərman üçün böylə çox israr etmə gəl.*

*Və aşiqini rəhmə çağırır, çarə tapmağa səsləyir:*
*"Tahirə bir çarə tap, güldür onu, xar etmə gəl"*

- son təsəllisidir.!

Tahir Rza bu qəzəlləri ilə sübut etdi ki, o, şairdir, içində eşq atəşi var və bu atəş ona gözəl qəzəlləri diqtə edir, qəlbi sözə vurğundur və yaradıcılıq anlarında "basqa yol seçmir".

Deməli, Əliağa Vahidin qəzəl dünyasında Tahir bəy kimi şairi var.

Aşağıda Tahir Rzanın bir qəzəlini veririk.

*Ey təbib, candan çıxan bu cana dərman varmı, de?*
*Eşq odunda yanmağa dübarə güman varmı, de?*

*Etibar, ülfət, məhəbbət aşiqin dərmanıdır*
*Zülm edən, qanlar tökən insanda iman varmı, de?*

*Yol kəsən, evlər yıxan binəva, nadan kəslərə*
*İnsanı incitməyə Tanrıdan fərman varmı, de?*

*Dünyanı viran qoyanlar cənnətin eşqindədir*
*Cənnətdə yer almağa onlarda imkan varmı, de?*

*Vətənə sadiqlərə doğma eldən, yurddan özgə*
*Üz tutub, can qoymağa bir başqa ünvan varmı, de?*

*Torpağın, xalqın, elin, yarım, sənin vurğununam*
*Tahiri siz tək duyan sevimli bir can varmı, de?*

# Yol polisi uşağı xilas etdi...

## Bakı-Quba avtomobil yolunda xidmət aparan birinci tağımın əməkdaşı, polis baş serjantı Şükür Telman oğlu İsgəndərovun bu nəcib hərəkəti sosial şəbəkə istifadəçiləri tərəfindən də alqışlanıb

**Respublikanın avtomobil yollarında yay mövsümü ilə əlaqədar olaraq istirahətə gedənlərin sayı əvvəlki vaxtlarla müqayisədə xeyli artıb. Təbii ki, bu da nəqliyyat vasitələrinin intensiv hərəkətinə səbəb olub. Əlbəttə, sürücülər ilk növbədə hərəkətin təhlükəsizliyi üçün yol hərəkəti qaydalarına birmənalı olaraq əməl etməlidilər. İlk növbədə sürət həddinə, ötmə əməliyyatına, manevr qaydalarına və avtomobilin texniki sazlığına diqqət yetirməlidirlər. Bununla yanaşı, onlar hərəkətdə olarkən ara məsafəsi saxlamalı və sükan arxasında spirtli içki qəbul edib əyləşməməlidilər.**



Birmənalı olaraq Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşları bütün qayda pozuntularına qarşı davamlı olaraq ciddi tədbirlər həyata keçirirlər. Əgər düşünsək ki, Bakı-Quba avtomobil yolunda çoxlu sayda istirahət mərkəzləri, məkanlar var, bax, onda hər bir sürücü həmin yerə gedib çatmaq üçün daha məsuliyyətli olmalı, bir an olsun belə səhlənkarlığa yol verməməlidilər.

Məsələnin ən yaxşı tərəflərindən biri ondan ibarətdir ki, adını çəkdiyimiz tağımın əməkdaşları sürücülərin və hərəkət iştirakçılarının maarifləndirilməsini həmişə diqqət mərkəzində saxlayırlar. Bir qayda olaraq sükan arxasında yuxulayan və sərnişindaşınması ilə məşğul olan sürücülərə qarşı yol polisinin tələbkarlığı daha da artıb. Çünki heç kimsə sirr deyil ki, isti havalarda kondisionersiz və hətta kondisionerli avtomobillərdə belə sürücülər bir anlıq yuxulayırlar. Bir anlıq yuxulama isə ağır qəzaya yol açır. Ona görə də birinci tağımın əməkdaşları bu cür halların qarşısını almaq üçün stasionar postda sürücülərlə və hərəkət iştirakçıları ilə davamlı olaraq maarifləndirici söhbətlər aparırlar. Təbii ki, bu cür təbliğat və izahat işlərinin müsbət nəticəsi olur, yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında önəmli əhəmiyyət kəsb edir.

Birinci tağımın əməkdaşları son vaxtlar normadan artıq yük daşıma qaydalarının pozulması hallarına qarşısının alınması istiqamətində də profilaktik tədbirlər gerçəkləşdirir. Hamıya gün kimi aydındır ki, yay vaxtında asfalt örtük daha tez deformasiya uğrayır və nəticədə normadan artıq yük daşıyan ağır tonnajlı maşınların ağırlığına bu yollar tab gətirmir. El dilində demiş olsaq, həmin yollar dağılır. Məhz buna görə də Bakı-Quba avtomobil yolunda normadan artıq yük daşıyan müxtəlif markalı maşınların sürücülərinə qarşı inzibati tədbirlər həyata keçirilir. Daha doğrusu, Nazirlər Kabinetinin məlum qərarına uyğun olaraq normadan artıq yük daşıyan sürücülər 600 manat məbləğində cərimə olunurlar. Artıq onlarla bu cür qaydanı pozan sürücü barəsində inzibati protokol tərtib edilib.

Həyata keçirilmiş ciddi tədbirlər nəticəsində artıq bu istiqamətdə normadan artıq yük daşıyan avtomobillərin sayı azalıb və onu idarə edən sürücülər məsuliyyət hissini artırıblar.



Bir faktı da qeyd edək ki, birinci tağımın xidmət apardığı avtomobil yolunda qeyd etdiyimiz kimi, hərəkət intensivləşib. Belə bir anda təbii ki, hər bir sürücü və hərəkət iştirakçısı mövcud qaydalara riayət etməlidir. Bu yaxınlarda avtomobillərin sürətlə hərəkət etdiyi dördzolaqlı bu yolda bir uşaq köməksiz vəziyyətdə yolun ortasında qalıb. Çox təəssüf ki, onu görən hərəkət iştirakçıları uşağa lazımi köməklik göstərə bilməyiblər. Təbii ki, uşaq özünü itirə bilərdi, çaşardı və sürətlə hərəkət edən avtomobillərin yoluna çıxardı və nəticədə bədbəxt hadisə baş verə bilərdi. Amma nə yaxşı ki, Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşı, polis baş serjantı Şükür Telman oğlu İsgəndərov həmin istiqamətdə xidmət apararkən o uşağın yolun ortasında qaldığını görüb, ona yerindən tərpənməməyi məsləhət bilib və uşağı götürərək təhlükəsiz yerə aparıb. Polis baş serjantı Şükür İsgəndərovun bu nəcib hərəkəti hamı tərəfindən böyük hörmətlə qarşılanıb və eyni zamanda sosial şəbəkə istifadəçiləri Şükürün bu nəcib hərəkətini alqışlayıb, yol polisinə öz təşəkkürünü bildiriblər.

Ümumiyyətlə, yol hərəkəti qaydasının qorunmasında və təhlükəsizliyin təmin edilməsində nəinki sürücülər, o cümlədən bütün hərəkət iştirakçıları böyük məsuliyyət daşıyırlar. Xüsusən də piyadalar Bakı-Quba yolunda gecə saatlarında yolu keçmək istəyərkən mütləq təyin olunmuş yerdən, yerüstü keçiddən istifadə etməlidilər.

Çünki gecələr bəzən işıqlandırma normal olmur, sürətlə gələn avtomobilin sürücüsü təyin olunmamış yerdən keçən piyadanı vaxtında görə bilmir və nəticədə piyada vurma halları yaranır.

**Ona görə də birinci tağımın əməkdaşları piyadaların maarifləndirilməsi istiqamətində də çox önəmli işlər görürlər. Bir sözlə, bu istiqamətdə hərəkətin təhlükəsizliyi yolu polisi tərəfindən yüksək səviyyədə təmin edilib. Deməli, sürücülər və hərəkət iştirakçıları yol hərəkəti qaydalarına əməl etməklə öz həyatlarını mövcud təhlükədən xilas etmiş olarlar.**

**Faiq QİSMƏTOĞLU**

# Sirli şəkildə yox olan sivilizasiyalar...

**Dünya tarixində əsrlər əvvəl var olan daha sonra tamamilə məhv olan sivilizasiyalar çox olub. Bu sivilizasiyalar bəzən fəlakətlərdən bəzən isə fərqli səbəblərdən yer üzündən tamam siliniblər. Bu sizə sirli və müəmmalı şəkildə yox olan sivilizasiyalardan danışmaq istərdim. Bu sahədə bir çox alimlər araşdırmalar etsələr də sonucda konkret nəticələr əldə edə bilməyiblər. Belə sivilizasiyalardan biri də Omleklər adlanır.**

Omleklər ilk mezo amerika cəmiyyətlərindən biridir. Olmeklər Meksikanın cənub- mərkəzinin tropik düzənliklərində yaşayırdılar. Olmeklər haqqında ilk məlumatlar San-Lorenso şəhərində tapılıb.Olmeklər məharətli inşaatçılar idilər. Əhəmiyyətlə hər yerdə təntənəli saraylar, kurqanlar, konusvari ehramlar və daş abidələr, həmçinin nəhəng baş abidəsi yerləşirdi. Olmek sivilizasiyası həm müxtəlif olmek regionları, həm də digər mezoamerika milliyyətləri arasında olan ticarətdən asılı idi. Öz dövrünün ilk və inkişaf etmiş mezo mədəniyyətlərindən biri olan olmeklər adətən dgər mezo-amerika xalqlarının əcdadı hesab edilirlər. B. e. ə. 400-cü ildə olmek torpaqlarının şərq hissəsi çox güman ki, ətraf mühitin dəyişilməsi səbəbindən boşalmışdır. Həmçinin burada vulkanik fəallıq olduğu üçün də insanlar buradan köçə bilərdilər. Digər məşhur nəzəriyyə onların işğal olunduğunu iddia edir. Lakin heç kəs işğalçının kim olduğunu deyə bilmir.

Daha bir sivilizasiyaNabateylərdi. Onlar indiki İordaniyanın, İsrailin, Suriyanın və Səudiyyə Ərəbistanın ərazilərində məskunlaşmış semit qəbiləsinin bir qrupudurlar. Bu qəbilə ən çox öz paytaxtları Petra şəhəri ilə məşhurdular. Petra möcüzəvi bir şəhərdir. Nabateylərin sərvəti onların torpaqlarının ərazisindən keçən çoxsaylı ticarət yollarının sayəsində yaranıb.Nabateylər fil sümüklərini, ipək, ədviyyatlar, qiymətli metallar, qiyməti daşlar və dərmanlar satırdılar. Nabatey mədəniyyətinə Yunanıstan, Roma, Araviya və Asiriya təsir göstərmişdi. O dövrün digər mədəniyyətlərindən fərqli olaraq, Nabatey çarlığında qullar yox idi və cəmiyyətin hər bir üzvü ümumi mənfəətə öz yatırımlarını edirdi. Bizim eramızın 4-cü əsirində nabateylər Petranı tərk edirlər və heç kəs bunun səbəbini bilmir. Arxeoloji tapıntılar onların köçünün yaxşı təşkil olunduğunu göstərir. Bu isə nabateylərin könüllü şəkildə köçdüklərini sübut edir. Ən məntiqli səbəb ticarət yollarının şimala köçürüldükdən sonra nabateylər daha burada yaşaya bilmədikləri və Petranı tərk etdikləridir.Başqa bir sivilizasiya isəAksum çarlığıdır. Aksumların tarixieramızın 1-ci əsrindən indiki Efiopiyanın ərazisində başlayıb. Aksum fil sümüyünü, kənd təsərrüfatı məhsullarını və qızılı Roma imperiyasına və Hindistana ixrac edən əsas ticarət mərkəzi idi. Bunun sayəsində akumistlər çox zəngin bir xalq və öz sikkə sistemi olan ilk Afrika mədəniyyəti olurlar.

Yerli əfsanəyə əsasən, yahudi kraliçası Yudif Aksum çarlığını işğal edir və onun kilsələrini və kitabxanalarını yandırır.



Digər nəzəriyyələrə əsasən, sivilizasiyanın yer üzündən silinməsinin səbəbi iqlim dəyişilikləri, ticari təcridləşmə və aclıq olub.

**Yox olan sivilizasiyalardan biri də Mikenlərdir.Mikenlər b. e. ə. 1600-cü ildə cənubi Yunanıstanda əmələ gəliblər. Bir çox qədim yunan əfsanələrində Mikenlər haqqında, həmçinin Troya müharibəsi zamanı yunanlara başçılıq etmiş Aqamemnon çarı haqqında bəhs edilir. Mikenlər yaxşı dəniz gücünə malik idilər və onlar öz donanmalarını digər ölkələrlə ticarət üçün, həmçinin müharibə məqsədləri ilə istifadə edirdilər. Burada təbii sərvətlər az olduğu üçün mikenlər bir çox malları idxal edirdilər, onların üzərində işləyərək həmin malları satırdılar. Beləliklə, mikenlər məharətli usta kimi məşhur olublar.Heç kəs mikenlərin necə yox olduqlarını bilmir. Lakin bir nəzəriyyəyə əsasən, bu müxtəlif siniflərin toqquşması nəticəsində baş verib. Digər nəzəriyyələr ticarətin dayanmasına, zəlzələyə, həmçinin şimaldan dorların və yaxud Dəniz xalqınınmikenlərin ərazilərinə daxil olmalarına asaslanır.**

**Bünyamin BÜNYADZADƏ**

# «Sən yerlərdə sürünməyə deyil, çiyinlərdə yüksəlməyə layiqsən»

**Bir millət, iki dövlətik, bizi bir-birimizdən fərqləndirən xüsusiyyətlərimiz çoxdur, amma düşüncə olaraq aşağı-yuxarı eyniyik və demək olar ki, eyni mərhələləri keçmişik.**

Qadınların bülbül kimi qəfəsə məhkum olunduğu illər idi. Oxumazdılar, dodaqlarının altında zümzümə edərdilər ki, birdən kimsə eşidər. İki qadının birlikdə iki kəlmə kəsməyinə də şeytan işi kimi baxırdılar. Açığı, işə zarafat kimi yanaşsaq, iki qadın bir yerə gələndə danışdıqları qeybət olur, qeybət də ki şeytan işidir də.

Amma bir qadın vardı, Emile Zolyanı, Şekspiri, Abbotu oxuyar, tərcümələr edərdi. II Abdulhamit "Şəfqət nişanı" ilə təltif etsə də, ingilis işğalında olan Vahdettin hökuməti işğalçılara qarşı Atütürklə yola çıxan bu cəsur qadın haqqında 1920-ci ildə edam qərarı verdi. Buna baxmayaraq, o qorxmadı, əksinə Qurtuluş savaşı üçün Anadoluya keçdi. Atatürk, "Ey qəhrəman Türk qadını! Sən yerlərdə sürünməyə deyil, çiyinlərdə yüksəlməyə layiqsən", - deyərək çağırış edəndə təqvim 1923-cü ili göstərirdi və Cümhuriyyət qurulmuşdu.

Anadoluya işıq saçan inqilab məşəli yandırıldı. Qadınlar doğub bəslədikləri kişilərlə bərabər olacaqdılar.

Atatürkün silahdaşı, Qurtuluş Savaşının onbaşı Halidesi yad düşmənlərlə savaşdığı kimi bi r milləti özünə qul etmək istəyən saraylarla və daxili düşmənlərlə də savaşacaqdı.

Professor Halide Edip Adıvarın "Millətlər dostumuz, hökumətlər düşmənimiz" cümləsi xatirələrə həkk olundu. Həyatı ABŞ rejissorlarına ilham verdi, haqqında film çəkildi. Süreyya Ağaoğlu 1920-ci ildə İstanbul Hüquq fakültəsinə girən ilk qadın və Türkiyənin ilk qadın vəkili idi. Mülkün, yeni dövlətin təməlinin ədalət olması üçün savaşdı. Qadınlar evlərinin qapısından başını çıxarmadığı halda, Filiz Dinçmen ilk qadın səfir olub cümhuriyyəti dünyada təmsil etdi. Sərhədlər yıxılırdı. Qadınlar bugün yüzdə 63 faizlə diplomatiyaya hakim oldu.

Türkiyənin ilk tibb bacısı Esma Deniz 93 illik ömrünün 73 ilində modern Türkiyə üçün örnək oldu. Türk Tibb Bacıları Dərnəyi Florence Nightingale Tibb bacısı Məktəbini qurdu. Onun adına xatirə sikkəsi buraxıldı. "Oxumaq istəyirəm, Paşam" deyə Atatürkə səslənəndə Sabiha Gökçenin hələ 12 yaşı var idi. Oxudu, Türkiyənin və dünyanın ilk qadın pilotu oldu. Sarıqamışlı Leman Altınçekiç Hərbi Hava qüvvələri Akademiyasını bitirən ilk türk qadın pilotu idi. Təyyarə bir kənara, ata arabasına belə qadınların tək minməyi qadağan olunan bir toplumda doğulub 20 yaşında F-85 və T-33 qırıcılarını sürmüşdü. O dövrdə dünyada, NATO-da işləyən ilk və tək qadın idi. İlk qadın hakim və futbolçumuz Lale Orta topu qapıya vuranda "qadın futbol oynamaz" tabularını darmadağın etdi.Bu ilkləri Azərbaycan adına sadalamağa başlasaq, ağız dolusu danışa bilərik. Adi bir meşəbəyi qızı olan Validə Tutayuq biologiya sahəsində ilk qadın elmlər doktoru, professor olmuşdu. 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilərək böyük ilkə imza atmışdı. Məhz akademiyanın həqiqi üzvü seçildikdən sonra, nəhayət, Azərbaycan elminin də qadın akademiki olmuşdu.



Təkcə Azərbaycanın deyil, eləcə də Şərqin ilk qadın təyyarəçisi olan Leyla Məmmədbəyova müharibə başlayarkən (II Dünya Müharibəsi) mayor rütbəsinə qədər yüksələ bilmiş, lakin yetkinlik yaşına çatmayan 4 uşağın anası olduğu üçün onu müharibəyə göndərilməmişdi.

Buna baxmayaraq, SSRİ miqyasının ikinci, Şərqin isə birinci xanım təyyarəçisi olan Leyla Məmmədbəyova Azərbaycan tarixinə düşə bilmişdi.

II Dünya Müharibəsində hərbi təyyarəçi kimi yüksək nüfuz qazanan və kapitan rütbəsinə qədər yüksələn Züleyxa Seyidməmmədova sonradan yüksək postlarda irəli çəkilmişdi. Xanım Seyidməmmədova hətta bir müddət Azərbaycan SSR ictimai təminat naziri vəzifəsində də çalışmışdı.

Azərbaycanın ilk xanım opera müğənnisi Şövkət Məmmədova böyük Üzeyir Hacıbəylinin kadrı idi. Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə Milanda konservatoriyanı oxuyan Şövkət xanıma həyatının ən pis vaxtlarında Ü.Hacıbəyli kömək edib və onu ilk dəfə səhnəyə çıxarmışdı. İlk xanım opera müğənnimiz səhnəyə çıxan zaman qoçular onu az qala öldürəcəkmiş. Bu zaman da ona Üzeyir bəy və dostları kömək etmişdi. Azərbaycanın balet sahəsində ilk qaranquş olan Qəmər Almaszadə adi bir çəkməçi qızı olub. Uzun müddət baletə gedən zaman atasına idmanla məşğul olduğunu deyərək aldadırmış. Lakin çox sonralar atası əsl həqiqəti bilir. Qızının bu seçimi ilə barışır. Hərdən gizlincə teatra gedib tamaşaçılar arasından qızının ifasını izləyirmiş də. İlk qadın nazirimiz - xarici işlər naziri olan Tahirə Tahirova olub. O, həm də neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis idi. 1940-cı ildə isə Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutuna direktor təyin olunub. Böyük Vətən müharibəsi dövründə cəbhənin fasiləsiz neft təchizatına cavabdeh olub.

T.Tahirova 1957 -ildə Azərbaycan SSR xarici işlər naziri vəzifəsinə təyin olunsa da, icrasına 1959-cu ildən başlayıb və 1983-cü ildə nazirlikdəki fəaliyyətinə son qoyub. SSRİ Ali Sovetinin (4-cü çağırış), Azərbaycan SSR Ali Sovetinin (3, 5, 7-ci çağırış) deputatı olub.

İki sahənin naziri olmuş ilk xanım Elmira Qafarovadır.

1983-1987-ci illərdə Azərbaycan SSR xarici işlər naziri vəzifəsində çalışıb. 1987-1989-cu illərdə E.Qafarova Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışıb, 1989-cu il dekabrın 30-da Gəncə şəhərinin adının bərpa olunması və 1990-cı il martın 13-də Azərbaycan xalqının milli bayramı olan "Novruz bayramı"nın rəsmən qeyd edilməsi haqqında fərmanlar imzalayıb.

Türkiyədə Atatürkün, Azərbaycanda Məmməd Əmin Rəsulzadənin qurduğu cümhuriyyət və bu cümhuriyyətin hər iki ölkəyə bəxş etdiyi bərabərlik hüququ sayəsində qadınlar köləlikdən qurtuldu, əşya olmaqdan xilas oldu, ilklərə imza atdı. Bu yolu keçib gələn hər iki ölkədə təəssüflər olsun ki, hələ də qadına kölə kimi yanaşan müxtəlif dini təriqət üzvləri, çürük təfəkkür sahibləri var və onları nə qədər ciddiyə almasaq da, böyük təsir qüvvəsinə malikdirlər.

Amma alınmayacaq, onların qaramat dünyaları türk qadınını, bu iki qardaş xalqı öz əsirinə çevirə bilməyəcək.

"Bütün müsəlman aləminə bərabər Türkiyə də bilməlidir ki, ailə əsarəti və ailə istibdadı üzərinə təşkil edilən millətlər heç bir vaxt ailə hürriyyəti və ailə səadəti məbnaları üstündə qurulan millətlərlə mübarizə edə bilrnəzlər. Qadın bir millətin nisfi-mühümmünü təşkıl edir. O, aciz isə, hüquqsuz və mərifətsiz olursa, millətin yarısı xəstə və məflucdur - deməkdir. Qasım bəy Əmin mərdümşikə məfluc bir adamla səhih üləza bir adam bərabər olamaz və xəstə adam bəlildir ki, sağ və salim bir adamla döyüşə də bilməz.

Bu və bu qəbil nəsihətləri indi bu süfur kənarlarlnda verilən konqreslərdə (leksiyalarda) eşitmək qabil olduğu kimi, İstanbulda çıxan qəzetələrdə də ara bir oxumaq olur.

**Fəqət bununla bərabər bütün Balkan məğlubiyyətini qadınların dar yubka geymələrində görənlər də var. Onlarla da mübarizə aparmaq lazım gəliyor".**

**Məhəmməd Əmin Rəsulzadə**

**Hazırladı: Eminquey**

Əbülfət MƏDƏTOĞLU



# Sevginiz uğurlu və umudlu olsun

**Bir deyim var, o qədər dəqiq deyimdir ki, onu xatırlamaq da, dilə gətirmək də mənim üçün çox mənalar ifadə edir. Dünyanın altını və üstünü yaxşı bilən kamil insanlar bəlkə də bir araya gəlib bu deyimi formalaşdırıblar. Həmin o kamil insanlar deyiblər ki, "Dünya bir pəncərədi..." və sonra yəqin elə onların özləri də əlavə ediblər ki, "hər gələn baxıb gedər!". Bax, bu mənada hər gün, elə bu yazını diqtə etdiyim vaxtda da baxıram, özü də lap uzaqlara baxıram. Gözüm o uzaqlığı görməsə də, o sərhədi aşıb keçməsə də mənə elə gəlir ki, o uzaqlıqdakı, o gözümün görmədiyi, amma ürəyimin gördüyü məsafədəki Sən elə mənim dünyamın özüsən və mən də öz dünyama ürəyimin gözü ilə baxıram... Baxıram və düşünürəm. O dünya da görəsən pəncərədi? Və nədən insanlar dünyanı iki yerə bölüblər. İkisi də bir səslə, bir sözlə, bir işarə əvəzliyi ilə ifadə olunub: O və Bu!**

**Sonra da deyirlər ki, o dünya və bu dünya. Doğrudur, müqəddəs dinimizə sayqılı olanlar o dünyanı axirət də adlandırırlar, behişt də deyirlər. Olsun,**



**mən bunların heç birindən narazı deyiləm. Heç etirazım da yoxdur. Amma mənim qəti əminliyim budur ki, var olduğum məkan həm O və həm də Bu dünyadı. Nə qədər ki, var olduğum məkandayam, deməli sənin yanındayam. Cismən olmasan da, ruhən, xəyalən! Və sənin yanında olanda da dünyada gördüyüm də, görəcəyim də elə sən olursan. Gözümün görmə gücü, ürəyimin sevmə gücü daxilində olur bu dünya - sən olan dünya!..**

**Həyat indiki anda, indiki yaşam müstəvisində çox cansıxıcıdı. Baş verən proseslər, qarşıdurmalar, məişət məsələləri və digər olaylar insana yükdü. Onun həm düşüncəsini zəhərləyir, həm həyatını. Həmin gərginliklərin içərisində öz dünyana sığınmaq, öz dünyanın aurasını bütünlüklə yaşamaq mənə görə ən böyük xoşbəxtlikdir. Baxmayaraq ki, həmin o dünyanın yetərincə problemi var. Amma o problemlər iki ürəyin, iki insanın, iki tərəfin anlaşıb çözə biləcəyi problemlərdi. Belə olduğu halda öz dünyamdan gileylənmək heç də yaxşı sayıla bilməz...**

**Bax, bütün bunları bilgisayara diqtə edərkən gözümün görmədiyi, ürəyimin isə elə o anda görüb gəzdiyi dünyada baş verənlərin hamısını inci kimi sapa düzürəm. Onun parıltısı bir özəllikdi, özü isə tamam fərqli bir gözəllik. Bunu duymaq, bunu vəsf etmək, duyğusal hisslərə malik insan üçün göyün yeddinci qatında olmaq kimi bir şeydi. Məhz həmin göyün yeddinci qatında hiss edirsən ki, sən nə qədər xoşbəxtsən, sən nə qədər dəyərlisən, bunları isə sənə yaşadan, bağışlayan Allahla həmin o dünyanın sahibidi. Bu məqamda ağlından gəlib keçir ki:**

***Sözün bitdiyi yerdir,***
***Dilin lal olduğu an.***
***Sənsən, bir də ki Allah***
***"Can" dediyim, ancaq can!***

**Kimsə bu müqayisəyə, bu eyni səviyyədə dəyərləndirməyə görə məni qınaya bilər. Və mən də heç kimə bu məntiqə görə etiraz etmərəm. Ona görə ki, içim rahatdır. Bilirəm ki, səni mənə tuş gətirən də, səni sevməyi də, bu şeirləri yazmağı da mənə diqtə edən, pıçıldayan Allahdı. Mən onun bəndəsi kimi deyilənləri və eşitdiklərimi yaşadıqlarımın varlığına hopdururam, cilalayıram və özüm də o xoşbəxtliyin içərisində oluram. Məhz həmin məqamda:**

***Əl qaş üstdə, göz yolda,***
***Ayaqyalın, söz yolda...***
***Bu əyri, düz yolda -***
***Xatirə biçinidi...***

***Əyilibdi duman, sis,***
***Ümid üzgün, güman pis!..***
***Ömür his dadır, bax, his -***
***Süzülüb, için indi...***

***Bükülüb, anın beli,***
***Sökülüb danın beli.***
***Quruyub canın beli -***
***Üstündən keçin indi...***

***Bir bəndədi hər bir iz,***
***Kəsişirik hərdən biz...***
***Bu Əbülfət, bu da siz -***
***Özünüz seçin indi...***

**Deməli, bütün hallarda həmin o pəncərə olan o dünya insanı özünə çəksə də, sən demə, hamı o pəncərədən baxmaq qabiliyyətində deyil. O pəncərədən baxmaq üçün içində də bir dünya olmalı imiş. Əgər sənin içində dünyan varsa, o özəlliyə sahibsənsə, mütləq baxacaqsan böyük dünyanın pəncərəsindən. Nə görməyindən asılı olmayaraq içindən bir ah keçəcək. Ah isə özündə bütün mənaları ifadə edir. Demək istədiyin hər şeyi hər kəs anlayır.**

**Sən hiss edirsən ki, bölüşürsən, ürəyini də, duyğularını da, həyatını da. Özü də o qədər rahat bölüşürsən ki, sanki elə belə də olmalıdı. Mən əvvəllər buna fikir verməmişdim. Amma sonralar diqqət yetirdim və anladım ki, səninlə bütünlüyümü bölüşəndə Allaha daha yaxın oluram. Bunun səbəbini də yəqin ki, Allah özü bilir. Amma mənim bildiyim budur ki, dərdi bölüşəndə azalır deyirlər, sevinci bölüşəndə isə çoxalır, artır. Bu nə qədər həqiqətdi, onu yəqin ki, hər kəs öz həyat təcrübəsində hiss edib. Mənim həyatımda isə səninlə bölüşdüyüm hər şey sevgimi artırır, inamımı, inancımı artırıb və elə bilmişəm ki, əllərim saçındadı, gözlərim gözündədi, nəfəsim nəfəsinə qarışıb və:**

*Biz bu ömrü yuxu kimi yaşayıb,*
*Dörd divarı, bir otağı bölüşdük...*
*Özümüzü xəyallara daşıyıb*
*Bir yastığı, bir yatağı bölüşdük.*

*Bir adına, gün adına yaşadıq,*
*Bir sevginin inadına yaşadıq.*
*Bir ümidin qanadına yaşadıq -*
*Yüz acını, bir matağı bölüşdük.*

*İnanc özü diqqət çəkən Firuzə,*
*Bu inancı biz verməyək büruzə.*
*Baxa-baxa bir Qibləyə, bir üzə -*
*İçimizdə bir oddağı bölüşdük!*

*Qoruyaraq sevgi adlı qalanı,*
*Bizi hər gün oddan oda salanı.*
*Sənin ilə, bil ki yoxdu yalanı -*
*Həm bu dağı, həm o dağı bölüşdük...*

**Bəli, mən də neçə gündü ki, içimdə fırfıra kimi fırlanıb kağıza köçməyə can atan hissləri öncə Allahla və onunla, sonra da sizinlə bölüşdüm. Yəqin ki, bu bölgüdə kimlərsə özünü də gördü, öz payını da götürdü, öz xəyalını da qurdu, öz acısını da xatırladı.**

**Bir sözlə, hər kəs öz bildiyi kimi odu öz qarşısına çəkdi. Mən heç kimin nə və necə etdiyini düşünmədən, sadəcə Allahın və onun qarşısında bu bölüşmədə əgər xəta etmişəmsə, onun üzrünü diləyirəm. Sizlərə isə Allahdan ürək dolusu sevgi yaşamağı umuram. Sevginiz uğurlu və umudlu olsun!**

Bəri başdan deyim ki, canında, qanında, bütövlükdə varlığında məhəbbət olan hər kəs bu adı daşıyanlara bir az qəribə baxırlar. Şəxsən mən düşünürəm ki, məndən çox və məndən böyük sevgisi, məhəbbəti olan kimsə yoxdur. Ona görə də adı "Məhəbbət" olan hər bir insana bir az fərqli bucaq altında baxıram və bu adamları izləyirəm. Görüm, həqiqətən onlar adlarını doğruldur, yoxsa papağı günə yandırırlar.

Bu gün xoş bir xatirə ilə, amma bir az da nisgillə xatırladığım bir dostum var idi. Əslində elə indi də var. Sadəcə o var olanda cismi də, ruhu da gözümün önündə idi. Amma indi ruhudu, bir də səsi!..

Mən hər səhər işə başlamazdan öncə onun "Laçınım"a qulaq asırdım. 2020-ci ilin sentyabr ayının 27-dən sonra artıq onun "Əlvida"sına qulaq asıram. Düşünməyin ki, "Laçınım" mahnısından doymuşam. Yox, sadəcə olaraq artıq onun Laçında olduğuna yüzdə yüz əminəm və bu əminlik məni bir az da onun üçün qəribsədib. İçimə hopub ki, Məhəbbət Kazımov Laçındadı, həsrətini çəkdiyi o cənnəti gəzib dolaşır və ordan mənə əl eləyir. Bu əl yelləmək bir əlvida işarəsidi. O zamana qədər ki, bizim ruhumuz sarılacaq bir-birinə...

# Bir Məhəbbət günü...

## Məhəbbət KAZIMOVUN doğum gününə

Bəli, mən Məhəbbət adını daşıyanların bir qismini izləyəndə gəldiyim qənaət bu oldu ki, məhz Məhəbbət Kazımov bu adın ən layiqli təmsilçisidi. Çünki onun nəfəsi də, zəngulələri də, həyatı da, adamlara münasibəti də, gözələ və gözəlliyə diqqəti də ancaq məhəbbət idi. O , bu adı içində, həyatında hər gün bir buğum da göyərdirdi. Elə do!!! Məhəbbət Kazımov başqa cür ola bilmirdi və ola da bilməzdi! Çünki adı da Məhəbbət idi, həyatı da.

Bu ayın ilk günü Məhəbbət Kazımovun 69 yaşı tamam oldu. Onu hər gün xatırlayan, onun baməzə söhbətlərini, qəribə jestlərini tez-tez dilə gətirən dostları öncə məzarını ziyarət etdilər. Bu ziyarətin təşəbbüsçüsü və təşkilatçısı Məhəbbət Kazımovun can dostu, xalq artisti Yasin Qarayev idi. Məhz onun bir işarəsi ilə Ramiz Qusarçaylı Qubadan gəldi Bakıya. Gəldi və ziyarət elədi könül dostunu. Füzulinin Gecəgözlü kən-



dindən olan Bəylər Sərxanov da, hamımızın çox gözəl tanıdığımız dəyərli ziyalımız professor İlham Rəhimli də, "Azərbaycan" Nəşriyyatının sayılan əməkdaşlarından Afiq Vəlimətov da, muğam müsabiqəsinin laureatı Məhəbbət Kazımovun sevilən ən gənc dostu və davamçısı Şəmsəddin də, elə bu fikirlərin müəllifi ola mən Bəndəniz də yığışdıq "Məhəbbət" kafesinə. Saatlarla oturduq, Məhəbbətdən danışdıq, Məhəbbətin bizlərə məhəbbət aşılayan söhbətlərini, sözlərini xatırladıq, Şəmsəddinin ifasında Məhəbbət Kazımovun mahnılarını dinlədik... Bir sözlə, iyulun 1-də biz yeni ayımızı Məhəbbətlə başladıq, Məhəbbətlə qeyd etdik. Məhəbbəti öz aramızda gördük.

Xoşbəxt o insandı ki, sağlığında da, Tanrıya qovuşanda da ilk dəfə necə tanınıb görünübsə, elə o cür də tanınır və yaddaşlarda qalır. Bax, Məhəbbət Kazımov da o xoşbəxt insanlardan, bizim dostlarımızdan biridir. Bu məqamda xalq şairi Səməd Vurğunun böyük Üzeyir Hacıbəylinin ölümünə yazdığı şeirinin misraları düşür yadıma. Səməd Vurğur yazmışdı ki:

***Ölüm sevinməsin qoy,***
***Ömrünü vermir bada.***
***Xalq qədrini canından***
***Daha artıq bilənlər.***
***Şirin bir xatirətək***
***Qalacaqdı dünyada***
***Sevilərək yaşayıb***
***Sevilərək ölənlər!***

Hələ orta məktəb illərində oxuduğum bu şeirin ovqatı üstündə mən də Məhəbbət Kazımovun sevilərək yaşayıb, sevilərək hər kəsə sevgi aşıladığına inanan dinləyicisi, dostu kimi deyirəm:

**- Biz bir Məhəbbət günü yaşadıq. O günün işığı, ovqatı bu gün də bizimlədir. Deməli, Məhəbbət sevənlərinin, doğmalarının, dostlarının, bir də musiqi xiridarlarının hər zaman yadındadı, yanındadı. Nə gözəlmiş Məhəbbətin günü!**

Əbülfət MƏDƏTOĞLU

# "Su üzərində bahar" kitabına atüstü diqqət

**Onunla bugünlərdə "Azərbaycan" nəşriyyatında qarşılaşdıq. Çoxdan tanıdığım və mənim üçün həm dəyərli, həm də köhnə kişilərdən olan Rəfail Tağızadə ilə bu qarşılaşmam yaddaşıma bir işıq saldı. Atüstü də olsa, keçmiş günlərin müəyyən məqamları canlandı gözümün önündə. Söhbət əsnasında ruh doğmam olan Rəfaili yeni kitabı münasibəti ilə təbrik etdim. Bildirdim ki, kitabı barəsində internetdə oxumuşam.**

Elə bil Rəfail mənim bu sözümü gözləyirdi. Özünəməxsus təbəssümlə dedi ki, yolum nəşriyyata düşmüşdü, özümlə sənin kitab payını da gətirmişəm. Və beləcə Rəfailin "Su üzərində bahar" kitabı mənim də kitab dünyamın sakini oldu.

Adətimdi, yeni kitab görəndə rahatlıq tapmıram. Əlimə düşən hər fürsətdə onu vərəqləyir, gözdən keçirirəm. Xüsusi ilə yaradıcılığını yaxşı bildiyim, ruhuna bələd olduğum həmkarlarımın kitabları bu məsələdə öncə cərgədə dayanır. Bax, Rəfailin də kitabı mənim dincliyimi əlimdən almışdı. Ona görə də ayın 4-də avtoqrafla mənə bağışladığı bu kitabı bir gün sonra əməlli-başlı oxumuşdum. Burda bir həqiqət də var, o da kitabdakı müəyyən şeirlərin dövri mətbuatda çap olunmasıdı. O cümlədən də "Ədalət" qəzetində. Ona görə də mənə tanış olan şeirlərlə təkrar təmas indi fərqli bir ovqat yaradırdı. Həmin ovqatın içərisində mən öz-özümə pıçıldayan adam kimi indi bura köçürəcəyim misraları təkrar edirəm:

***Götürüb gedirəm səni özümlə,***
***gecənin ən sakit, gizlin yerinə.***
***Qıymaram mən sənə könlümdən başqa,***
***bir baxış toxuna, yerin bilinə.***

***Mən səni köksümə sıxıb apardım,***
***Bürüdüm hissimin burulğanına.***
***Bir də görərsən ki, qaçıb özümdən,***
***Dodağım qonubdu dodaqlarına.***

***İlahi, sən bunda cazibəyə bax!***
***Bu sevgi özündən qoparır məni.***
***Bu xumar gecədə bədirlənən ay***
***Salıb işığına aparır məni.***

Bəli, bu bir rəssam əsəridi, sadəcə sözlə çəkilib, qələmlə, hərf-hərf, sətir-sətir naxışlanıbdır.

Təbii ki, müəllifi də Rəfail Tağızadədi. Tam səmimiyyətlə deyirəm ki, mənə bir sevgi tablosu kimi təsir bağışlayan bu şeirin aurasında kitabdan ayrılmaq, digər bir işin qulpundan tutmaq heç də xoş deyildi Ona görə də əksər işlərin qarşısında sual işarəsi qoyub girişdim bu kitaba.

Oxuya-oxuya təkcə mənzərələrin, fikir dünyasının şahidi və iştirakçısı olmadım, həm də daxilən o gözəlliyin havasına, nəfəsinə büründüm. Özümü müəllifin yanında gördüm. Elə bildim ki, bu şeiri haçansa sevdiyimə mən də demişəm:

***Sənin çətirini alan küləyin,***
***Öpüşü qonacaq yanaqlarına.***
***Enəcək, enəcək bir az aşağı,***
***O solan, göyərən dodaqlarına.***

***Bu yerin, bu göyün heç bilmədiyi,***
***Ayın duymadığı, eşitmədiyi.***
***Bir sevgi nəğməsi oxuyacağam,***
***Qara buludların qulaqlarına...***

Bəli, şeiri oxuyub başa çıxanda, yaşanmış bir sevginin müəllifinə sadəcə olaraq həsəd apardım.

Çünki ürək, duyğu o zaman qarşı tərəfin halının, ovqatının bir parçasına çevrilir ki, onda reallıq və səmimiyyət hakim olsun. Bu mənada Rəfail Tağızadənin şeirlərində gerçəklik qədər də yaşam var, yaşam qədər də gerçəklik.

Elə bu andaca birmənalı şəkildə vurğulayım ki, Rəfailin poeziyasında Sevgi bir varlıqdı, canlıdı və onun da iki qanadı var. Biri Vətənin üzərinə sərilib, biri şairin munis duyğularının, özünə bəlli aləminin üzərinə çəkilibdi. Ona görə də Vətən sevgisi də ictimailikdən




həmin o munis sevgiyə bir növü əl uzadır, onlar qoşalaşırlar. Necə ki, Rəfail deyir:

***Yolumda izim qalmadı,***
***Baxmağa gözüm qalmadı.***
***Kül oldum, közüm qalmadı,***
***Mən sənin nəyinəm, Vətən?***

Bu müraciət və bu ərklə Vətəni sorğulamaq həmin o sevginin bariz göstəricisidi. Deməli, şairin öz munis hislərini ifadə edərkən sevgilisinə verdiyi sual da bu ölçüdə, bu biçimdə, bu çəkidədi. Həmin yanaşma dəyişmir və Rəfail soruşur ki:

***Mən sənin nəyini sevdim,***
***bilirsənmi?***
***Baxışlarını sevdim, baxışlarını.***
***Duruşunu sevdim, Qamətini sevdim.***
***İçindəki ucalığı sevdim.***
***Düşüncəni, anlayışını sevdim***
***Sözünü, söhbətini sevdim.***
***Mən sənin özünü sevdim.***

Və bu sevginin yozumu da, yəni onun mayası da, söykəndiyi dayaq nöqtəsi də sonrakı bəndlərdə sadə, həm də tam inandırıcı bir şəkildə öz ünvanına çatdırılır. Onda bir oxucu kimi mən də inanıram ki, bəli, həqiqətən onu sevmək olar. Özü də təkcə olar yox, həm də zəruridi.

"Su üzərində bahar" kitabı ilə bir günlük təmasında yaşadıqlarım mənə çox mətləbləri, elə bir günün içərisində də pıçıldadı. Hətta əlimdən tutub məni də bildiyim, xəyal etdiyim yerlərə çəkib apardı. Və anladım ki, bu kitab barəsində bir yazıda, bir atüstü qeyddə hər şeyi demək mümkün deyil. Bunun üçün zaman lazımdı.

Elə bir zaman ki, kitabın hər şeirini təkrar oxuyasan. Və onda biləcəksən ki:

***Qarabağ -***
***harda olsam***
***məni ana kimi qoynuna çəkən***
***Torpaq.***
***Ciyərimin süzgəcsiz sorub***
***qəbul etdiyi***
***Hava.***
***Qayaları, daşları yarıb***
***damcılayan, süzülən, çıxan -***
***isti,***
***soyuq,***
***turş***
***Su.***

**Bəli, bax, insana gərək olan da hava, torpaq, su-du! və bunun da bircə anlamı var. Havasız, torpaqsız, susuz yaşamaq mümkünsüzdü. Deməli, həm də Qarabağsız yaşamaq da mümkünsüzdü!. Şükürlər ki, Qarabağın, Şuşanın, Ağdamın, Tuğun havasını, torpağını, suyunu öpə bildik. Mən də Rəfailin bu kitabını bir dost sevgisi ilə, bir oxucu məhəbbəti ilə öpüb təkrar ona qayıdacağıma əminəm. Mübarək olsun Rəfail Tağızadə!**

Əbülfət MƏDƏTOĞLU

# Nazim Əhmədli "Sənsiz" - dedi... Mən isə...

**İnsan o zaman özünü ifadə edir ki, onun genetik kodu, yəni özünün kimliyi bir foto kimi, rəsm kimi hər zaman gözünün önündə olur. Özünü özünə köçürtməklə yanaşı, özünü özündə təqdim etməyi də bacarır. Bu mənada genetik kod həm də qeyri-rəsmi kimlikdi. Sən bununla həm çevrəndə, həm maddi, həm də mənəvi dünyanda özünü göstərir, tanıdır, ya sevdirir, ya da unutdurursan. Bax, bu anlamda iç dünyası ən munis duyğularla cilalanmış insan daha həssas olur. Onun bu həssaslığı da bəzən üzüntünü, sarsıntını, ağrı-acını daha çox çəkir və yaşamaq zorunda qalır. Mən bunu Allahın sevdiyi bəndəsinə özəl münasibəti hesab edirəm. Əgər mən sevginin ağrı-acısını, həsrətini, vüsalını, yuxusuz gecəsini, xəyalını, hətta göz yaşını yaşaya bilirəmsə, bu, bir Allah mükafatıdır. Deməli sevgi için - özəl dünyanın sahibidi. Və...**

Təbii ki, şair olan həm də bir ilham pərisinin sevdalısıdı. O ilham pərisi bütün məqamlarda şairin, ruh adamının ürəyi ilə yanaşı, həm də çiynində əyləşmiş bir taləkdi. Hara boylansa onu görəcəkdi. Kimsə bunu yoza da bilər. Amma fərq etmir. Ona görə ki, ilham pərisi həm də həyatdakı, gerçəklikdəki sevginin bənzəridi, oxşarıdı. Şairlər sevgilərini həmin ilham pərisinin, yəni ikinci adamın dili ilə oxucuya çatdırır. Deməli, "inanma şair sözü yalandı" epiteti də əslində məhz həmin o ilham pərisinə hesablanıbdır. Deməli, bu məqamda Nazim Əhmədlinin sevgi duyğuları oxucuya birbaşa yox, dolayısı ilə ilham pərisinin vasitəsilə çatdırır. Nazim Əhmədli vurğulayır ki:

***Getdin, intizarda qoyduğun könül,***
***qəfəsdə çırpınan quş idi sənsiz.***
***həsrətin ələndi soyuq qar kimi,***
***ürəyim köksümdə üşüdü sənsiz;***

Təbii, həm də insanın könlünü ovudacaq qədər səmimi bir üslubda ifadə olunmuş bir sevgi gerçəkliyi həqiqətən ruha xoş gəlir. Çün-



ki qəfəsdə çırpınan quşun oxşarı, bənzəri kimi ortaya gəlmiş ürək əsl həqiqətdə sevgi anını məhz belə yaşayır. Bu anın bir oxucu, bir izləyici kimi məndə yaratdığı assosasiya hardasa elə Nazimin günündə olmağımdı. Ona görə mən də Nazimsayağı deyirəm:

***atıb getdin, nə deyim,***
***seçim sənin, söz sənin.***
***Alt-üst etdin, nə deyim,***
***Ocaq sənin, köz sənin.***

Bu müraciətin arxasında həm də aşiqin, yəni indiki məqamda şairin gerçəklik önündə susqunluğu ilə yanaşı, həm də bir çaşqınlığı da var. Çünki gözləmədiyi anda, gözləmədiyi məqamda atılmaq, tərk edilmək təkcə vurulan zərbə deyil, o həm də bir anlıq hər şeyi alt-üst etmək, həm də özünü də yaddan çıxartmaqdı. Bir anda ki, sən özünü yaddan çıxardırsan, demək həmin an sənin deməyə sözün də olmayacaq. Bax, bu yerdə köhnə kişilər demiş Kərəmi ağlamaq tutur. Bu bir an çəkir. Həmin o bir anda artıq toparlanırsan. Nə deyəcəyini və necə ifadə edəcəyini qərarlaşdırırsan və köməyinə Nazim Əhmədli gəlir:

***dərdim intizarda, dərdim səbirsiz,***
***boşalıb dağılan yurdum səbirsiz,***
***dünya mənə görə səssiz, səmirsiz***
***dünya mənə görə boş idi sənsiz;***

Bu misralar, bu bənddəki məntiq təkcə içində olduğum anın ifadəsi, rəsmi, mənzərəsi deyil, o həm də yalnız özünün gördüyü, özünün çəkdiyi yükün, ağrının ifadəsidi. Bu özünüifadə müəyyən qədər daxili təsəlli olsa da, amma həm də sənsizliyin ilk fəsadlarının etirafıdı, dilə gətirilməsidi. İstər oxucu, istər elə bu şeirin ünvanladığı ilham pərisidi, bir az da çılpaq desəm, həmin o ünvan sahibi azacıq da olsa, nələr baş verdiyini hiss edir. Lap ola bilsin ki, bu onu öz varlığına da köçür, axı söhbət sevgidən gedir, onun yaşantılarından bəhs olunur. Deməli, azacıq, necə deyərlər iynə ucu boyda hissiyyatı olan aşiq və yaxud məşuq büruzə verməsə də, içində bir ahın qurbanı olacaq. Bu ah isə itirilən, öldürülən sevginin bəlkə də son nəfəsidi, son hıçqırtısıdı... Hə, bax reallığın, yəni sevgi yaşamının şəkli budur. Bu həm də o deməkdi ki:

***Mən nəfəsdən od alan,***
***Baxışından odlanan...***
***Bu küçələr, o dalan -***
***Cığır sənin, iz sənin!..***

Deməli, hər şey sənə aiddi, küçə də, yol da, nəfəs də, baxış da... Sənə aid olanları aparmaq gücü isə səndə yoxdu. Ona görə ki, sevgini verən sevginin dünyaya gəlişinə "OL" deyən onu bütöv yaradıb. İki qütbün, iki tərəfin, iki ürəyin istəyi, bütövlüyü üçün. Deməli, birinin çəkilməsi, getməsi yalnız ağrı, sızıltı, tənhalıq, bir az da obrazlı desəm şikəstlik yaradır. Bax, ona görə deyirəm ki, sən artıq ikimizə aid olanı öz payın kimi götürüb getmək gücündə deyilsən və ikimizin olan sevgi birimizin çəkilməsi ilə sadəcə yarımcan olur. Bu yarımcanlıq da Nazim Əhmədlinin məntiqinə söykənsək belə ifadə olunur:

***yol çəkən gözlərim qalıb mürgülü,***
***qəlbimə min yarpaq həsrət bükülü,***
***soruş, təkbaşına hicran yükünü***
***ürəyim bəs necə daşıdı; sənsiz?..***

Gördünüzmü, Nazim də mən deyəni dedi. O da vurğuladı ki, sən heç nəyi aparmaq gücündə olmadın. Əgər aparmısansa bəs onda mənim daşıdığım - yaşadığım nədi? Və bir də əgər daşıyıb, yaşayıramsa onda bu sənsizlikdirmi?!..

Bax, yaranan bu suallar elə Nazimin elə əvvəldən dediklərinin sözlə çəkilən rəsmi idi. O rəsmin müəllifi ilk baxışdan Nazim olsa da o fırçanın rəngləri ilham pərisindən gəlirdi. Deməli, iki ürək bir şəkili çəkirdi. Mən də bu mənzərəni seyr edə-edə öz dünyamın rəngləri içərisində öz sevgimin, öz yaşamımın rənglərini axtarıram. Lap konkret desəm, Səni görmək istəyirəm!

O istək Nazimin istəyini öncə dediyim kimi, məndə yaratdığı assosasiyasıdı! Axı mən də sənsizəm.

O sənsizliyin açarını, "simsimin"i tapa bilmirəm. Ona görə də sənin olan hər şeydə özümü görürəm, özümü gördüyüm yerdə də elə sən varsan. Deməli:

***Dünya gerçək və yalan,***
***Bir xəzan var, bir talan...***
***Köçüb gözümdə qalan -***
***Baxış sənin, göz sənin.***

**Hə, Nazim Əhmədlinin bir kövrək şeirinin işığında tərəddüd etmədən gözümü yumub getdiyim yolun hər iki tərəfində hiss etdiyim, gördüyüm bir reallıq vardı. Bu çiçəklərin arasından keçib sənsizlikdən sənli günlərə gedən yol idi. Bütün yollar kəsişdiyi kimi görüşdürə də bilir. Elə bu ümidlə Nazim Əhmədliyə, həm də özümə "yolumuz açıq olsun!" deyirəm.**

Əbülfət MƏDƏTOĞLU

# Səhiyyə qurumları vaksinasiya ilə bağlı əhaliyə çağırış etdi

**Respublikamızda virusla mübarizə tədbirləri çərçivəsində mövcud maddi-texniki baza, dərman təchizatı və kifayət qədər çarpayı fondu var.**

Trend xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin yaydığı birgə məlumatda qeyd olunub. Bildirilib ki, COVID-19 infeksiyasına yoluxmuş şəxslər əksər hallarda xəstəliyi yüngül, lakin bəzi insanlar (yaşı 65-dən yuxarı olan və hər hansı bir yanaşı xəstəliyi olanlar) nisbətən ağır keçirirlər. Risk qrupuna daxil olan vətəndaşlara sanitar-gigiyenik qaydalara ciddi əməl etmələri, koronavirusun əlamətlərini hiss etdikdə ilk növbədə sahə həkimlərinə məlumat vermələri və test nümunələrinin götürülməsi üçün müraciət etmələri tövsiyə olunur.

Səhiyyə qurumları vətəndaşları virusdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq gücləndirici ("buster") doza ilə peyvəndləməyə çağırır.

**Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına riayət olunması tövsiyə edilir. Unutmayaq ki, fiziki məsafənin saxlanılması və şəxsi gigiyenik qaydalara əməl olunması virusun mutasiyasından asılı olmayaraq xəstəlikdən qorunmağın yeganə yoludur.**

İşğaldan azad olunmuş ərazilərə
“Böyük Qayıdış”

№ 26 (2300) 9 iyul 2022-ci il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# BÖYÜK ZƏFƏR ƏDALƏTİN TƏNTƏNƏSİDİR

**Bəlli olduğu kimi, ATƏT-in Minsk qrupunun son bəyənatı, eləcə də erməni dindarlarından ibarət 25 nəfərlik qrupun Xudavəng monastrına guya ibadətə getmələri üçün Azərbaycan əsgərinin icazə verməməsi ilə bağlı mətbuatda geniş şərh edilən və buna görə də Azərbaycanı ittiham etməyə çalışan ayrı-ayrı dairələr, xüsusilə ermənipərəst güclər nədənsə üçtərəfli bəyanata, həmçinin Azərbaycanın BMT tərəfindən tanınmış hüquqlarına hörmətlə yanaşmağı unudurlar. Yəni bütün bu və ya digər məqamlara söykənib Ermənistanı dəstəkləməyə çalışan dairlər nədənsə bu ölkənin hələ də silahlanmaqda davam etdiyini görmək istəmirlər.**

Amma bu bir gerçəkdi ki, Rusiyadan Ermənistana humanitar yardım adı altında daşınan yükləri Gürcüstan gömrükçüləri gömrükdən buraxmayıblar.

Məlum olub ki, həmin ”humanitar yardım” əslində erməni ordusu üçün göndərilən qoruyucu zirehli köynəklər və döyüş sursatlarıdı. Hələ qaçaqmalçılıq yolu ilə Fransadan, Hindistandan daşınan, həmçinin Rusiyanın Ermənistanda yerləşən hərbi bazasından guya oğurlanan silahları da bura əlavə etsək, onda görərik ki, Ermənistan öz təcavüzkar niyyətindən əl çəkmir.

Bu günlərdə Cəbrayıl və Zəngilan rayonlarına səfər edən Azərbaycan Prezidenti, Ali Baş Komandanımız ermənilərin Ermənistan-Azərbaycan sərhəddində törətdikləri təxribatlara münasibət bildirərək kəskin şəkildə bəyan etmişdi ki, ”Bunu hər kəs bilsin və unutmasın ki, bir daha təxribatlara dözməyəcəyik. Hər bir təxribat yerindəcə məhv ediləcəkdi. Ona görə də bunu hər bir erməni, hər bir Ermənistan vətəndaşı və onlara havadarlıq edənlər birdəfəlik yadlarında saxlamalıdılar. Bilməlidilər ki, Azərbaycan Ordusu və dəmir yumruq onlara hər an dərs verməyə hazırdılar.

Bu günlərdə Azərbaycan və Rusiyanın xarici işlər nazirləri telefon danışıqları zamanı üçtərəfli bəyanatın necə icra olunduğunu öz aralarında müzakirə etdilər. Bir Azərbaycan vətəndaşı kimi, Rusiya sülhməramlılarının Dağlıq Qarabağda və ümumiyyətlə, yerləşdikləri ərazilərdə tez-tez öz missiyalarına daxil olmayan məsələlərə müdaxilə etmələri daha çox ermənipərəst mövqe tutmaları təəssüf doğurur. Sanki onlar Dağlıq Qarabağdakı hələ də özlərini rəhbər sayan cinayətkar qurumun hamiləridilər. Lakin onlar unudurlar ki, bu cür addımlar Rusiyanın indiki durumunda Putin iqtidarına daxildən vurulan zərbənin eynidi. Yəni məsələyə Azərbaycan Prezidentinin, Ali Baş Komandanın müdaxiləsi yaranarsa, bu artıq sülhməramlıların rəhbərinə o qədər də xoş anlar vəd etmir.



Bu günlərdə BMT-nin Asiya və Sakit Okean üçün iqtisadi və sosial komissiyasının 77-ci sessiyasında videoformatda çıxış edən Azərbaycan prezidenti İlham Əliyev vurğulamışdı ki, ”Ötən il Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın Ermənistan tərəfindən işğalda saxlanılmasına son qoyulmuşdu. Məlumdu ki, həmin işğal nəticəsində bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin salınmışdı. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək qadınlara və uşaqlara qarşı qətliam törətmiş, 613 nəfər dinc sakin öldürülmüşdü. Xocalı soyqırımını dünyanın 13 ölkəsi qətliam kimi tanımışdı.

Məlumdur ki, hələ 1993-cü ildə BMT-nun Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını tələb edən 4 qətnamə qəbul etmişdi. Lakin həmin qətnamələr heç vaxt Ermənistan tərəfindən icra edilməmişdi. Mən ikili standartlara yol verilməməsi üçün tərəfdaş ölkələri BMT Təhlükəsiz Şurasının qətnamələrinin icra mexanizmlərinin təklif edilməsi və hazırlanması səylərinə qoşulmağa dəvət edirəm.

Biz Təhlükəsizlik Şurasının bəzi qətnamələrinin bir neçə gün ərzində icra edildiyinin şahidi olmuşuq.

Təəssüf ki, Azərbaycana gəldikdə isə həmin qətnamələr 27 il ərzində yerinə yetirlməmiş qaldı. Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə Ermənistanın əməl edəcəyinə dair heç bir ümid yox idi.

Bütün bu illər ərzində Ermənistana qarşı heç bir təyziq olmamış və sanksiyalar tətbiq edilməmişdi”.



Cənab İlham Əliyevin hər kəsin eşidib duya biləcəyi bir qətiyyətlə söylədiyi bu fikirlər təbii ki, sessiyanın videokonfransına qatılan dövlətlərin təmsilçiləri tərəfindən dinlənilmiş, həmçinin dünya mediasında tirajlanmışdı. Bu isə o deməkdir ki, dünyadakı ermənipərəst güclərin Azərbaycana qarşı atdığı hər bir addım beynəlxalq aləmə hakim kəsilmiş ikili standartların bəhrəsidi. Əgər belə olmasaydı, onda Azərbaycan dövləti, Azərbaycan vətəndaşları, bir milyondan artıq qaçqın-köçkün soydaşlarımız 27 il iqtisadi çətinliklərin məngənəsində vətən nisgilini, yurd həsrətini yaşamazdılar. Onların didərgin düşdükləri evləri, kəndləri, şəhərləri yer üzündən silinməzdi. Yəni erməni barbarlarının öz havadarlarına güvənərək Azərbaycan torpaqlarında insanlığa yaraşmayan bu cür talana, genosidə, tarixi abidələrin yer üzündən silinməsinə cəsarət etməzdilər.

Yeri gəlmişkən, elə bu günlərdə Kəlbəcər rayonunda prokurorluq orqanları əməkdaşları tərəfindən üstü açılmış ”Başlıbel” qətliamı bir daha göstərdi ki, ermənilərin faşist xisləti hansı cinayətləri törətməyə qadirdi. Deməli, Azərbaycan Prezidentinin 77-ci Konfransda söylədiyi fikirlər bu məqamda bir daha öz təsdiqini tapır. Belə ki, cənab İlham Əliyev vurğuladı ki, ”İşğal dövründə Azərbaycanın bütün şəhər və kəndləri yerlə yeksan edilmişdi. Xarici mütəxəssislər Ağdam şəhərini ”Qafqazın xirosiması” adlandırıblar. Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoymuş, təhqir və qarət etmişdi. 60-dan artıq məscid Ermənistan tərəfindən dağıdılmışdı. Məscidlər inək və donuzların saxlanılması yerinə çevrilmişdi”.

Bəli, Ali Baş Komandanın söylədiyi bu faktları 27 il ərzində regiona səfərlər edib başlarını yeyib-içməklə qatan ATƏT-in Minsk qrupunun 3 turist həmsədrinin bir dəfə də olsun diqqətini çəkməmişdi. Bu isə onu göstərir ki, həmin həmsədrlərin məqsədi sadəcə problemin ömrünü uzatmaq və Azərbaycana məsələnin çözülməz olduğunu sübut etmək imiş. Şükürlər olsun ki, 44 günlük Böyük Vətən Müharibəmizlə biz həmsədrlərə də, ermənilərə də, həmçinin onların havadarlarına da göstərdik ki, ordumuzun gücü də var, döyüş əzmi də, onun Ali Baş Komandanının Dəmir yumruğu da.

Sadəcə, Azərbaycan Prezidenti daha çox sülhpərvər missiyadan çıxış edərək problemin danışıqlar yolu ilə həll edilməsinə üstünlük verir və hər dəfə də vurğulayırdı ki, ”bizim səbrimiz hüdudsuz deyil”.

**Biz bu gün həmin səbrimizin bəhrəsi olan Qələbənin sevincini yaşayırıq.**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Kəmalə ABİYEVA*

## UNUT

**Boynubükük bir atanın
gözlərindən cığır salan
bir ananın saçlarında dən-dən olan
dərd gördünmü?
O saçlarda dolandınmı?
O gözlərdən həyatına boylandınmı?
Sən kədəri gördünmü heç?
Bilirsənmi necə olur?
kədər vətən yarasıdı,
kədər torpaq ağrısıdı.
Bəs sevinci gördünmü sən?
Hələ gizlənqaç oynamaq arzusunun
torpaq üçün
Şəhid olmaq arzusunda ölməsində,
atasının daş şəklinə qucaq açan
bir körpənin gülməsində
ağrı içində qıvrılan,
kədərlə qolboyun olan
o sevinci gördünmü sən?
dərdlərini, kədərini yığ üst-üstə
Bax sevincin gözündəki
o qürürlu kədərə bax protez üstə
və
həyatdan sevinc istə.
gör olurmu?
Olmasa da, heç darılma.
Bir də qar soyuqluğunu duymayacaq
uşaqlığın
qartopu oynamaq istəyinin əlindən tut.
bütün dərdlərini unut.**

## SORUŞMAYIN

**Soruşmayın halımı, soruşmayın necəyəm,
Daha bir az fərqliyəm əvvəlki tək deyiləm
bir az gecə kimiyəm, bir az gündüz kimiyəm.
ömrümü tüsdülədən sönməyən köz kimiyəm.
Baxışları didərgin yurdsuz bir göz kimiyəm.**

**Daha hər şey fərqlidi, əvvəlki tək deyil ki.
Dəniz də həmin deyil, dərdlidi elə bil ki.
Göylər də həmin deyil, buludlar da həminki
Mən də bir az başqayam, mən də bir az fərqliyəm**

**Soruşmayın halımı, soruşmayın necəyəm
dilimdə çoxdan ölən
Ürəyimə gömülən söz kimiyəm bir az da.
Bəlkələr ovutmayan, təsəllisi olmayan,
ümidi tapılmayan döz kimiyəm bir az da.**

## ŞİKAYƏTİM VAR

**Daha səbr etməyə səbrim də çatmır
Sənin yaratdığın dünya dağılır,
Nə ağac ağaca oxşayır daha,
Nə yamac yamaca oxşayır daha.
Tikanla çiçəyin fərqi bilinmir.
Suala qarışıb bütün cavablar
Tanrı, mənim sənə şikayətim var.**

**Əzrail bir idi, dönüb min olub.
Şeytana uyanlar artıb çoxalıb.
Şeytanı daşlayan başlar çoxalıb.
Şeytana uymayan çarəsiz qalıb.
Şeytanla mələyin fərqi bilinmir
Cavaba dönübdü bütün suallar.
Tanrı mənim sənə şikayətim var.**

**Həyat həyat deyil, tilsim olubdu,
Yaxşılar yamana təslim olubdu.
Sevgi də, nifrət də batıb günaha
Haqq da, həqiqət də batıb günaha
Yalanla gerçəyin fərqi bilinmir
cavabsız qalıbdı bütün suallar.
Tanrı mənim sənə şikayətim var.**

## ÇARƏSİZLİK

**İllər ötüb keçdi məni qocaltdı
Bir az yaşamağa macal tapmadım.
Mənim arzularım mənlə qocaldı
Cavan saxlamağa gücüm çatmadı.
Mənimlə qocalan arzularıma
sığınıb yatıram hərdən gecələr.
Məndən qabaq ölən neçə arzuma
Ağlayıb yatıram hərdən gecələr
Hər gecə yaxamdan bir ümid tutar
məni sabahlara dartıb aparar.
ümid edə - edə ümidlərimə
bilmədim ümidlər məni aldadar.**

## ELƏ DARIXDIM Kİ

**Elə darıxdım ki bu yer üzündə
Buludlara dönüb çəkildim göyə.
Göyə də sığmadım səpildim yerə
bəlkə bir damcımı tapasan deyə.
Elə darıxdım ki, elə darıxdım,
Nə yerə, nə göyə sığa bilmirəm.
Elə darıxdım ki, darmadağınam,
Özümü bir yerə yığa bilmirəm.
Günlər ilə döndü, darıxdı zaman
ayların, illərin yaddaşı oldun.
Mən bir dünya qurdum xəyallarımdan
sənsə o dünyanın yad daşı oldun.
Elə darıxdım ki, mən bu şəhərdə
bir küçə, bir qapı olmaq istədim,
dedim o küçədən keçib yenə də
bəlkə o qapını döymək istədin.
Döndün mənim gerçək bir yalanıma,
sənli həqiqəti görmədim ki, heç.
Özümü aldatdım öz yalanımla
əgər günahdısa bu günahdan keç.
Elə darıxdım ki, sənli qəlbimi
darıxan əlimlə sökmək istədim.
Elə darıxdım ki, mən səni deyil,
başqa birisini sevmək istədim...**

## QARĞIŞ

**Istəyirəm
Yuxunu tapmayasan.
gecəni gəzə-gəzə qalasan.
Yatmayasan...
səssizcə ağlayasan,
harayını göz yaşında boğasan
İstəyirəm özünü gecədən atasan,
küçəyə atasan,
Gedib o tənha skamyada oturasan...
tökəsən xatirələri qarşına
peşiman olasan
və mən çıxam qarşına...**

## YENƏ YANIMA GƏL SƏN

**Qapımı döy qəfildən
Yenə yanıma gəl sən...
Qapını döyməyindən
Bilim ki, gələn sənsən.**

**Tut əlimdən ehmalca
Yenə də əvvəlki tək.
Sıx köksünə bir azca
Saçlarıma sığal çək.**

**Yenə yanıma gəl sən
Yenə kefimi soruş.
Bir az olub-bitəndən,
Bir az özündən danış.**

**Bu sevgidən dəyərli
Axı var ki nəyimiz.
Ayrılanda dərd-qəmli
Birlikdə xoşbəxtik biz.**

**Axı ayrılmaq üçün
Bəhanə var, səbəb yox.
Amma ayrılmamaqçün
Bəhanə yox, səbəb çox...**

**Yenə yanıma gəl sən
Heç nə olmamış kimi.
Yenə yanıma gəl sən
Heç ayrılmamış kimi.**

**Biz xöşbəxt olmuruq ki,
Ayrılırıq nafilə.
Niyə gəlməyəsən ki,
Sən bunu bilə-bilə?..**

**Günahkar axtarmayaq,
Nə olubsa unudaq.
Yenə yanıma gəl sən
Sadəcə xoşbəxt olaq.**

## BAKIM

**Səhərlər Xəzərdə güzgülənərək,
Qızılı saçların darayır Günəş.
Sevgidən alışıb yanan ürək tək
Bakımla göz-gözə dayanır Günəş.**

**Doymayır hüsnündən hər gün görsə də
Mənimtək Bakıma olubdu vurğun.
Bəlkə də qəlbinin Günəş Xəzərdə
Səma həsrətini ovudur hər gün...**

**Şirin yuxusundan Günəş hər səhər
Odlu öpüşlərlə oyadar onu.
Bakım min naz ilə durub geyinər
Onun bəxş etdiyi qızılı donu.**

**Təbəssüm səpərək nurlu üzündən
Qızılı saçların darayır Günəş.
Bəlkə də Bakımın mavi gözündə
Sevgisinə cavab arayır Günəş…**

# Şuşanın tarixi əhəmiyyəti və müjdə sevinci



*Şəhla Hüseynova*
*Bakı şəhəri, Saleh Poladi adına 159 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

***"Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"***

***Heydər Əliyev***
***Ümummilli lider***

Şuşa qalası salındığı ilk dövrdən 1750-1751-ci illərdən etibarən Qarabağ xanlığının paytaxtına çevrilib və əsrlərin ağır sınağına mətanətlə tab gətirib. Qarabağ xanı Pənah Əli xan Şuşanı paytaxt elan edəndən sonra uzun müddət bu şəhəri möhkəmləndirərək orada güclü müdafiə sədləri yaratmışdı. Şəhəri inşa edən ustalar onun əlverişli relyefindən, təbii istehkam sayılan qayalardan məharətlə istifadə edərək buranı düşmənlər üçün alınmaz qalaya çevirmişdilər. Şəhər bir müddət Pənah Əli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırıldı. Sonralar şəhər daha da genişləndirilmiş və Qarabağ xanlığının paytaxtı kimi mühüm əhəmiyyətə malik bir şəhərə çevrilmişdi. XVIII əsrin sonlarına doğru şəhərin əhalisi sürətlə artaraq sənətkarlıq və ticarət inkişaf etməyə başlamışdı. Hələ Pənah Əli xanın dövründə Şuşada başlayan böyük tikinti işləri sonralar İbrahimxəlil xanın (1763-1806-cı illər) dövründə daha da genişləndi. O dövrdə, Qarabağ xanlığının ərazisində Əskəran, Ağoğlan kimi mühüm əhəmiyyətli qalalar tikilmiş, təbii gözəlliyi, daş döşənmiş enli küçələri, möhtəşəm qala divarları gələnləri özünə heyran buraxmışdı. Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin ayrıca məscidi, bulağı və hamamı var idi. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından əvəzsiz idi. Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən "Xarı bülbül" gülü bu gün Şuşanın rəmzinə cevrilib. Şuşalılar tarixən cəngavər ruhlu olub düşmənlərə qarşı həmişə cəsarətlə mübarizə aparıblar. Vaxtilə Qacar Şahın qalanı uzun müddət mühasirədə saxlayıb ala bilməməsi deyilənlərə sübutdur. Bu şəhərin məğlubiyyətə uğraması yalnız xəyanət sayəsində mümkün olmuşdu. XIX əsrin əvvəllərində 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Rusiyanın Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında Kürəkçay müqaviləsi ("Andlı öhdəlik") imzalandı. Bununla da Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil oldu və dərhal bu səfalı bölgəyə çarizmin mövqeyini möhkəmlətmək üçün ermənilərin köçürülməsinə başlandı. Ermənilərin Marağadan..... Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə qoyduğu abidə də onların bu bölgəyə gəlmə olduğunu təsdiqləyən ən böyük dəlildir. Onlar Qarabağ hadisələri başlayanda saxta iddialarını əyalanlayan bu abidəni partlatsalar da şəkillərdə və tarixi sənədlərdə bu fakt var və bunu da bütün dünya artıq bilir.

Birinci Pyotrun ermənilərlə bağlı vəsiyyətinə hər zaman əməl edən ruslar erməniləri bura daşımaqdan vaz keçmədilər və 1804-1813-cü, 1826-1828-ci illərdə, həm də sonralar İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən, Qarabağa köçünü dayandırmadılar. Nəticədə Qarabağda onların sayı ilbəil artmağa başladı. Lakin bu məkrli siyasət Azərbaycanda sovet hökuməti qurulduqdan sonra da davam etdirildi. Belə ki, Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verildi və beləliklə də, bu addım Ermənistanın Dağlıq Qarabağa dair gələcək ərazi iddiaları üçün bir zəmin yaratmış oldu. Halbuki, Qarabağ 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının tərkibində olmaqla, 1921-1991-ci illərdə Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi sayılırdı.

Ötən əsrin 80-ci illərinin sonunda ermənilər "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair yenidən ərazi iddiaları irəli sürdülər. XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı nəticəsində rəsmi irəvan Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. 1992-ci il mayın 8-də daşnak dığaları Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirdilər. Və bu işğal 30 ilə yaxın davam elədi. İşğal illərində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edildi və dağıdıldı. Həmçinin, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, məscidlər, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunələri də erməni barbarları tərəfindən talan və məhv edildi.

Lakin zaman gəldi və bu torpaqlar işğalçıların ayaqları altında od tutub yanmağa başladı. Azərbaycanın müzəffər oldusu dövlət başçısı, Ali baş komandan İlham Əliyevin sərkərdəliyi ilə işğal olunmuş torpaqları düşməndən geri aldı. Azad olunan şəhərlər arasında Şuşanın adı təkcə ölkə vətəndaşlarını deyil, dünya azərbaycanlılarını sevindirdi, düşmənin başına enən dəmir yumruq xalqımızı cənab prezidentin ətrafında sıx birləşdirdi.

Bir vaxtlar "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhərinin geri alınması ümimmilli liderimiz Heydər Əliyevin illər əvvəl Şuşa haqqında müdrikcəsinə dediyi "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur" kəlmələrini bizə bir daha xatırlatdı. Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Azərbaycanın tarixi şəhəri, bütün Qafqazın mədəniyyət mərkəzi hesab edilən, öz hərbi-strateji önəmi ilə yanaşı, həm də mənəvi əhəmiyyəti olan Şuşanın şanlı ordumuz tərəfindən azad edildiyini qürür hissi ilə bildirdi: "Şuşa Azərbaycan üçün milli qürurdur, milli mənlikdir, mədəniyyətdir, incəsənətdir, tarixdir. Rəşadətli Ordumuzun Şuşaya bayraq sancması və bu xəbərin müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən xalqa çatdırılması 28 ildən sonra milli qürurumuzun da, mənliyimizin də, mədəniyyətimizin də, incəsənətimizin də, tariximizin də azad edilməsini, hətta yeni yüksəliş mərhələsinə daxil olmasını sübut etdi. Şuşanın işğaldan azad olunması Qarabağın döyünən ürəyinin xilas edilməsi demək oldu".

Xalqımız uzun illər boyu bəlkə də heç vaxt bu qədər sevinc, qürur yaşamamışdı, üçrəngli bayrağımıza bu qədər sevgi, məhəbbətlə yanaşmamışdıq. Bu tarixi müjdəyə sevinən xalqımız Azərbaycanın bütün şəhər və bölgələrində üç rəngli bayraqlarımızı dalğalandıraraq bir daha Bayrağımıza, qələbəmizə olan sevgilərini böyük coşqu ilə nümayiş etdirdilər. Şuşaya bayrağımızın sancıldığı 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olundu. 2021-ci il mayın 12-13-də hər bir azərbaycanlı üçün müqəddəs məkanda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalı keçirildi. Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" musiqi festivalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həm də layiqli cavab oldu.

**Avqustun 30-da isə 39 il əvvəl-1982-ci ildə ilk dəfə keçirilmiş Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə yenidən təşkil olundu. Ölkə başçısının sərəncamına əsasən 2022-ci il "Şuşa ili" elan edilib. Hər yerdə, bütün təhsil müəssisələrində bu münasibətlə tədbirlər keçirilir. Şagirdlərin yazdığı inşalar, şeir və digər yazı nümunələri yayılır. Mən də öz şagirdlərimlə birgə möhtəşəm tədbir həyata keçirdik. Balaca yetirmələrimin ifasında Şuşaya həsr edilmiş şeirlər, nəğmələr səsləndi. Şuşanın və digər işğal olunmuş torpaqlarımızın azad olunması yolunda canlarını qurban vermiş Şəhidlərin əziz xatirəsi yad olundu. Bu kiçik yazımı da Şuşa ilinə həsr edərək böyük işə öz töhfəmi vermək istərdim. Qarabağ Azərbaycandır. Şuşa bizimdir. Yaşasın müzəffər ordumuz və Azərbaycan xalqı!**



Vüqar Abbasov

# Gərginliyi azaldan nədir?

*Əgər bu suala "pul" deyə cavab verirsinizsə, bu yazını sona kimi oxumağınızı xahiş edirəm.*

*Məndə belə təəssürat var ki, Azərbaycanda yaşayan soydaşlarımızın əksəriyyəti Avropada insanların hamısının zəngin həyatı yaşadığını düşünür; burada insanlar çox az saat işləyir, günün yerdə qalan hissəsini kafelərdə, restoranlarda keçirdirlər. Maaş da o qədər yüksəkdir ki, bir aylıq maaşla maşın, iki aylıqla ev, bir neçə ay toplasan isə Marsda torpaq belə almaq mümkündür. Ona görə də insanlar gülərüz, şən görsənirlər. Gərginlik filan da ya yoxdur, ya da azdır. Əlbətdə ki, bir qədər mübaliğə etdim, amma buna bənzər düşünənlər də az deyil. İnsanların əksəriyyətinin gülərüz, qayğısız görsənməsi isə mübağilə hesab edilməməlidir. Bunu isə həmişə pula, madiyyata bağlamağı düzgün hesab etmirəm...*

*...Əvvala oradan başlayaq ki, Avropa böyükdür və qoca qitənin hər yerində insanların yaşayış səviyyəsi eyni deyil. Bu yazımda Qərbi Avropadan, bir qədər daha dəqiqləşdirsəm, Niderlanddan bəhs edəcəm və çalışacam ki, qısa olsun. Daha doğrusu insanların gülərüz, qayğısız görsənməyinin səbələrindən yazmaq istəyirəm, əlbətdə ki, şəxsi düşüncələrimi.*

*Niderlandda minimum əmək haqqı bu ilin iyul ayının birindən 1.756,20 olub. Söhbət 36-40 saatlıq iş rejimində işləyən birinin əmək haqqından gedir. Başqa sözlə, burada insanlar həftənin beş gününü işləyib, iki gününü istirahət edirlər. Amma bu məbləğ sizə çox görsənməsin. Əgər ailədə bir nəfər işləyib bu maaşı alarsa, dolanmaq o qədər də asan olmaz. Baxmayaraq ki, minimum əmək haqqı olan şəxslərə bir çox güzəştlər nəzərdə tutulub. Lakin bu gün bu barədə yazmayacam. Bəs necə olur ki, bu qədər əmək haqqı alan birinin üzündə gərginlik ya olmur, ya da az olur? Axı bu maaşla dolanmaq asan deyil. Bax bundan söhbət açmaq istəyirəm.*

*...Səhər tezdən durub işə getməmişdən öncə əl-üzünü yumaq, duş qəbul etmək təbiidir və bunları etməyin üçün də heç bir problem yoxdur; isti-soyuq su daimidir. İşıq da, qaz da kəsilmir. Yəni səhər tezdən əsəbləşməyin üçün əsas yoxdur...*

*İş yerinə ictimai nəqliyyatla gedəcəksən? Avtobuslar vaxtında işləyir, yəni problem yoxdur. Etiraf edim ki, qatarların hərəkəti barədə bunu demək mümkün deyil. İşə şəxsi maşınınla gedəcəksən? Yollar rahatdır. Yolboyu da əsəbləşməyin üçün əsas olmur; hamı maşını öz yolu ilə sürür, işıqforda (sfetaforda) yaşıl işıq yanmamış arxadan, sənin yaşıl işığı görməyəcəyin qədər kor olduğunu düşünüb, siqnallayan yox, bədəninin bütün ağırlığını sağ ayağının üstünə salıb maşına dibinə qədər qaz verən yox... Sağa-sola dönən hər kəs dönməni bildirən xəbərdarlıq işığını yandırır... (Təbii ki, bəzən qaydaları pozanlara da rast gəlirsən, amma bəzən...)*

*...Gəlib çıxırsan iş yerinə. İşçilər üçün qoyulmuş aparatda hər cür içki var, hansından istəyirsən iç: qəhvə, espresso və daha neçə cür içkilər. Çay istəyirsən? O da var, hazırla və iç. Özünlə yemək gətirmisən? Qoy soyuducuya. Meyvə yemək istəyirsən? Mətbəxdə işçilər üçün qoyulmuş meyvələr vaxtaşırı təzələnir, hansından istəyirsən seç. İşini keyfiyyətli icra etmən üçün nə gərəkirsə verirlər; iş yerinin maşını, limitsiz danışıq dəqiqələri, internet olan telefon, bir tablet, bir komyuter və.s. Təbii ki, əgər bunlardan hər hansı biri sənə işini icra etməyin üçün lazımdırsa. Rəhbərlikdə olanlar da kiminsə adamı olması mümkün deyil, demək olar ki, hamısı peşəkar, işini bilən adamlar olurlar. Həmkarların da işə pulla, tanışlıqla qəbul edilməyiblər. Rəhbərlik hanısısa həmkarını "qara aş-gözünə," daha doğrusu, buranın durumuna görə "sarı qaş-gözünə" görə üstünlük vermir. Hamıya yanaşma eynidir, hər kəsə bacarığına görə dəyər verilir...*

*...Tv - yə baxırsan, yaltaqlıq görmürsən. Bir çox halda eşitmək istədiklərini də eşidirsən. Məsələn, son vaxtlarda bir çox məhsulların qiymətlərinin qalxmasını öz gündəlik həyatında hiss edə bilirsən və bunu tv - də də eşidir, görürsən. Bu baxımdan təqidi verilişlər də verirlər. Qəzetləri vərəqləyirsən, o da onun kimi. İnsanların gündəlik həyatında rastlaşdıqları, rastlaşa biləcəyi çətinliklərdən də yazırlar. Sənin haqqının tv - də də, qəzetdə də müdafiə olunduğunu görmək adamda xoş hiss yaradır və əsəbin, gərginliyin azalır. Mətbuatda arsız-görsuz yaltaqları görüb əsəbləşmək kimi bir qayğın da yoxdur...*

*Harınlamış məmurlardan söhbət gedə bilməz. Bir örnək, bələdiyyə başçısı da marketdən bazarlıq edir və gəlib kassada hamı kimi növbədə dayanır. Kimsə də onu bələdiyyə başçısı olduğu üçün önə buraxmağı düşünmür...*

*Hər hansı bir sənəd almaq lazımdırsa, yaşadığın bələdiyyədə bir neçə dəqiqəyə bunu həll edə bilirsən. Burada belə xidmətlər çox asandır və əsasən bələdiyyədə həll etmək mümkündür.*

*...Uzun yaza bilərəm, amma bu qədər bəsdir. Bir sözlə, gündəlik həyatında nəyə əsəbləşəsən? Burada insanların hamısı zəngin deyil, amma adamı gərginləşdirəcək səbəblər də çox deyil. Şəxsən mənim üçün gərginlik gətirəcək əsas səbəb, doğmalarımdan, yaxınlarımdan, elimdən-obamdan uzaqda olmağımdır.*

*Necə düşünürsünüz, gərginliyi azaldan nədir?*

***P.S.** Əlbətdə ki, burada bütün iş yerlərində belə şərait yoxdur. Amma söhbət çoxluqdan gedir, əksər iş yerlərində buna bənzər şərait yaradılıb.*

*Niderland.*
*Vugarabbasov@hotmail.com*

# QALİB ŞƏFAHƏTİN ŞƏFAHƏTLİ MİSRALARI



YUSİF HƏSƏNBƏY

**Şair Qalibin "Eşqə batır yanaqlarını" kitabındakı əsərlər yığcamdır, lakonikdir, sözə qənaətlə yazılmışdır. Forma axtarışlarının rəngarəng tapıntıları, həyat faktlarının, detalların bolluğu misraların dinamikasını gücləndirir, şeirlərin çəkisini, sambalını artırır. O da çox dəyərli və gözəldir ki, poetik fikirlər ütülənmiş, trafaret qafiyələrlə, sürtülmüş təyini birləşmələrlə deyil, ilk baxışda göz qamaşdıran, duyğuları qıcıqlandıran, biraz köntöv lakin təzə bədii obrazlarla ifadə olunur və müəllifi fərqləndirən bu cəhəti biz, onun yaşıdı olan gənc şairlərin yaradıcılığında da görmək istərdik. Ancaq bəzi hallarda forma və məzmunca təzə yaradılan və təqdim olunan söz və yaxud ifadə birdən-birə anlaşılmır. Yaradılmış təzə, həm də yaxşı yonulmamış söz misraların musiqi təranəsini "xaric" notlarla zədələyir. Oxucu bu "xaric"in mənşəini araşdırır, onu doğru-düzgün anlamağa çalışır. Bu, əlbətdə, xoşagələndi, təqdir olunandı. Oxucu istər-istəməz oxuculuq "çərçivəsindən" çıxır, daha geniş yaradıcılıq sferasına daxil olur.**

Şair Qalib bir şeirində "Ürəyimə yağmur yağış, ürəyim quraqda qalıb" -deyə fəryad çəkir. Bizi düşünməyə vadar edir. Bəs, axı, ay qardaş bu "quraqda" nə deməkdi? Quraqda qalmaq necə olur? Bəli! Üstünə yağış yağmayan, sudan korluq çəkən, dumandan, çisəkdən məhrum torpaq dəmyə, quru torpaqdır. Şair sevgisiz, məhəbbətsiz yaşamağı bitkisiz, cücərtisiz dəmyədəki cansız, sönük həyata bənzədir.

Bir qayda olaraq, işi düz gətirməyən, çətinliklərlə üzləşən, əllərini göyə açıb, Allahdan, tanrılardan aman istəyir, şaxsey-vaxseylərlə başına-dizinə döyür. "Çünki oldun dəyirmançı, çağır gəlsin dən "Koroğlu" atalar sözüylə təsəlli tapır. Lakin, şair hesab eləyir ki, üzə çıxan bədbəxtliyin səbəbini başqa yerdə yox, özümüzdə axtarmalı və çətinlikdən qurtarmaq yolunu da özümüz tapmalıyıq. Gəlin "Vur başıma ürəyimi" şeirini birlikdə oxuyaq:

*Sevib-sevilə bilməyib,*
*Danışıb dinə bilməyib.*
*Sənsiz ki, ölə bilməyib,*
*Vur başıma ürəyimi!*

*Etibarsız sirdaş kimi,*
*Başsız qalan, bir baş kimi,*
*Al əlinə, vur daş kimi*
*Vur başıma ürəyimi!*

Adətən şeir oxuyarkən biz, misraları pillə-pillə enib, vərəqin ayağındakı sonluğa, şeirin "konsovkasına" yaxınlaşırıq. Amma, sən demə, misra pillələri endikcə biz, kulminasiya nöqtəsinə qalxırıq. Bu kriteriya Qalibin əksər əsərlərində görünür. Amma bəzi şeirlərində forma dağıntılarıyla üzləşirik. "Gecəni çəkib qoymuşdu ayağımın altına, səhərə çıxmaq üçün! Gecə qəflətən sürüşdü ayağımın altından"... Fikir bitdi, şeir tamamlandı. Buna təəssüflənir, lirik qəhrəmanın halına acıyırıq. Lakin sonrakı "Gecədə tapa bilmədi özünü, qaranlıq içində itib -batdı" söhbəti şeirə yamaq kimi görünür. "Eşqə batır yanaqlarını", "Əllərində göy üzü" və buna bənzər bir sıra misralardan doğan assosiativ görüntülərin rəsmini kağıza köçürmək və şərh etmək olar. Lakin bu assosiativ təsir ayrı-ayrı intellektlərin dünya görüşündən, düşüncə tərzindən, poyetik duyumun kateqoriyasından, həssaslığın gücündən asılı olaraq dəyişə bilər. Müəllif belə dumanlı misralardakı fikirlərə aydınlıq gətirə biləcək heç bir detaldan istifadə etmir. Nəticədə şeir "təfsilatlar" mərəzindən qurtarır, uzunçuluğa son qoyulur. Misranı doğru-düzgün anlamaq şərəfi bizim ixtiyarımızdadır, və təbii ki, belə məqamlarda "iman bir yerə, güman min bir yerə" gedir. Biz də yozmalarla, fərziyələrlə, gümanlarla, bəlkələrlə əlbəyaxaya çıxırıq! Şair, şeirlə oxucu arasında görnüş yaratmağa nail olur.

Bir zamanlar yemək yeyəndə də gözümüzün ucuyla oxuduğumuz dastanların, nağılların romantik ab-havası bizi ömrümüz boyu tərk etmir. Şair Qalibin o sehirli aləmdən baş alıb gələn "Sevgi nağılı" şeiri bu gün nə qədər gərəkli, necə də aktualdır. Sevgiləri, məhəbbətləri gündən-günə cılızlaşan cəmiyyətimizi qəflət yuxusundan oyadan təbil nərələridir. Bir qayda olaraq nağıllarımızın sonunda göydən üç alma düşür. Nağılçı da bu almaların biri sənin, biri mənim, biri də nağı söyləyənin deyib, nağılı bitirir. Nağılın mifik qəhrəmanı ovsunlanmışdır. Uçan xalça onu göyün yeddinci qatına qaldırır. Nurlar içindəki kəhnəşan xalçanın uçuş yoludur. Yollar boyu yanıb-sönən "Mikma", "Qəyənduz" ulduzları uçuşları tənzimləyən işıqforlar "Kiçik Ayı bürcü" cəhətləri göstərən kompasdır. Xəyalları göylərdə dolaşan lirik qəhrəman birdən qeyzlənir. "Alma nağılın sonunda düşür. Sən lap əvvəlində yedin almasını nağılımızın. Nağılımızın sonunda alma düşmədi...Daş düşdü sevgimizin yarımçıq binasından".

Və nə təəssüflər ki, "Yandı bağrım hicr ilə, vəsli-ruhi yar istərəm, Dərdiməndi xəstəyəm, dərmanı-didar istərəm" -deyə fəryad çəkmədi müasirimiz Məcnun. "Tutuşdu qəm oduna şad gördüyün könlüm! Müqəyyəd oldu ol azad gördüyün könlüm" -deyə göz yaşlarını axıtmadı Leyla! Biz sevgililərin halına acıyırıq. Məhəbbət nə üçün bir belə ucuzlaşıb? Heyfslənirik. Amma müəllif də bu suala cavab vermir.

"Ümidsiz qaldıq" şeiri samballıdır, ağırçəkilidir. Müəllif, əsrlər boyu millətimizin psixologiyasında tərbiyəvi-estetik kriteriya kimi yaşayan, "Əlsizin əlindən tutmaq", "Yıxılanı qaldırmaq", Ehtiyaclıya gərək olmaq" kimi humanist normaların it-bat olacağından ehtiyatlanır. Əlbətdə! Yeri var! Şair bizi təkcə xalqımızın yox, cəmi insanlığın rifahına hesablanmış adət və ənənələrimizi yaşatmağa, zənginləşdirməyə çağırır.

*Yol vermədik bir-birimizə*
*Yollarda azdıq.*
*Çatammadıq son mənzilə!*
*Ümidləri yelə verdik, yel apardı!*



*Arzuları çölə atdıq, sel apardı!*
*Eşqə əl uzandı. Kəsəmmədik, -*
*Əl apardı.*
*Bir sən qaldın, bir də mən!*
*Ümidsiz, arzusuz, eşqsiz.*
*Olmuşuq bir-birimizə gərəksiz!*

Çinin Pekin şəhərindəki Diyarşünaslıq muzeyində xalqın tarixi keçmişini və bu günlərini müqayisəli əks etdirən eksponatlarla, foto-sərgilərlə tanışlıqdan sonra, elə burdaca vətəndəki qohum-qardaşlar üçün xırda-para hədiyyələrlə doldurduğun çantanı çiynimdən aşırıb, çıxacaqsan eşiyə. Qədim rikşalarla, son dəbli maşınlarla dolu küçələrdə dolaşıb, yaşadığın ünvanı axtaracaqsan. Lakin hanı! Hardadı, divarlarında reklamları parlayan o otel? Nə qədər axtarsan da Səmtini, istiqamətini tapa bilməyəcəksən! Səni çaşqın görən Çinli gənc yanında ayaq saxlayacaq. Əlindəki çantanı götürüb səni öz maşınında axtardığın otelə gətirəcək. Maşından düşəcəksiniz. Çinli gənc cütləşdirdiyi əllərini sinəsinə sığıb bəlkə on dəfə, ya bəlkə onbeş dəfə sənə baş əyəcək. Üzü gülər, kefi kök oğlan səcdələri böyük məhəbbətlə, özü də gülə-gülə yerinə yetirəcək. Əslində sən ona minnətdarlığını bildirməlisən. Vaxt itirib, yanacaq işlədib. Amma noolsun? Çinli gənc bir ehtiyaclıya yardım əlini uzatmaq, kömək etmək imkanı qazanıb. Sən ona bir "Gərək olmaq" xoşbəxtliyi bağışlamısan.

Şairin əksər şeirlərində nəzərə çarpan bir cəhətin, - çoxluğuna daha çox ehtiyacımız olan - az sözlə dərin fikirlər söyləmək cəhdi və bacarığıdır və biz də bu üslubun sirayətedici olmasını istərdik. Ümumbəşəri şeir xəzinəsinin ən parlaq işçiləri ustad Fizulinin qələmindən çıxanlardı. Uzaqgörən ustad, təkcə şairləri yox, "hər ləhzə yoxdan var olan"dan istifadə edənlərin hamısını sözü qədir-qiymətə mindirməyə çağırmışdır. Füzuli kamanından poeziya hədəflərinə tuşlanan oxların heç biri boşa getməmişdir. Sərrast, mahir nişancan bütün oxları Allahın rizası və mehriylə hədəflərdə onluqlara oturtmuşdur. "Ver sözə ehya" deyib, sözün qədrini artıran şair sidq ilə öz qədrini də artırır, heç özü də bilmədən şöhrət zirvələrinə yüksəlmişdir. Söz gözəlinin nazından inciməyin. Onun ədalarını sevə-sevə, şıltaqlarına dözə-dözə özünüzə ram edin. Lazım gələrsə rəndələyim, onu vəznin qəlibinə oturdun. Söz yanındakı sözlərin mənasını anlatmağa xidmət etsin. "Gər çox istərsən, Fizuli, izzətin, az et sözü" deyərək, bu təxirəsalınmaz problemin həllinə səfərbər olduğunu bildirir, həmklarlarını, qələm dostlarını da bu vacib məsələnin həllinə həvəsləndirirdi. Lakin kimə deyirsən? Sən saydığını say! Şərqin canlı korifeyləri hər fəsli bir qatır yükü dastanlar yazmaq, divanlar bağlamağ işini davam etdirirdilər. "Yerin qulağı var" Bu kəlamın doğruluğuna Yapon şairləri bizi əsaslı inandırdılar. Füzuli babamızın məskun olduğu Ərəbistandan çox uzaqlarda yaşayan Yaponiya şairləri Füzulinin "az et sözü" tövsiyəsini eşitdilər. Beş misrada 32 heca olmaq şərtiylə "Tanka"lar yazaraq başladılar. Gündoğar ölkədə qısa yazmağa meyllər gücləndi. Şair Baş -Yo üç misralıq - hər misrası dörd-beş hecalı "Hokku"ların müəllifi kimi məşhurlaşdı. Türkdilli xalqların şair oğlu Nazim Hikmət Füzulinin "az et sözü" kəlama uyğun qısa şeir nümunələri yaratdı.

*-Papiroisun varmı, dedim,*
*-Var -dedi!*
*-Kibrit?*
*-Yox!*
*-Papirosunu küllərin atəşi*
*Yandırar dedim!*

Şair Qalib Şəfahət can həkimidir. O, işini yaxşı bilən, bu sənətin sirrləırindən agah olan loğmanlardan biridir. Bütün həkimlər kimi o da Hippokrat andına sadiqdir. Andın müddəalarında qızıl xəttlə keçən insan ucalığını ucalarda saxlamaq, şəxsiyyətə qayğı və diqqət göstərmək kimi yüksək insani dəyərləri iş təcrübəsində reallaşdırır, şeirlərində təbliğ edir.

*Sevgilim, qəlbimi qırma,*
*Soyuğa, borana tab gətirə bilməzsən!*
*Hələ neçə qarlı, çovğunlu*
*Qış var qabaqda!*

**Dolğun, ictimai məzmunlu, həm də böyük Füzulinin "az et sözü" tövsiyyəsinə rəğmən əsərlər yazan Qalibin yaradıcılığın ziq-zaqlı yollarından şərəflə keçəcəyinə inanırıq.**

## "Araz-Naxçıvan"ın ÇL-dəki rəqibləri məlum oldu



**Futzal üzrə ölkə birinciliyinin qalibi "Araz-Naxçıvan"ın UEFA Çempionlar Liqasının əsas mərhələsindəki rəqibləri bəlli olub.**

Qol.az xəbər verir ki, mübarizəyə əsas mərhələdən start götürəcək Joze Alesionun komandası B yolunda yarışacaq.

Təmsilçimiz burada 5-ci qrupunda olacaq.

"Araz Naxçıvan"ın rəqibləri "Mostar" (Bosniya və Herseqovina), həmçinin ilkin mərhələnin D qrupunun (İsveçrə "Mineva"sı, Serbiya "Loznika-Qrad 2018"i, Norveç "Vesteralen"i, San-Marino "Folqore"si) və F qrupunun (Gürcüstan "Georgians"ı, Almaniya "Ştutqart"ı, İsveç "Orebro"su, Türkiyə "İstanbul Şişli"si) qalibləri olacaq. Qrup oyunları Bosniya və Herseqovinada keçiriləcək.

Qeyd edək ki, əsas mərhələnin oyunları 25-30 oktyabr tarixlərində keçiriləcək.

**B yolunda yalnız qrup qalibləri elit-raunda vəsiqə qazanacaq.**

## "Beşiktaş" yeni hücumçu aldı



**"Beşiktaş" heyətinə yeni futbolçu qatıb.**

Qol.az xəbər verir ki, İstanbul təmsilçisi "Standard"dan (Belçika) Cekson Mulekanı transfer edib.

22 yaşlı hücumçu ilə 5 illik müqavilə imzalanıb.

Qeyd edək ki, Cekson ötən mövsümü icarə əsasında "Kasımpaşa"da keçirib.

O, bu müddət ərzində 14 matçda 12 qol vurub.

# Erotik filmlərin aktrisası, saqi, striptiz ulduzu, qatili sevgilisi olan FERİ CANSEL

**Türkiyə erotik filmlərdə bir çox məşhur adlar populyarlıq qazanmış və onları ancaq bu üslubda çəkilən filmlərdə görməyi adət etmişik.Onlardan Zerrin Egeliler, Arzu Okay, Zerrin Doğan, Figen Han kimi aktrisaları çoxunuz tanıyırsınız. İntim səhnələrdə rol alan belə aktrisalardan biri də aktrisa Feri ( Feriha) Canseldir. O məşhur aktrisa Zümrüt Canselin anasıdır.**

Adalet.az Türkiyə mediasına istinadən xəbər verir ki, Türkiyədə sinəsini slikon etdirən ilk qadın, barlarda ilk striptiz göstərən məşhur kimi tanınan aktrisa Feri Cansel 7 iyul 1944-cü ildə Kiprin Lefkoşa (Nikosiya) şəhərində doğulub. Bir müddət sonra ailəsi ilə birgə Böyük Britaniyaya köçüb. Feriha Cansel ilk evliliyini İngiltərə vətəndaşı ilə edib və bu evlilikdən adını Zümrüt qoyduğu qızı dünyaya gəlib. İngiltərə vətəndaşı olan Canselin evliliyi bir müddət sonra sona çatdıb. Sonra o, Türkiyədə qalmaq üçün türk rejissorları ilə görüşməyə başlayıb və bir mənzil işçisi ilə razılaşaraq evlənib. 1964-cü ildə Cansel ilk dəfə "Qan və Qürur" filmindəki kiçik rolu ilə Yeşilçama addım atdı. Amma onun əlavə olaraq qazandığı pulla yaşaması mümkün deyildi.

O, məşhur "Parisien" gecə klubunda içki paylayan kimi işə başlayıb.



### *Məşhur "Parisien" gecə klubunda içki paylayan*

Daha sonra bu klubda striptiz ulduzu kimi çalışıb. 1960-1970-ci illərdə günün şərtlərinə uyğun bazar filmlərində rol alan Cansel kişi davranışı və söyüşdən əskik olmayan danışıq tərzi ilə "Kasımpaşalı Emmanuel" kimi tanınırdı.

Yılmaz Güneylə yolları kəsişən Cansel "Çirkin Kral"adlı bu aktyora aşiq olub. 1969-cu ildə Yılmaz Güneyin "Çirkin Adam" filmində rol alıb. Yılmaz Güneyin ssenarisi və rejissorluğunu etdiyi "Çirkin Adam" 1970-ci ildə Antalya Qızıl Portağal Film Festivalında "ən yaxşı film" daxil olmaqla 3 mükafat qazandı.

Uzun müddət sevgili olduğu Yılmaz Güneyin onu atması Ferihanı çox sarsıtsa da yeni sevgililəri bu sarsıntını tez unutdurur. Sadri Alışıkla birlikdə çəkdiyi filmlərlə şöhrətini artıran Cansel heç vaxt peşəsindən utanmayıb, əksinə, erotik film dövrü ilə bağlı bunları deyib:"Çılpaqlıq bütün dünyada mövcuddur. Almaniyada bu filmləri canla-başla oynayırlar. Soyunmayanlar məndən yaxşı oyunçudur, yoxsa soyunan dostlarım mənim kimidir? Bununla belə, ssenari bunu tələb etdiyinə görə soyunuruq. Tamaşaçı da belə istəyir".O, 1979-cu ildə konsert üçün getdiyi İzmirdə tanış olduğu ticarətlə məşğul olan Melih Üklə eşq yaşayıb. Daha sonra Melih Ük İstanbula köçdü və cütlük birlikdə yaşamağa başladı. Madoda "Zümrüt" adlı market də açdılar.

2 sentyabr 1983-cü il ... Hadisəni aktrisanın qızı Zümrüt belə istintaqa belə danışmışdı: ""Anam şəxsi əşyalarını almağa gələn Melihlə mübahisə edərkən mən otağımdan çıxdım. Anam ağlayırdı. Bir müddət içəri girdim. Melihin əlində silah var idi.

Əvvəlcə elə bildim ki, zarafatla anamı qorxudursan. Silah səsi ilə içəri qayıdanda anamın divara sürtünərək yerə yıxıldığını gördüm.Silah yenidən işə düşdü və yadımdadır ki, huşsuzca anamın üzərinə yıxıldım. Aralıq lülədən çıxan güllələrdən biri alnıma dəydi".

Qətldən iki gün sonra Melih Ük Madoda yaxalanıb. Polis bölməsində o, Ferinin onu qorxutmaq üçün silahı götürdüyünü və sonradan yaranan xaos zamanı tapançanın işə düşdüyünə peşman olduğunu bildirdi.Aktrisa "Sarı Necmiye","Profesyonel", "Şaşırtma Beni", "Püsküllü Bela","Hasan Almaz Basan Alır", "Kadınlar", "Ah Deme Oh De", "Ye Beni Mahmut", "Beş Dakikada Beşiktaş", "Malın Gözü Kadınlar","Deli Deli Tepeli" kimi erotik filmlərlə yaddaşlarda qaldı.

**Qeyd edək ki, Feli Cansel yaşasaydı bu gün 78 yaşını qeyd edəcəkdi.**

**Əntiqə Rəşid**

## Canavartəpədə arxeoloji qazıntılar geniş vüsət alıb



**Ağcabədi rayonu respublikamızın qədim yaşayış məskənlərindəndir. Burada zəngin tarixi mənbələr vardır. Bölgə ərazisində mövcud olan saysız-hesabsız təpələr, kurqanlar, tarixi abidələr bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Rayonun Taynaq kəndi ərazisində də təpə-kurqanlar önəmli əhəmiyyətə malikdir.**

Son vaxtlar respublikamızda tarixi-mədəni abidələrin aşkarlanması, arxeoloji qazıntıların aparılması milli kimliyimizin, tariximizin öyrənilməsi istiqamətində təqdirəlayiq addımlar atılır. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu bu sahədə mühüm işlər həyata keçirir. Adıçəkilən institutun Qarabağ neolit-eniolit ekspedisiyası və Almaniya Arxeologiya İnstitutu ilə birgə Taynaq kəndi ərazisində Qarabağın Leylatəpə layihəsi çərçivəsində Canavartəpə adlanan kurqanda bu ilin iyun ayının əvvəllərindən aparılan arxeoloji qazıntılar buna əyani misaldır.

Milli Elmlər Akademiyası Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı, Qarabağ neolit-eniolit ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru Xəqani Alməmmədovun sözlərinə görə, Canavartəpə ərazisində aparılan arxeoloji qazıntılar alman arxeoloq doktor Mark İserlis ilə birgə aparılır.



Ekspedisiya heyəti 30 nəfərdən ibarətdir. Aparılan qazıntılar zamanı ekspedisiya eramızdan əvvəl IV minilliyə aid erkən yaşayış məskəninin qalıqlarını aşkar edib. Leylatəpə mədəniyyətinə aid 4 tsikli qalığı olan xalkolit, erkən və son tunc dövrünə aid qəbirlər, ocaq qurğuları, küp, müxtəlif təyinatlı maddi-mədəniyyət abidələri aşkar olunub. Alimin dediyinə görə, eramızdan əvvəl IV-I minilliklərə aid tapılan skeletlər də böyük maraq doğurur. Bütövlükdə, aparılan qazıntılar sübut edir ki, bu ərazi Qarabağın, eləcə də, Qafqazın sıx əhali yaşayan lokal mədəniyyət mərkəzlərindən biri olub. Hələ qədim dövrlərdən Ağcabədi və Ağdam ərazilərində çoxsaylı əhali məskunlaşıb.

**X.Alməmmədov söhbət zamanı bunu da əlavə edib ki, qazıntı işləri geniş surətdə davam etdiriləcək, yaxınlıqda yerləşən digər təpələrdə də analoji qazıntı və tədqiqat işləri aparılacaq. Qazıntı layihəsi 5 il üçün nəzərdə tutulub.**

**Adil MİSİRLİ**

## "Qarabağ"-"Lex" oyununa nə qədər bilet satılıb?




**"Qarabağ"ın Çempionlar Liqasının 1-ci təsnifat mərhələsində "Lex"lə (Poznan, Polşa) Tofiq Bəhramov adına Respublika Stadionunda keçirəcəyi ev oyununa bilet satışı davam edir.**

Qol.az xəbər verir ki, görüş üçün indiyədək 9500 bilet satılıb. Sözügedən oyuna biletlərin qiyməti sektorlara uyğun olaraq 5, 10, 20 və 50 manat təşkil edir. Biletləri "Iticket.az"ın satış məntəqələrindən (11:00-dan 20:00-dək) və onlayn şəkildə, həmçinin, Ağdam təmsilçisinin Park Bulvardakı fan-şopundan (11:00-dan 20:00-dək), matçın keçiriləcəyi Tofiq Bəhramov adına Respublika stadionunun kassalarından əldə etmək olar. Mərkəzi arenanın kassalarında bilet satışı bu gün saat 15:00-da başlayacaq və 20:00-dək davam edəcək. Digər satış günləri isə 10:00-dan 20:00-dək olacaq.

Qeyd edək ki, iyulun 12-də oynanılacaq qarşılaşma saat 20:00-da başlayacaq. Komandalar arasında ilk görüş "Lex"in 1:0 hesablı qələbəsi ilə başa çatıb.




## *"Qətər-2022"də stadionlarda spirtli içki satılmayacaq*

**Bu il Qətərdə keçiriləcək dünya çempionatı zamanı azarkeşlər stadionlarda spirtli içki ala bilməyəcəklər.**

Qol.az xəbər verir ki, stadionlardan kənarda spirtli içkilərin alınmasına yalnız müəyyən matçlardan əvvəl və sonra icazə veriləcək.

Stadionlarda matç zamanı spirtli içkilər satılmayacaq. Spirtli içkiləri yalnız tənzimlənən yerlərdə almaq mümkün olacaq. Qeyd edək ki, Qətərdə ictimai yerlərdə spirtli içki qəbul etmək qadağandır.

Bundan əlavə, spirtli içkilərin ölkəyə müstəqil idxalı da qadağandır.

**Xatırladaq ki, Qətərdəki dünya çempionatı noyabrın 21-dən dekabrın 18-dək keçiriləcək.**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 86
Çapa imzalanmışdır: 08.07.2022